# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 217 (8533) ÇƏRŞƏNBƏ, 21 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İLHAM ƏLİYEV Zəngilanı işğaldan azad etdi

## Ordumuz daha 24 yaşayış məntəqəsində Azərbaycan bayrağını ucaltdı

## Ermənistanı diz çökdürmüşük

Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.

### Prezident İlham Əliyevin müraciəti

- Əziz həmvətənlər, müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq.

Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram. Hər bir kəndin, hər bir şəhərin, hər bir strateji yüksəkliyin işğalçılardan azad edilməsi böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb edir. Bizim hərbçilərimiz şəhid olurlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimiz həmişə bizim qəlbimizdə yaşayacaq. Bizim hərbçilərimiz döyüş meydanında yaralanırlar. Allah bütün yaralı hərbçilərimizə şəfa versin!

Ardı 2-ci səh.

## Prezident İlham ƏLİYEV: "Zəngilan şəhəri və rayonun 6 kəndi, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndi işğaldan azad edilib"

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri işğaldan azad edilib. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

## Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".



## İlham Əliyev Xudafərinə də azadlıq bəxş etdi

### Milli rəmzimiz tarixi simvolumuzda dalğalanır

Azərbaycan Prezidenti İlham Əliyev 18 Oktyabr - Müstəqillik Günündə xalqa növbəti qələbə müjdəsini verdi: "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!"

Və torpaqlarımızı erməni terrorçularından təmizləyən qəhrəman hərbçilərimiz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Xüdafərin körpüsünün işğaldan azad edilməsi ilə bağlı raport verdilər. Bu kadrları seyr etdikcə, dinlədikcə yenə ürəyimiz qürurla doldu. Zəfər xəbəri bizi yeni qələbələrə ruhlandırdı.

Xudafərin körpüsünün erməni təcavüzündən qurtulmasına yalnız biz sevinmədik. Əcdadlarımızın ruhu da şad oldu bu xəbərə.

Ardı 5-ci səh.

## Azərbaycan əsgəri Ali Baş Komandana Zəngilandan qələbə raportu verdi



Rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində üçrəngli dövlət bayrağımız bu gün Zəngilan şəhərində ucaldılıb.

AZƏRTAC xəbər verir ki, hazırda Zəngilan şəhərində olan Azərbaycan hərbçiləri bununla bağlı Azərbaycan Prezidentinə məruzə ediblər. Məruzədə deyilir: "Möhtərəm cənab Prezident, cənab Ali Baş Komandan, əmrinizə uyğun olaraq məruzə edirəm ki, Zəngilan şəhəri və ətraf əraziləri işğaldan azad olunmuşdur. Hazırda Azərbaycan bayrağı dalğalanmaqdadır. Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!"

Xatırladaq ki, oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng (yeni adı Çinarlı), Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunduğunu elan edib.



## Azərbaycan daim Türkiyəni yanında hiss edib, onun qardaş köməyinə arxalanıb

Oktyabrın 20-də Milli Məclisin payız sessiyasının növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopu və onun rəhbərlik etdiyi nümayəndə heyətini Milli Məclisdə salamlayıb.

Milli Məclisin Sədri Azərbaycanın və Türkiyənin qanı, canı bir olan qardaş xalqlar olduğunu bildirib: "Ölkələrimiz arasında münasibətlər Ulu Öndər Heydər Əliyevin ifadə etdiyi "bir millət, iki dövlət" prinsipi üzərində qurulub. Bizim dostluğumuz və qardaşlığımız əbədi və sarsılmazdır. Azərbaycan və Türkiyə həmişə bir-birinə güvəniblər, güvənirlər və güvənəcəklər.

Ardı 3-cü səh.

## 280 tank, 198 top, 74 PDM, 4 "S-300", 300 yük avtomobili...

### Azərbaycan Ordusu hər gün düşmənin hərbi texnikalarını məhv edir və ya qənimət götürür

Azərbaycan Ordusunun haqq savaşı davam edir. 24 gündür Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda həyata keçirdiyi əməliyyatlar və dəqiq vurulan atəş zərbələri nəticəsində böyük itkilərə məruz qalan erməni hərbi qulluqçuları vahimə içində silah-sursatlarını atıb tutduğu mövqelərdən qaçırlar. Panikada olan düşmən geri çəkilir və ya ağ bayraq qaldıraraq təslim olur.

### Düşmən yenə də humanitar atəşkəs rejiminə məhəl qoymur

Ali Baş Komandan İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusu hazırda əməliyyat ərazisində humanitar atəşkəs rejimini tam təmin etməklə, cəsədlərin toplanılması, eyni zamanda tərəflərdə olan əsirlərin dəyişdirilməsi üçün lazımi şəraiti yaratmaqdadır.

Ardı 5-ci səh.



**Düşmənin ümumilikdə 280 tankı, 50 piyadaların döyüş maşını, özüyeriyən 17 artilleriya qurğusu, 53 tank əleyhinə vasitə, 70 "Qrad" qurğusu, 2 "Uraqan", 2 "YARS", 1 TOS, 4 "S-300" zenit-raket kompleksi, 198 top, 58 minaatan, 3 TOR zenit-raket kompleksi, 40-a yaxın OSA zenit-raket kompleksi, 5 KUB və KRUQ zenit-raket kompleksi, 6 pilotsuz uçuş aparatı, 2 əməliyyat-taktiki raket kompleksi - "Elbrus", 1 ballistik raket, 1 "Toçka-U" raketi, 8 radioelektron mübarizə vasitəsi, 198 yük avtomobili məhv edilib. 12 minaatan, 25 qumbaraatan, piyadaların 24 döyüş maşını, 102 yük avtomaşını hərbi qənimət kimi götürülüb.**

# Ermənistanı diz çökdürmüşük

Əvvəli 1-ci səh.



Eyni zamanda mənfur düşmən bizim yaşayış məntəqələrimizi daim atəşə tutur, hər gün cəbhəboyu şəhərlərimiz, kəndlərimiz mənfur düşmənin atəşinə məruz qalır. Bu namərd atəşə ən çox məruz qalan Tərtər rayonudur, eyni zamanda Ağdam, Goranboy, Ağcabədi, Bərdə, digər şəhər və rayonlarımız düşmən tərəfindən atəşə tutulur. Gəncə şəhərinə namərd zərbələr nəticəsində dinc əhali həlak olur - uşaqlar, qadınlar, qocalar. Düşmən üçün bunun fərqi yoxdur. Belə bir fərq onlar üçün mövcud deyil. Onlar döyüş meydanında məğlubiyyətə uğrayır, Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmir və bizi durdurmaq üçün, bizə zərbə vurmaq üçün bütün dünyanın gözü önündə mülki əhaliyə qarşı cinayət törədir. Bütün dünya görür ki, Azərbaycan hansı mənfur, vəhşi düşməndən öz doğma torpaqlarını azad edir. Otuz il ərzində bizim torpaqlarımızda oturub bizə meydan oxumağa çalışırdı. Otuz il ərzində bizim torpaqlarımızı istismar edirdi, bizim təbii resurslarımızı istismar edirdi, oğurluq, talançılıq onların xislətidir. Dağıdılmış kəndlərin, şəhərlərin vəziyyətinə baxmaq kifayətdir, hər kəs görsün ki, bizim qarşımızda hansı vəhşilər dayanıb. İşğal olunmuş və artıq azad edilmiş torpaqlarda bir dənə də salamat bina qalmayıb. Bütün binalar sökülüb, talan edilib, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz dağıdılıb, talan edilib, təhqir edilib. Onlar hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Onlar hesab edirdilər ki, bu torpaqları əbədi işğal altında saxlayacaqlar. Onlar bizim şəhərlərimizin adlarını dəyişdiriblər, rayonlarımızın sərhədlərini dəyişdiriblər, kəndlərimizin adlarını dəyişdiriblər, bizim torpaqlarımızı erməniləşdirmək istəyiblər, amma buna nail ola bilmədilər, Azərbaycan xalqının iradəsini qıra bilmədilər.

Öz doğma dədə-baba torpaqlarını görməyən, işğaldan sonra dünyaya göz açan hər bir azərbaycanlı bir arzu ilə yaşayıb ki, doğma dədə-baba torpaqlarına qayıtsın. Biz bunu Cocuq Mərcanlının timsalında gördük. İşğaldan sonra doğulmuş gənclər, onların hər biri Cocuq Mərcanlıya qayıtmaq arzusu ilə yaşayıb və qayıdıbdır. Əminəm ki, bu gün işğalçılardan azad edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşları qayıdacaqlar. O torpaqlarda yaşayacaqlar, sülh, əmin-amanlıq şəraitində yenə də qurub-yaradacaqlar. Necə ki, vaxtilə bizim işğal edilmiş bütün torpaqlarımızda Azərbaycan xalqının mədəni irsi yaradılıbdır. Amma mənfur düşmən bu irsi məhv etmək istəyirdi, bizim məscidlərimizi dağıdırdı. Biz Çocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzərini inşa edəndə və onun açılışında demişdim ki, məscidlərin binalarını onlar dağıda bilərlər, amma bu məscidləri biz öz qəlbimizdə yaşadırıq və gün gələcək bizim dağıdılmış bütün məscidlərimiz bərpa ediləcəkdir, bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, Azərbaycan vətəndaşları işğal olunmuş və azad edilmiş torpaqlara qayıdaraq rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaqdır.

Bizim məcburi köçkünlərimiz bütün bu illər ərzində bir arzu ilə yaşayıblar, baxmayaraq ki, onların bir çoxları üçün gözəl şərait yaradılıb və bildiyiniz kimi, təkcə bu il biz məcburi köçkünlər üçün 7 min mənzilin istifadəyə verilməsini nəzərdə tuturuq. 300 mindən çox məcburi köçkünə evlər, mənzillər verilibdir. Onlar bu qayğıya görə bizə minnətdarlıq edirlər və mənim onlarla çoxsaylı görüşlərimdə bunu ifadə edirdilər. Ancaq eyni zamanda mən bilirdim və onlar mənə deyirdilər ki, bizi qaytarın, öz torpağımıza qaytarın. Başa düşürdülər ki, bu, çətin məsələdir, başa düşürdülər ki, bunun üçün müəyyən geosiyasi şərait yetişməlidir. Mənə inanırdılar və mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq, mən deyirdim ki, bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır. Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik.

30 ilə yaxın aparılan danışıqlar heç bir nəticə vermədi. İşğal edilmiş torpaqlarda Ermənistan tərəfindən qurulmuş istehkamlar onu göstərir ki, onlar bu torpaqları bizə vermək fikrində deyildilər. Sadəcə olaraq, bizi və beynəlxalq vasitəçiləri aldadırdılar. Sadəcə olaraq, vaxtı uzadırdılar və bununla bərabər işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparırdılar, Laçın şəhərində minlərlə insanı yerləşdiriblər, Kəlbəcərdə minlərlə insanı yerləşdiriblər. Bu gün işğaldan azad edilmiş torpaqlarda da - Füzuli, Cəbrayıl və digər rayonlarımızda da onlar bizim kəndlərimizdə yaşayıblar. O kəndlərin böyük hissəsi dağıdılıb, ancaq bəzi evlərdə onlar bizim torpağımızda yaşayıblar. Azərbaycanlılara qarşı etnik təmizləmə aparmaq, azərbaycanlılara qarşı soyqırımı törətmək, bizim vətəndaşlarımızı doğma torpaqdan didərgin salmaq və ondan sonra "referendum" keçirmək tamamilə insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Heç kim qondarma "Dağlıq Qarabağ respublikasını" tanımayıb. İndi onlar əlləşirlər, vurnuxurlar ki, dünya ölkələri qondarma kriminal qurumu tanısınlar. Ağıllarını itiriblər, başa düşmürlər ki, heç kim bunu etməyəcək, başa düşmürlər ki, bunu edən hər bir ölkə artıq Azərbaycan üçün dost ölkə sayıla bilməz. Nəinki dost ölkə, bu ölkə ilə biz bütün əlaqələri kəsəcəyik. Amma onlar ağlını itiriblər. Bu gün çalışırlar ki, status-kvonu bərpa etsinlər. Mən demişəm, status-kvo yoxdur. Status-kvonu biz məhv etmişik və düz də etmişik. 30 ilə yaxın gözləmişik. On il bundan əvvəl Minsk qrupunun həmsədrləri, onların prezidentləri səviyyəsində açıqlama verilmişdir ki, status-kvo qəbuledilməzdir. Biz də bunu dəstəklədik, biz bunu bəyəndik və bizdə böyük ümidlər yarandı, ondan sonra danışıqlar masasında əldə edilmiş müəyyən tərəqqi bizim ümidlərimizi artırdı. Amma sən demə, mənfur düşmən sadəcə olaraq bizi və beynəlxalq aləmi aldadırdı. Bu, beynəlxalq vasitəçilərə hörmətsizlikdir.

Biz döyüş meydanında güc göstərərək status-kvonu dəyişdirdik. Mən bunu bu toqquşmalardan əvvəl demişdim, bir neçə dəfə demişdim, bu gün əfsuslar olsun ki, beynəlxalq münasibətlərdə beynəlxalq hüquq işləmir. Əgər işləsəydi, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi çoxdan icra edilərdi. Biz iyirmi il gözləyirdik ki, bu qətnamələr icra edilsin. Onlar sadəcə olaraq kağızda qaldı. Nə üçün? Çünki siyasi iradə göstərilmədi, bu qətnamələrin icra mexanizmi müəyyən edilmədi. Mənfur düşmən hesab etdi ki, o, bundan sonra da buna məhəl qoymaya bilər. Bundan sonra da beynəlxalq hüququ əzə bilər. Bundan sonra da bizim torpaqlarımızda istənilən çirkin əməllər törədə bilər. Biz onları məcbur etdik. Bax, bizim yumruğumuz sadəcə olaraq düşmənin başını yaran yumruq deyil. Bizim yumruğumuz bizim birliyimizdir, xalqımızın birliyidir, məqsədyönlü fəaliyyətdir, beynəlxalq müstəvidə bizə sərf edən və ədaləti əks etdirən qərarların, qətnamələrin qəbul edilməsidir.

Mən görürdüm, bəzi hallarda bu hadisələrə qədər Azərbaycan vətəndaşları, o cümlədən köçkünlər hesab edirdilər ki, belə diplomatik uğurlar, əlbəttə, önəmlidir, ancaq onlar məsələnin həllini təmin etmir. Mən isə həmişə onlara izah edirdim ki, bu, beynəlxalq qanun çərçivəsində həll olunası bir məsələdir. Buna görə biz bütün aparıcı beynəlxalq təşkilatlarla işləməliyik ki, bu münaqişənin həlli üçün hüquqi bazanı genişləndirək. BMT Təhlükəsizlik Şurasının qətnamələri işləmirdi. Biz böyük səylər göstərdik, BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar qətnamə qəbul etdi. Avropa İttifaqı ilə bizim aramızda paraflanmış sənəddə də sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilir. Yəni budur bu münaqişənin həlli üçün əsas. Ona görə bu gün artıq özünü lap dilənçi kimi, lap düşük kimi, - bağışlayın, ifadəmə görə, amma onlar hər bir ifadəyə layiqdirlər, - aparan Ermənistan rəhbərliyi gecə-gündüz bütün beynəlxalq təşkilatlara zəng edir, məktublar göndərir, bəyanatlar verir ki, niyə səsinizi çıxarmırsınız? Onlar necə səsini çıxara bilərlər? Onlar artıq bu qətnamələri, bu qərarları qəbul ediblər və Azərbaycan döyüş əməliyyatını beynəlxalq birlik tərəfindən tanınan öz ərazisində keçirir. Biz Ermənistan ərazisində hər hansı bir əməliyyat keçirmirik, - bizim belə planlarımız yoxdur, - baxmayaraq ki, onlar Gəncəni Ermənistan ərazisindən iki dəfə bombalamışdılar. Biz cavab vermədik onların yolu ilə. Biz döyüş meydanında cavab verdik. Mən bildirmişdim ki, biz onların intiqamını döyüş meydanında alacağıq və alırıq. Biz şəhidlərimizin qanını yerdə qoymayacağıq və qoymuruq. Bax, beynəlxalq təşkilatlarda bizim fəaliyyətimizin əsas məqsədi o idi ki, bu hüquqi baza təkmil olsun, genişlənsin və biz buna nail ola bildik.

Ona görə bu gün Ermənistan rəhbərliyi yaxşı fikirləşməlidir. Artıq bizim qarşımızda diz çöküb, onları diz çökdürmüşük, onlara layiq olan yeri göstərmişik. Qovuruq onları bizim torpaqlarımızdan, bundan sonra da qovacağıq! Hər gün xoş xəbərlər gəlir. Hər gün bayrağımız yeni bir yaşayış məntəqəsində ucaldılır. Budur, Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücü. Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradırdı. Haradadır bu "yenilməz Ermənistan ordusu?" Görün, necə qaçır bizim qabağımızdan. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq. Otuz il bizi təhqir edirdi. Otuz il idi ki, işğal edilmiş torpaqlarda abidələrimizi dağıdırdı, tarixi-mədəni irsimizi silmək istəyirdi. Otuz il ərzində beynəlxalq aləm nə üçün sanksiya tətbiq etmədi təcavüzkar dövlətə qarşı? Mən dəfələrlə demişəm ki, sanksiyalar tətbiq edilməlidir. Bu ölkə, bu ölkənin rəhbərliyi öz xoşu ilə bu torpaqlardan çıxmaq istəmir. O, bizi aldadır, danışıqları imitasiya üçün aparır. Onlara inam yoxdur və mən haqlı çıxdım. İndi baxın orada qurulmuş istehkamlara. Belə istehkam quran ölkə, bu qədər oraya vəsait xərcləyən ölkə oradan çıxarmı? Çıxmaq istəsəydilər, bunu etməzdilər. Yəni onların hər bir sözü yalandır. Bu gün də onların dövlətinin rəhbərləri gecə-gündüz yalan, uydurma yayırlar Azərbaycan haqqında, döyüş meydanında baş verən hadisələr haqqında. Sanki kimsə gəlib bizim əvəzimizə vuruşur. Azərbaycan xalqı, Azərbaycan gəncləri, Azərbaycan əsgəri onlara dərs verir. Təkbaşına vuruşuruq, hər kəs bunu bilir. Amma özlərinə sığışdıra bilmirlər, çünki miflər dağılır, miflər onların ideologiyasının əsasıdır. Tarix haqqında yalan. Əfsuslar olsun ki, onu da indi bir çox ölkələrə qəbul etdirə biliblər, tarixi yalanı. Xocalı haqqında yalan, guya ki, Azərbaycan özü Xocalı soyqırımını törədib. Gəncənin bombalanması haqqında onların rəsmi nümayəndələri yalan bəyanat veriblər ki, Ermənistan bu raket atəşini təşkil etməyib. Nə vicdan var, nə əxlaq var, nə mənəviyyat var. Ağıl da yoxdur. Ağıl olsaydı deyərdilər ki, baxın, bu ballistik raketin start nöqtəsi və atış istiqaməti dünyada aparıcı ölkələr tərəfindən izlənilir, haradan atılıb, hara dəyib. Ballistika raketlərə döyüş tapşırığı verilir. O təsadüfən o yaşayış massivinə düşməmişdir. Gecə vaxtı, qəsdən. Amma ağıllarını itiriblər, guya dünyanı aldatmağa davam edirlər ki, bəs kim atıb Gəncəyə bu raketi? Biz özümüzə atmışıq? Necə ki, yalan danışırdılar, Azərbaycan özü Xocalı soyqırımını törədib, indi də yalan danışırlar. Bütün dünyaya yalan danışır, bütün müsahibələrdə yalan danışır. Bu yalançıları biz bundan sonra da qovacağıq. Onlar gördülər ki, kim kimdir. Gördülər ki, biz onlara elə dərs veririk ki, bu dərsi heç vaxt unutmayacaqlar. İndi isə imdad diləyirlər. Ona-buna zəng edirlər, kömək edin, kömək edin! Bəs hanı sənin "müzəffər ordun", hanı sənin "yenilməz ordun?!" Bizim üçün müqəddəs olan Cıdır düzündə Ermənistanın baş naziri sərxoş vəziyyətdə rəqs edirdi. Fikirləşməli idi ki, bu təhqir Azərbaycan xalqına necə təsir edə bilər? Amma hesab edirdi ki, heç kim onlara toxunmayacaq. Hesab edirdi ki, bütün ölkələr onları bundan sonra da müdafiə edəcək, dünya erməniliyi, erməni lobbiləri, ondan sonra onların bəzi dost ölkələri. Ona görə azğınlaşmışlar, ona görə qudurmuşlar. Onlara yerlərini göstərdik, onların başından elə zərbə vurduq ki, çətin ayılsınlar. Onların ordusunu, texnikasını demək olar ki, məhv etmişik. Qaçırlar, hələ qaçacaqlar.

Bir sözlə, döyüş meydanında bizim üstünlüyümüz artıq heç kimə sirr deyil. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, şəhidlər veririk, öz ərazi bütövlüyümüzü bərpa edirik. Bundan sonra da bu addımlar atılacaq. Ermənistan hələ nə qədər gec deyil bəyanat verməlidir ki, işğal edilmiş torpaqlardan çıxıram. Ondan sonra döyüşlər dayana bilər.

Mən hər dəfə xalqıma müraciət edərkən xoş xəbərlər çatdırıram. Eyni zamanda demək olar ki, hər gün öz "Twitter" hesabımda, "Twitter" vasitəsilə işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adlarını çəkirəm. Mən bilirəm ki, Azərbaycan xalqı bu xəbərləri hər gün gözləyir, hər gün! Hər gün, hər saat ki, nə vaxt bu xəbər olacaq, nə vaxt bu xəbər çıxacaq? Amma istəyirəm, əziz xalqım bilsin ki, hər kəndin, hər yüksəkliyin götürülməsi böyük rəşadət tələb edir. Çünki təkcə orada qurulmuş istehkamlar deyil, eyni zamanda azad edilmiş torpaqların hərbi relyefi də ermənilər üçün daha sərfəlidir. Çünki biz indi həm onların istehkamlarına, onların toplarına, onların raketlərinə qarşı, eyni zamanda təbii relyefə qarşı vuruşmalıyıq və torpaqlarımızı işğalçılardan qarış-qarış azad edirik. Çox çətin məsələdir.

Gün gələcək, bu haqda geniş məlumat veriləcəkdir. Əminəm, Azərbaycan xalqı yaxşı başa düşür ki, bu gün nəyi demək mümkündürsə onu deyirik. Çünki döyüşlər gedir və biz istəyirik ki, tezliklə bu döyüşlər başa çatsın, tezliklə ərazi bütövlüyümüz bərpa edilsin. Ona görə hesab edirəm ki, Azərbaycan ictimaiyyətinə verilən məlumat və məlumatın həcmi tam kifayətdir.

Bu gün ənənəyə, gözəl ənənəyə sadiq qalaraq Azərbaycan xalqına yeni bilgilər vermək istərdim. Düşmənin məhv edilmiş və hərbi qənimət kimi götürülmüş texnikaları ilə bağlı məlumatı əziz xalqıma çatdırıram.

Beləliklə, düşmənin 241 tankı məhv edilib, 39 tank hərbi qənimət kimi götürülüb - toplam 280 tank. Amma yenə də hələ ki, tanklar var, həm işğal edilmiş torpaqlarda, həm Ermənistan ərazisində. Haradandır onlarda bu qədər tank? Bir də ki, bu, bütün bu məsələni tənzimləyən beynəlxalq konvensiyalara ziddir. Bəs bu konvensiyalara monitorinq aparmalı olan qurumlar niyə buna fikir verməyiblər? Bax, biz deyirik 241 tank məhv edilib. Biz sonra onların nümayişini təşkil edəcəyik. 39 tank saz vəziyyətdə götürülüb və bu gün bizim əsgərlərimiz o tanklarda oturub düşmənə onların öz tankları ilə atəş açırlar.

Piyadaların 50 döyüş maşını məhv edilib, 24-ü qənimət kimi götürülüb və bu gün bizim əlimizdədir. Özüyeriyən 17 artilleriya qurğusu məhv edilib, 198 top məhv edilib. 58 minaatan məhv edilib, 12 minaatan qənimət kimi götürülüb. 25 qumbaraatan hərbi qənimət kimi götürülüb. 53 tank əleyhinə vasitə məhv edilib. 70 "Qrad" qurğusu məhv edilib. İki "Uraqan", iki "YARS" məhv edilib. Bir TOS məhv edilib. Dörd "S-300" zenit-raket kompleksi məhv edilib. Son dəfə mən bu məlumatı Azərbaycan ictimaiyyətinə çatdıranda iki "S-300" zenit-raket kompleksi məhv edilmişdi. Bu gün artıq dörd kompleks məhv edilib. Hər bir kompleksin, hər bir qurğunun qiyməti bəllidir, çox bahalı hərbi texnikadır. Üç TOR zenit-raket kompleksi məhv edilib. Qırxa yaxın OSA zenit-raket kompleksi məhv edilib. Beş KUB və KRUQ zenit-raket kompleksi məhv edilib. Altı pilotsuz uçuş aparatı, iki əməliyyat-taktiki raket kompleksi - "Elbrus", bir ballistik raket, bir "Toçka-U" raketi, səkkiz radioelektron mübarizə vasitəsi məhv edilib. 198 yük avtomobili məhv edilib. Onlardan 15-i sursatlarla dolu yük avtomobilləri idi. 102 yük avtomaşını hərbi qənimət kimi götürülüb. Biz düşmənin hərbi texnikasını bundan sonra da məhv edəcəyik. Olan-qalan da məhv ediləcəkdir.

İndi isə əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram.

Füzuli rayonu - azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.

Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.

Xocavənd rayonu - azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Əziz xalqım, əziz zəngilanlılar, füzulililər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq!

Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!

## Milli Məclisin iclasında

# Azərbaycan daim Türkiyəni yanında hiss edib, onun qardaş köməyinə arxalanıb

*Əvvəli 1-ci səh.*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, dünyada ikinci belə ölkələr yoxdur ki, bir-birinə bu qədər yaxın olsun. Azərbaycan daim Türkiyəni yanında hiss edib, onun qardaş köməyinə arxalanıb".

Sahibə Qafarova qeyd edib ki, Ermənistanın silahlı təxribatına və işğalçılıq siyasətinə son qoymaq üçün Azərbaycan Ordusunun apardığı əks-hücum əməliyyatları zamanı dünya bu qardaşlığın bir daha şahidi oldu. Prezident Rəcəb Tayyib Ərdoğanın, Türkiyənin siyasi, hərbi və dövlət xadimlərinin verdiyi bəyanatlar və tutduğu qəti mövqe hər kəsə göstərdi ki, Azərbaycan xalqı haqq işi uğrunda mübarizədə tək deyil. Türkiyə hər yerdə Azərbaycanın yanındadır. Bu gün Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun Azərbaycanda olması da bizim birliyimizin və qardaşlığımızın daha bir ifadəsidir.

Milli Məclisin Sədri daha sonra Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun həyat və fəaliyyəti haqqında deputatlara məlumat verib.

Sonra Milli Məclisdə çıxış edən Mustafa Şentop Prezident Rəcəb Tayyib Ərdoğanın, Türkiyə Böyük Millət Məclisinin və türk millətinin Azərbaycana salamlarını çatdırıb. O bildirib ki, bu ali məclisdə Azərbaycanın haqlı davasına və şanlı mübarizəsinə dəstək verən fərqli partiyalardan olan millət vəkilləri ilə birlikdə iştirak edir. Otuz ilə yaxındır ki, Azərbaycanın qədim torpaqlarının beşdəbiri işğal altındadır. Türkiyə də bugünə qədər olduğu kimi, bundan sonra da haqlı davasında və Vətən müharibəsində can qardaşlarının yanında yer alacaq. Türkiyə və Azərbaycan dünyada başqa iki ölkə arasında bənzəri olmayan yaxın münasibətlərə malikdir.

Gücü qəhrəman Azərbaycan əsgərlərinə çatmayan, cəbhədə qəhrəman Azərbaycan Ordusu qarşısında arxaya baxmadan qaçan Ermənistan əsgərləri məsum mülki insanları öldürməyə, mülki hədəflərə hücum etməyə davam edir. Bu gün Qafqazın və bölgəmizin yenidən sülhə və sabitliyə qovuşması, yalnız və yalnız Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını dərhal tərk etməsi ilə mümkün ola bilər. Dövlət başçısı İlham Əliyevin də ifadə etdiyi kimi, Azərbaycanın bir 30 il də gözləməyə vaxtı yoxdur.

Mustafa Şentop diqqətə çatdırıb ki, beynəlxalq ictimaiyyət ikiüzlü yanaşmalardan artıq əl çəkməlidir. Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə var. Ermənistan ordusunun işğal etdiyi torpaqlardan dərhal, qeyd-şərtsiz və tam olaraq çəkilməsi tələb edilən bu qətnamələri rəsmi Yerevan indiyə qədər heçə sayıb. ATƏT-in Minsk qrupu problemi həll etmək üçün indiyə qədər heç bir iradə göstərməyib.

TBMM-in Sədri qeyd edib ki, Ermənistan keçmişdə törətdiyi cinayətlərin cəzasını çəkmədiyinə görə fürsət tapdıqca yenidən Azərbaycan torpaqlarına hücum edir. Ancaq bu dəfə heç gözləmədiyi bir reaksiya ilə qarşılaşdı. Qəhrəman Azərbaycan Ordusu Ermənistanın təcavüzlərinə cavab vermək və Qarabağı işğaldan azad etmək üçün sürətlə hərəkətə başladı. Qarabağdakı bir çox ərazilər işğaldan azad edildi. İnşallah, bütün torpaqlar işğaldan azad ediləcək.

Mustafa Şentop bildirib ki, tarixin gedişinin dəyişməyə başladığı günlərdən keçirik. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının islahatlara ehtiyacı var. İkili standartlardan uzaq, bütün dövlətlərin bərabərliyinə əsaslanan, bütün insanların bərabərliyinə inanan yeni bir dünyanın qurulması lazımdır.

Çıxışının sonunda TBMM-in sədri Mustafa Şentop Türkiyənin bundan sonra da Azərbaycanın haqq işində onun yanında olacağını bir daha vurğulayıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Mustafa Şentopun çıxışını Azərbaycan parlamentinin tarixinin ən önəmli səhifələrindən biri kimi dəyərləndirib.

Fasilədən sonra Sahibə Qafarova çıxış edərək qeyd edib ki, son dövrdə Milli Məclisin hər iclasında biz Azərbaycan Ordusunun xalqımıza yaşatdığı qələbə sevinclərini bölüşürük. Hər gün əsgər və zabitlərimiz döyüş meydanlarında qəhrəmanlıq nümunələri göstərir, yeni-yeni yaşayış məntəqələrimizi düşmən tapdağından azad edirlər.

Spiker bildirib ki, Vətən müharibəsində bizim hədəfimiz bəllidir. Bu hədəfi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəqiq müəyyən edib: "...Ərazi bütövlüyümüzün bərpası bizim üçün bir nömrəli vəzifədir.

...Bu gün müzəffər Azərbaycan Ordusu öz məqsədinə çatır və çatacaq, bizim ərazi bütövlüyümüz bərpa edilir və ediləcək.

Heç bir qüvvə bizi dayandıra bilməz. Heç bir qüvvə Azərbaycan xalqının iradəsi qarşısında duruş gətirə bilməz".

Milli Məclisin Sədri deyib: "Xalqımız dəfələrlə əmin olub ki, bugünədək möhtərəm Prezidentimizin dediyi hər bir söz həyata keçib. Onun irəli sürdüyü bütün planlar ölkəmizin və xalqımızın həyatında öz təcəssümünü tapıb. İndi də xalqımız əmindir ki, Azərbaycanın haqq işi uğrunda mübarizəsinin qələbə ilə başa çatacağı gün uzaqda deyil. Bunu düşmən də yaxşı bilir. Ona görə məğlubiyyətini uzatmaq üçün ən çirkin vasitələrə əl atır, müharibə cinayətləri törədərək cəbhə bölgəsindən kənarda olan şəhər və kəndlərimizi ən dağıdıcı silahlarla atəşə tutur, dinc əhalimizi, o cümlədən qadın və uşaqlarımızı qətlə yetirir. Ancaq düşmən bunu da bilməlidir və bilir ki, xaincəsinə törətdiyi cinayətlərin heç biri cəzasız qalmır və qalmayacaq".

Çıxışının sonunda Sahibə Qafarova döyüş meydanlarında və dinc yaşayış məntəqələrimizdə şəhid olan insanlarımıza Allahdan rəhmət diləyib, yaralılarımızın tezliklə sağalmasını arzulayıb.

Sonra deputatlar cari məsələlərlə bağlı fikirlərini bildiriblər. Komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, Qənirə Paşayeva, Hicran Hüseynova, deputatlar Fəzail Ağamalı, Əli Məsimli, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Jalə Əliyeva, Sahib Alıyev, Fatma Yıldırım, Musa Qasımlı, Malik Həsənov, Əziz Ələkbərov bildiriblər ki, bu taleyüklü günlərdə Türkiyə Böyük Millət Məclisi Sədrinin ölkəmizə səfəri Azərbaycan dövlətinə, onun rəhbərinə göstərilən ehtiramdır. Bu qardaşlıq münasibəti bizim siyasi mövqeyimizi möhkəmləndirir. Qeyd edilib ki, Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman əsgərlərimiz işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda ciddi addımlar atırlar. Xalqımız öz tarixinin önəmli səhifələrini yazır. Son 30 ildə ilk dəfə Azərbaycan xalqı işğal olunmuş torpaqlarının geri qaytarılmasına nail olur. Bu gün bizim əsas gücümüz xalq, dövlət və ordu birliyindədir. Bu gün hər bir Azərbaycan vətəndaşı ölkə Prezidentinin ətrafında sıx birləşib.

Sonra iclasın gündəliyinə daxil edilmiş qanun layihələrinin müzakirəsinə başlanılıb.

Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında insan orqanlarının və toxumalarının donorluğunun və onların transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, orqan transplantasiyası sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin və tibb işçilərinin hüquqlarını və vəzifələrini müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir. Diqqətə çatdırılıb ki, qanun layihəsi Milli Məclisin 30 sentyabr və 6 oktyabr tarixli plenar iclaslarında geniş müzakirə olunaraq iki oxunuşda qəbul olunub. Qanun layihəsinin birinci oxunuşu zamanı millət vəkillərinin verdiyi təkliflər tibb ekspertlərinin iştirakı ilə Səhiyyə komitəsinin iclasında müzakirə olunub. Onların bir qismi layihənin son variantında öz əksini tapıb. İkinci oxunuşda heç bir irad və təklif bildirilməyib. Qeyd edilib ki, qanun ölkəmizdə transplantologiyanın daha da inkişafına təkan verəcək.

Qanun layihəsi üçüncü oxunuşda təsdiq edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Komitə sədri qanunda nəzərdə tutulan dəyişikliyin mahiyyəti ilə bağlı bildirib ki, müvafiq icra hakimiyyəti orqanında birbaşa kadr zabit heyətinə könüllü daxil olan vətəndaşlar bir qayda olaraq dövlət sirrinin daşıyıcıları olurlar. Qanuna ediləcək dəyişiklikdən öncə vətəndaş könüllü olaraq zabit kimi xidmətə qəbul edildikdə 1 il 6 ay xidmət etdikdən sonra həmin xidmətdən tərxis ola bilirdi. Təklif olunan dəyişikliyə əsasən, həmin şəxslər qiymətləndirmə yolu ilə birbaşa kadr zabit heyətinə keçirilirlər və yalnız zabit heyəti vəzifələrində təqvim hesabı ilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun 41.0.9-cu maddəsinə və "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinə müvafiq olaraq azı 10 il xidmət etdikdən sonra ehtiyata buraxıla bilərlər.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Qeyd olunub ki, sənədin 4 maddəsinə təklif edilən dəyişikliklər qanunun bəzi müddəalarının təkmilləşdirilməsini nəzərdə tutur. Belə ki, qanunun müvafiq maddələrinə "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyası" anlayışının daxil edilməsi, eyni zamanda, "xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası)" ifadəsinin "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması" ifadəsi ilə əvəz edilməsi təklif olunur. Bununla da ali təhsil diplomlarının tanınması proseduru təkmilləşdiriləcək, tanınan sənədlərin əhatə dairəsi genişləndirilərək ali təhsilə aid olan və ya ali təhsilə qəbul olunmaq imkanı verən subbakalavr diplomlarının da tanınma imkanı və proseduru yaradılacaq.

Komitə sədri deyib ki, xarici ölkələrin səlahiyyətli orqanları tərəfindən verilmiş subbakalavr diplomlarının tanınması ilə xaricdə bu təhsili almış vətəndaşlarımızın, həmçinin əcnəbi və vətəndaşlığı olmayan şəxslərin təhsillərini ölkəmizdə növbəti pillələrdə davam etdirmək imkanları yaranacaqdır.

Komitə sədri Siyavuş Novruzov, deputatlar Razi Nurullayev, Vüqar Bayramov, Emin Hacıyev, Rüfət Quliyev öz çıxışlarında dəyişikliklərin əhəmiyyəti barədə fikirlərini söyləyiblər.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda təsdiq edilib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev sonra "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə layihəni birinci oxunuşda diqqətə çatdırıb. Bildirilib ki, qanun layihəsi "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğun olaraq hazırlanıb və terminologiyanın eyniləşdirilməsi məqsədi daşıyır. Dəyişikliyə əsasən, qanunda "kvalifikasiya" anlayışı bir qədər dəqiqləşdirilib. Bu anlayışın yeni variantda açıqlaması "şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunun dövlət təhsil sənədi ilə təsdiq edilməsi" kimi verilib.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

# Azərbaycanın Xarici İşlər naziri TBMM-in Sədri ilə görüşüb



Oktyabrın 20-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, türkiyəli qonaqları səmimiyyətlə salamlayan nazir Ceyhun Bayramov dövlətlərimiz arasında əlaqələrin xüsusi önəm daşıdığını, bütün sahələrdə yüksəksəviyyəli əlaqələrin uğurla inkişaf etdiyini bildirib və bu səfərin qarşılıqlı əməkdaşlığın inkişafına xidmət edəcəyini bildirib.

Nazir Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq həyata keçirdiyi cavab əməliyyatları və bu xüsusda qardaş Türkiyənin ölkəmizə verdiyi dəstəyi, o cümlədən Türkiyə Respublikasının Prezidenti başda olmaqla bütün səviyyələrdə, habelə Böyük Millət Məclisi tərəfindən sərgilənən dəstəyi çox yüksək qiymətləndirib.

Mustafa Şentop Azərbaycana səfərinin əvvəlcədən planlaşırıldığını, lakin baş verən hadisələr fonunda onun xüsusi əhəmiyyət kəsb etdiyini söyləyib. Türkiyənin hər zaman dost və qardaş Azərbaycanın yanında olduğunu vurğulayan Türkiyə Böyük Millət Məclisinin Sədri Dağlıq Qarabağ bölgəsinin həm tarixi, həm də hüquqi baxımdan Azərbaycan ərazisi olduğunu bildirib, beləliklə də Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqq mövqeyindən çıxış etdiyini səsləndirib.

Mustafa Şentop Ermənistanın son hücumlarının, xüsusilə də mülki əhalinin məqsədyönlü şəkildə hədəfə alınmasının Ermənistanın, sadəcə, Azərbaycan üçün deyil, bütün bölgə üçün təhlükə mənbəyi olduğunu vurğulayıb. O, Ermənistanın cəbhə bölgəsindən uzaqda yerləşən şəhərləri və dinc əhalini atəşə tutmaqla məqsədinin münaqişənin coğrafiyasını genişləndirmək, üçüncü dövlətləri bu münaqişəyə cəlb etmək olduğunu bildirib. Türkiyənin Ermənistanın bu işğalçı siyasətinə qarşı olduğunu, bölgədə sülh və təhlükəsizliyin təmin olunması mövqeyindən çıxış etdiyini səsləndirən Türkiyə Böyük Millət Məclisinin Sədri məhz bu səbəbdən də ölkəsinin Azərbaycanın haqlı mövqeyini sonadək dəstəkləyəcəyini vurğulayıb.

Nazir Ceyhun Bayramov Mustafa Şentopa minnətdarlığını bildirib. Azərbaycan və Türkiyə arasındakı yüksəksəviyyəli tərəfdaşlığın bölgədə sülh, təhlükəsizlik və rifahın təmin olunmasına xidmət edəcəyindən əminliyini ifadə edib.

# <u>*Mustafa ŞENTOP:*</u> "Mülki şəxsləri və yaşayış məntəqələrini bombalayan Ermənistan müharibə cinayəti törədir"



"Azərbaycana Türkiyə Böyük Millət Məclisində təmsil olunan dörd fərqli siyasi partiyanın parlament qruplarından olan dostlarımızla birlikdə səfərə gəlmişik. Səfər çərçivəsində Bakıda bir sıra görüşlərimiz oldu. Bu müharibədə dinc əhaliyə qarşı cinayətin ən dəhşətlisi, mülki şəxslər arasında ölüm sayının ən çox olduğu məhz Gəncə şəhəridir. Azərbaycana səfərimiz zamanı Gəncəyə gəlməyimiz bütün diqqəti buraya cəlb etmək baxımından da çox vacibdir". AZƏRTAC xəbər verir ki, bunu Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop oktyabrın 20-də Gəncədə jurnalistlərə müsahibəsində deyib.

Qardaş ölkə parlamentinin Sədri vurğulayıb ki, biz Türkiyə olaraq lap əvvəldən - 1990-cı illərdən bəri Azərbaycanın yanında olduq, işğal altındakı torpaqlarını azad etməsi üçün apardığı mübarizəsində daim Azərbaycanı dəstəklədik. Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın bütün azərbaycanlı qardaşlarımıza salamı var. Biz dost və qardaş Azərbaycanı haqlı mübarizəsində hər zaman dəstəkləmişik və dəstəkləyirik.

Mustafa Şentop bildirib: "Gəncədə gördüyümüz mənzərə, eləcə də digər yaşayış məntəqələrinə qarşı törədilən hücumlar göstərir ki, mülki şəxsləri, yaşayış məntəqələrini bombalayan Ermənistan müharibə cinayəti törədir. Azərbaycanı bu haqlı mübarizəsində dəstəkləmək, haqq səsimizi, bu yaşananları bütün dünyaya çatdırmaq üçün əlimizdən gələni edəcəyik. Qarabağ Azərbaycan torpağıdır. Bu, tarixboyu belə olub. Bugünkü beynəlxalq hüquqda da Qarabağın Azərbaycanın ərazisi olduğu, Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyi əksini tapıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının, eləcə də Avropa Parlamentinin, ATƏT-in, Avropa Şurası Parlament Assambleyasının qərarları vardır və bütün dünya Ermənistanı işğalçı kimi tanıyır. Bu baxımdan Ermənistan Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidir".

Ermənistanın mülki şəxslərə qarşı hücumlarının açıq-aşkar müharibə cinayəti olduğunu vurğulayan Türkiyə Böyük Millət Məclisinin Sədri deyib: "Cenevrə konvensiyalarına görə, müharibənin bir hüququ, qaydası var: döyüşlərdə ancaq hərbi hədəflər vurulmalı, mülki şəxslər atəşə tutulmamalıdır. Ermənistan isə müharibənin hüququna və qaydalarına əməl etmədən, namərdcəsinə mülki şəxsləri hədəfə almaqdadır. Bunu bütün dünya görməlidir. Təəssüf ki, bu məsələ ilə bilavasitə məşğul olan Minsk qrupunun həmsədr ölkələri də daxil olmaqla bütün dünya bu xain hücumlar və insanlıq əleyhinə cinayətlər qarşısında səssiz qalır, lazımi addımlar atmır.

Türkiyə olaraq daim Azərbaycanın yanındayıq. Azərbaycanın haqlı mübarizəsini biz də Azərbaycan qədər müdafiə edirik. İnşallah, qısa zamanda Azərbaycan Ordusu Vətən torpaqlarının işğal altındakı hissəsini də azad edəcək. Haqlı olan Azərbaycandır. Çünki Azərbaycan öz torpaqlarını azad etmək üçün Vətənini müdafiə edir. Biz də Türkiyə olaraq bunu daim dəstəklədik və bundan sonra da dəstəkləyəcəyik. Qarabağ Azərbaycandır!"

# Türkiyə Böyük Millət Məclisi Sədrinin başçılıq etdiyi nümayəndə heyəti Gəncədə erməni vandalizmi ilə tanış olub







Ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 20-də Gəncəyə səfər edib.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, səfərin məqsədi cəbhə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mərkəzi hissəsində Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayətin izləri ilə tanış olmaqdır.

Türkiyə Böyük Millət Məclisinin Sədrinə məlumat verilib ki, işğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmaqda davam edir. Belə müharibə cinayətlərindən sonuncusu oktyabrın 17-də törədilib. Gəncənin mərkəzi hissəsinin raket atəşinə tutulması nəticəsində 14 nəfər həlak olub, 55-dən çox şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Həlak olanlar və xəsarət alanlar arasında azyaşlılar, qadınlar və qocalar da var.

Qeyd edilib ki, Ermənistan ordusu oktyabrın 11-də törətdiyi faciə zamanı isə Gəncədə 5-i qadın olmaqla 10 nəfər həlak olmuşdu. Həmçinin 10-u qadın, 9-u azyaşlı olmaqla 34 nəfər yaralanmışdı.

Vurğulanıb ki, əhalinin sıx yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyır. Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması isə insanlığa qarşı cinayətdir. Ermənistan beynəlxalq hüquqa məhəl qoymur, müharibə cinayətlərini davam etdirir, atəşkəs çağırışı edənlər, dünya dövlətləri isə bunu seyr etməklə kifayətlənir. Bu cinayətə laqeyd qalmaq onun iştirakçısına çevrilmək deməkdir. Təmas xəttindən uzaqda yerləşən Gəncə Ermənistan ərazisindən atəşə tutulur. Gəncə ilə yanaşı, Azərbaycanın sənaye şəhəri Mingəçevir şəhəri, o cümlədən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyası, həmçinin "Mingəçevir" Su Elektrik Stansiyası da raket atəşinə məruz qalır.

Oktyabrın 20-nə olan məlumata görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində ümumilikdə 61 mülki şəxs həlak olub, 291 nəfər isə xəsarət alıb. Həmçinin 2 mindən çox ev və yaşayış binası, həmçinin 382 infrastruktur obyekti dağılıb və ya ciddi zədələnib.

Türkiyə nümayəndə heyəti erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq dağılmış yaşayış binasının ətrafına gül düzüb, qətlə yetirilənlərin ruhuna dualar oxuyublar.

Sonra Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyəti "İmamzadə" dini kompleksini ziyarət edib.

Məlumat verilib ki, VIII əsrə aid tarixi memarlıq abidəsi olan və xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy İmam" kimi tanınan "İmamzadə" dini-mədəniyyət kompleksi yenidənqurma işlərindən sonra bütün müsəlman dünyasından ziyarətçiləri qəbul edir. Bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib.

Ermənistan ordusunun raket zərbələri nəticəsində şəhərin müqəddəs məbədlərinə, dini məkanlarına da zərər vurulub. Nəinki müsəlmanların məscidi olan "İmamzadə" ziyarətgahı, eyni zamanda, pravoslav kilsəsi də zərər görüb.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Sentyabrın 27-də Ermənistanın Azərbaycan Ordusunun mövqelərinə və yaşayış məntəqələrinə hücumları ilə başlayan, işğal altındakı ərazilərinizin azad edilməsinə yönələn hərbi əməliyyatlar zamanı şəhid olan qardaşlarımızla əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaralıların tezliklə sağalmalarını arzu edirəm.

Təqribən otuz ildir işğal altında olan Vətən torpaqlarınızın Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatı nəticəsində hissə-hissə azad edilməsini məmnunluqla izləyir, haqlı mübarizənizdə Sizi dəstəkləyirik. Vətən torpaqlarınızın işğaldan azad olunması münasibətilə Sizi indidən təbrik edirəm.

Beynəlxalq ictimaiyyət Azərbaycan ərazilərinin illərdir işğal altında qalmasına, bir milyondan çox qaçqın və məcburi köçkünün öz doğma yurd-yuvalarından qovulmasına həll yolu tapa bilmədi. Dədə-baba torpağında doğulmayan, o yerləri görməyərək böyüyən nəsillər bu gün Azərbaycanın ərazilərinin tamamilə işğaldan azad ediləcəyi günləri həyəcanla gözləyir.

Moskvada əldə edilən müvəqqəti humanitar atəşkəsin münaqişənin həlli üçün yeni imkan yaradacağına ümid edir, Ermənistanın işğal altında saxladığı torpaqlardan tamamilə və qeyd-şərtsiz çıxmasının vacibliyini vurğulayırıq. Əldə olunan atəşkəsin əksinə olaraq, Ermənistanın müharibəni Azərbaycanın bütün ərazisinə yaymaq üçün Gəncə, Bərdə, Mingəçevir kimi yaşayış məntəqələrinə raket hücumları təşkil edərək, mülki vətəndaşların ölümünə səbəb olmasını şiddətlə qınayırıq.

Tarix və beynəlxalq hüquq baxımından haqlı olan Azərbaycanın döyüş meydanında olduğu kimi, diplomatiya sahəsində də üstünlüyünü davam etdirəcəyinə, haqlı mübarizəsini sonadək davam etdirərək Dağlıq Qarabağın yenidən ölkənizin tərkibinə daxil olmasını təmin edəcəyinə inanırıq.

Qəlbimiz Azərbaycanla döyünür. Ulu öndər Mustafa Kamal Atatürkün də vurğuladığı kimi, “Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir”.

*Hörmətlə,*

***Kamal KILIÇDAROĞLU,***
***Türkiyə Respublikasının Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri***

## Ceyhun Bayramov Vaşinqtonda ABŞ-ın Dövlət katibi və ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşəcək

Oktyabrın 23-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramovun Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Mayk Pompeo, eləcə də ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşünün keçirilməsi nəzərdə tutulur.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

## Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Türkiyədə səfərdədir

Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti hakim Ədalət və İnkişaf Partiyasının dəvəti əsasında Türkiyənin paytaxtı Ankara şəhərinə səfər edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Milli Məclisin deputatları Ramil Həsən və Ramin Məmmədov daxildir.

Səfər zamanı partiyalar arasında mövcud əlaqələrin inkişafı məsələləri müzakirə olunacaq.

Səfər çərçivəsində YAP-ın nümayəndə heyətinin AKP Sədrinin birinci müavini Numan Kurtulmuş, AKP-nin Baş katibi Fatih Şahin, Xarici Əlaqələr şöbəsinin rəhbəri Cevdet Yılmaz, AKP Gənclər Birliyinin sədri Ahmet Büyükgümüş, Türkiyə Respublikası Xarici İşlər nazirinin müavini Yavuz Selim Kıran, həmçinin AKP-nin Türkiyə Böyük Millət Məclisindəki (TBMM) fraksiyasının sədri Cahit Özkan və Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım və dostluq qrupunun üzvləri ilə görüşləri nəzərdə tutulur.

Görüşlər zamanı qarşılıqlı əlaqələrin inkişafı məsələlərinin müzakirəsi ilə yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinin mövcud durumu, dövlətimizin erməni işğalında olan torpaqlarımızın azad edilməsi istiqamətində apardığı fəaliyyət barədə qarşı tərəfə ətraflı məlumat veriləcək.

## Dövlət Sərhəd Xidmətinə BTR-70M tipli zirehli nəqliyyat vasitəsi hədiyyə edilib




Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Dövlət Sərhəd Xidmətinin rəisi (DSX) general-polkovnik Elçin Quliyevi və şəxsi heyəti Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və DSX-nin iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad edilməsi münasibətilə təbrik edib.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin (MSN) əməkdaşları bu tarixi hadisənin sevincinə qoşularaq Dövlət Sərhəd Xidmətinə təkmilləşdirilmiş BTR-70M tipli zirehli nəqliyyat vasitəsi hədiyyə edib.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, döyüş maşınının üzərində “İLHAMLA İRƏLİ!” və “XUDAFƏRİN BİZİMDİR!” sözləri yazılıb.

Müdafiə Sənayesi Nazirliyi Prezident, Ali Baş Komandan İlham Əliyevin şəxsi təşəbbüsü ilə 2005-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanması məqsədilə yaradılıb. Hazırda mütəxəssislərimiz Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri ilə birlikdə yeni tipli silah və döyüş sursatlarının real döyüş şəraitində sınaqlarını keçirirlər.

## Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının videokonfrans formatında 18-ci iclası keçirilib





Oktyabrın 20-də Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının korrupsiyaya qarşı mübarizə məsələlərinə həsr olunmuş videokonfrans formatında 18-ci iclası keçirilib. Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 15 dövlətin baş prokurorlarının və beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbirdə ölkəmizi Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

İclasda çıxış edən Baş prokuror tədbir iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi və siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı kəsərli mübarizə tədbirləri, o cümlədən iqtisadiyyatın liberallaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, vəzifəli şəxslərlə vətəndaşlar arasında sağlam əlaqələrin qurulması, habelə şəffaflıq və hesabatlılığın təmin edilməsi məqsədilə qanunvericilik sahəsində həyata keçirilmiş genişmiqyaslı islahatlar, habelə korrupsiya ilə mübarizədə institusional baza təşkil edən ixtisaslı qurumlar - Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə Komissiyası və Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti haqqında ətraflı məlumat verib.

Bu sahədə beynəlxalq əməkdaşlığın xüsusi əhəmiyyəti vurğulanaraq, Azərbaycan Respublikasının BMT-nin “Korrupsiyaya qarşı mübarizə haqqında”, həmçinin mövcud olan müvafiq Avropa konvensiyalarına qoşulduğu, eləcə də Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən GRECO, Moneyval, OECD, Beynəlxalq Prokurorlar Assosiasiyasının Prokurorların Korrupsiyaya Qarşı Mübarizə Şəbəkəsi çərçivəsində, həmçinin xarici ölkələrin hüquq mühafizə orqanları ilə səmərəli əməkdaşlığın uğurla davam etdirildiyi bildirilib.

Baş prokuror iştirakçılara sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən beynəlxalq hüququn norma və prinsipləri, Cenevrə konvensiyalarının tələbləri kobud şəkildə pozularaq münaqişə zonasında, eləcə də hərbi əməliyyatların aparıldığı yerdən xeyli uzaqda yerləşən mülki əhalinin sıx yaşadığı məntəqələrin hədəfə alınması, o cümlədən 4, 11 və 17 oktyabr tarixlərində Azərbaycanın ikinci böyük şəhəri olan qədim və tarixi Gəncənin dinc əhalisinin sıx yaşadığı mərkəzi hissəsinin, strateji əhəmiyyət kəsb edən Mingəçevir şəhərinin, Bakı-Tbilisi-Ceyhan, Bakı-Novorossiysk neft kəmərlərinin, Mingəçevir Su Elektrik Stansiyasının raket atəşinə məruz qalması, beynəlxalq səviyyədə qadağan olunmuş “Smerç” kaset bombalarından və “Skad” raket qurğularından istifadə edilməsi, xarici ölkələrdən gətirilmiş muzdluların düşmən qüvvələrinin sıralarında iştirakının müəyyən edilməsi haqqında ətraflı məlumat verib.

Bildirilib ki, Ermənistanın silahlı qüvvələri tərəfindən mülki dinc əhalimizə qarşı törədilən cinayət faktları üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən 37 cinayət işi başlanıb. Ərazidə həyati təhlükənin olmasına baxmayaraq, prokuror və müstəntiqlər tərəfindən əməliyyat-istintaq tədbirləri həyata keçirilməkdədir.

Qeyd olunub ki, sentyabrın 27-dən bugünədək Ermənistanın mülki əhaliyə qarşı törətdiyi cinayətlər nəticəsində 7-si uşaq, 19-u qadın olmaqla 61 mülki şəxs həlak olub, 300-dən çox mülki vətəndaş ağır yaralanıb, ümumilikdə 2500-dən çox evə və mülki obyektə ciddi ziyan vurulub.

Eyni zamanda, Baş prokuror qeyd edib ki, ordumuz Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında əks-hücum əməliyyatına başlayıb və bu sahədə mühüm uğurlara imza atmaqla müxtəlif kənd, qəsəbə, rayon və şəhərləri işğaldan azad edib.

Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov, İran İslam Respublikasının Baş prokuroru Məhəmməd Cəfər Montazeri və Özbəkistan Respublikasının Baş prokuroru Niqmatilla Yuldaşev mülki əhaliyə qarşı hücumları qəti surətdə pisləyib, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində sülh yolu ilə həll olunmasının vacibliyini vurğulayıb.

Tədbirin sonunda Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorları tərəfindən əməkdaşlıq haqqında sənədlər imzalanıb, 2021-ci ildə növbəti iclasın Hindistan Respublikasında keçirilməsi qərara alınıb.

## Türk Şurasının Baş katibi Ermənistan ordusunun Gəncədə törətdiyi barbarlığın şahidi olub





Türk Şurasının baş katibi Bağdad Amreyev Ermənistan silahlı qüvvələrinin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri Gəncənin mərkəzi hissəsini raket atəşinə tutması nəticəsində dağılan evlərə baxıb.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, baş katib sentyabrın 27-də mülki əhaliyə qarşı hərbi təxribata əl atan Ermənistan silahlı qüvvələrinin Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, infrastrukturu, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən intensiv atəşə tutaraq mülki obyektlərə ciddi ziyan vurması barədə məlumatlandırılıb.

Qeyd edilib ki, oktyabrın 11-də düşmənin məqsədli şəkildə Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını ağır artilleriyadan - SCUD raketlərindən atəşə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub. Həmçinin 10-u qadın, 9-u azyaşlı olmaqla 40-dək insan yaralanıb. Ondan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

Ermənistan silahlı qüvvələri həmin hadisədən bir həftə sonra, oktyabrın 17-də gecə saat 1 radələrində də Gəncənin mərkəzi hissəsini raket atəşinə tutub. Nəticədə 13 nəfər həlak olub, 45-dən çox dinc sakin yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda zərər vurulub.

Türk Şurasının baş katibi dağılan evlərə, infrastruktur obyektlərinə baxıb, erməni barbarlığının izləri ilə tanış olub.

# Azərbaycan yəhudiləri İsrail yəhudilərindən xalqımız üçün dua etmələrini xahiş ediblər

Azərbaycan aşkenazi yəhudilərinin baş ravvini Şneor Seqal Gəncə şəhərinə səfər edib. Gəncənin yəhudi icmasında baş ravvinə bildiriblər ki, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur. Döyüş zonasından uzaqda yerləşməsinə baxmayaraq, Gəncə dəfələrlə raket zərbələrinə məruz qalıb. Özü də bu atəşlərin qurbanları dinc sakinlər olur.




AZƏRTAC xəbər verir ki, İsrailin 9TV portalında dərc edilmiş məqalə bu mövzuya həsr olunub (bax: https://www.9tv.co.il/item/19398).

Məqalədə qeyd edilir ki, raket zərbələri zamanı həlak olanlar arasında Gəncənin yəhudi dini icmasının üzvləri də var. Gəncə yəhudiləri İsrail yəhudilərinə müraciət edərək onlar üçün, yəhudi icmasının və bütün dinc sakinlərin təhlükəsizliyi üçün dua etmələrini xahiş ediblər.

Gəncə yəhudi icmasının 800-ə yaxın üzvü var. Baş ravvin Şneor Seqal şəhərin yəhudi icmasının üzvləri ilə görüşüb, ona həlak olmuş və yaralanmış sakinlər barədə məlumat verilib, Gəncənin atəşə tutulması nəticəsində yaranmış çoxsaylı dağıntıları göstəriblər. Gəncənin bütöv məhəlləri - yaşayış evləri, məktəblər, inzibati binalar dağılıb. Baş ravvin Gəncəyə bu şəhərin yəhudi icmasını dəstəkləmək və ruhlandırmaq üçün gəlib.

Azərbaycan aşkenazi yəhudilərinin baş ravvini deyib: “Raket zərbələri nəticəsində bütöv məhəllələrin dağılmasını görmək insanı dəhşətə gətirir. Şəhər sakinlərinin qorxuya düşməsi, aralarında uşaqların da çox olduğu ölənlər və yaralananlar barədə eşidəndə insanın qəlbi qana dönür. Mənə söylədilər ki, bəzən uşaqlar gecə vaxtı qışqıraraq yuxudan oyanırlar. Dinc əhaliyə məqsədyönlü şəkildə, vəhşicəsinə hücum edilməsini heç cür başa düşmək olmur”.

Seqal həlak olanların ruhunun şad olması və yaralananların tezliklə sağalması üçün dua edəcəyini bildirib. Xatırladaq ki, oktyabrın 4-də Gəncənin birinci dəfə atəşə tutulması nəticəsində 35 nəfər, o cümlədən uşaqlar yaralanıb, şəhərin yəhudi icmasının fəallarından biri həlak olub. O vaxt şəhərin yəhudi icması bəyanatla çıxış edərək bildirmişdi ki, Gəncənin yəhudi icması Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən hərbi təcavüz və təxribat aktlarını qətiyyətlə pisləyir. Gəncənin yəhudi icmasının bəyanatında göstərilirdi ki, dinc sakinlərin atəşə tutulması beynəlxalq hüququn bütün normalarına ziddir və müharibə cinayətinə bərabərdir. O vaxtdan bəri erməni silahlı qüvvələri Gəncənin yaşayış evlərinə və məktəb binalarına yenidən raket zərbələri endirib.

Oktyabrın 17-də Gəncənin sonuncu dəfə raket atəşinə tutulması zamanı 13 sakin qətlə yetirilib, 50-dən çox adam yaralanıb, onlarca bina dağıdılıb. Gəncə yəhudiləri dünya birliyinin bu məsələyə müdaxilə etməsini və heç bir hərbi hədəfin olmadığı şəhərin yaşayış məhəllələrinin atəşə tutulmasına son qoymağı tələb edirlər.

Gəncə yəhudi icmasının fəalları İsrail yəhudilərinə müraciət ediblər. Müraciətdə deyilir: “Biz dua edəndə üzümüzü Yerusəlim tərəfə çeviririk, ayaqlarımız isə Azərbaycan torpağında olur. Azərbaycan xalqının öz torpaqlarını işğaldan azad etmək uğrunda ədalətli mübarizəsində ona qələbə arzu edir və Gəncədə, Azərbaycanda və İsraildə xalqımızın təhlükəsizliyi üçün dua edirik. Sizdən xahiş edirik, bu ağır günlərdə siz də bizim üçün dua edin”.

# Erməni işğalçılarının növbəti hədəfi pambıqtəmizləmə zavodu oldu

Dünyanın güclü dövlətlərinə, siyasi liderlərinə “Azərbaycanı durdurun” deyə dil tökən Ermənistan rəhbərliyi eyni zamanda kəndləri, şəhərləri, dinc əhalini, mülki obyektləri, məktəb və uşaq bağçalarını, xəstəxanaları artilleriya atəşlərinə, raket zərbələrinə hədəf seçməklə törətdiyi dəhşətli cinayətlərinin miqyasını genişləndirməkdədir.





Xəbər verildiyi kimi, düşmən hücumlarına mətanətlə sinə gərən Tərtər oktyabr ayının 19-da yenidən işğalçıların artilleriya hücumuna məruz qalmışdır. Bu dəfə əsas hədəf rayonun Azadqaraqoyunlu kəndi ərazisində yerləşən pambıqtəmizləmə zavodu olmuşdur.

Zavodun direktoru Feruz Hacıyev:

- Döyüş meydanında zəifliyini, məğlub olduğunu görən ermənilər yaşayış məntəqələrini, mülki obyektləri, dinc əhalini atəşə tutmaqdan çəkinmir. Oktyabrın 19-da günorta saatlarında düşmən bizim zavodu şiddətli artilleriya atəşinə tutdu. Müəssisənin ərazisinə düşən 30-dan çox mərmi binaları, avadanlıqları yararsız hala saldı, yanğın törətdi. Yanğın nəticəsində 600 tondan çox mahlıc külə döndü. Təsadüfdən zavodun işçiləri arasında həlak olan, xəsarət alan olmadı. Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürənləri həyatlarını təhlükəyə ataraq, sözün həqiqi mənasında, fədakarlıq göstərdilər.

İstehsal müəssisəsini, dinc işçiləri hədəf seçməsi bir daha erməni barbarlarının iç üzünü göstərir. Eyni əraziyə eyni vaxtda 30-dan çox mərminin atılması onu deməyə əsas verir ki, düşmən bu hədəfi məqsədyönlü şəkildə seçib. Niyyəti dinc əhalini qətlə yetirməklə bərabər, iqtisadiyyatımıza zərbə vurmaq olub. Amma bu zaman unudublar ki, belə terror əməllərlə Azərbaycan iqtisadiyyatına zərbə vurmaq mümkün deyil. Qoy, mənfur düşmən bu əməliylə əlimizi işdən soyutduğunu düşünməsin, əksinə, özünə qarşı nifrətin daha da artdığının fərqində olsun.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir





## 280 tank, 198 top, 74 PDM, 4 “S-300”, 300 yük avtomobili...

### Azərbaycan Ordusu hər gün düşmənin hərbi texnikalarını məhv edir və qənimət götürür

*Əvvəli 1-ci səh.*






Lakin Ermənistan ordusu humanitar atəşkəs rejiminə məhəl qoymadan işğaldan azad edilmiş əraziləri, o cümlədən Cəbrayıl şəhərini ağır artilleriya və minaatanlardan atəşə tutur. Həmçinin Azərbaycan-Ermənistan dövlət sərhədinin müxtəlif istiqamətlərində - Tovuz, Daşkəsən rayonlarında Azərbaycan Ordusunun mövqeləri iriçaplı pulemyotlardan atəşə tutulur. Bundan başqa, Ermənistan ordusu humanitar atəşkəs rejiminin yenidən elan olunduğu gündən bəri Ağdərə, Füzuli, Hadrut, Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərib. Bütün hallarda düşmənin hücumları bölmələrimiz tərəfindən qətiyyətlə dəf olunub və geri çəkilmələrinə məcbur edilib.

Müdafiə Nazirliyinin yaydığı rəsmi məlumata görə, oktyabrın 19-dan 20-nə keçən gecə Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl, həmçinin Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 5 ədəd T-72 tankı, 6 ədəd BM-21 “Qrad” YARS, 2 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 16 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Ümumiyyətlə, indiyədək davam edən döyüşlərdə düşmənin 280 tankı, 198 müxtəlif çaplı topları, 50 piyadaların döyüş maşını, 17 özüyeriyən artilleriya qurğusu, 2 “Uraqan” sistemi, 1 “TOS” odsaçan, 2 “Elbrus” əməliyyat-taktiki raket kompleksi, 1 “Toçka-U”, 4 “S-300”, 35 OSA Zenit raket kompleksi, 3 “TOR”, 5 “Kruq”, 1 “S-125”, 1 “Tor-M2KM” zenit raket kompleksləri, 300 yük avtomobili, 1 “Su-25” təyyarəsi, 1 BM-25 “Qrad” yaylım atəşli reaktiv sistemi, 26 artilleriya batareyası məhv edilib.

Düşmənin 39 tankı, 24 piyadaların döyüş maşını, 102 yük avtomobili qənimət götürülüb.

#### Ermənilər döyüşməkdən imtina edir, savaş meydanından qaçırlar

Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri, kapitan Vahab Asetryan da zərərsizləşdirilib.

Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində 2-ci motoatıcı alayın müdafiə sahəsində düşmənin bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib.

5-ci motoatıcı alayın müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Yaralılar arasında bölük komandiri Norik Ağakelyanın da olduğu bildirilir.

18-ci motoatıcı diviziyasının müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət “Legion” dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina edib. Məlum olub ki, ağır itkilərə məruz qalan bu dəstələr onlara tapşırılmış müdafiə sahələrində tab gətirməyərək kütləvi şəkildə fərarilik edir.



Bundan əlavə, 10-cu dağatıcı diviziyanın müdafiə zolağına gətirilmiş kəşfiyyat bölüyü də canlı qüvvə baxımından itkilərə məruz qalıb. Şəxsi heyətin üçdə ikisini itirən bölmə mövqeləri ataraq geri çəkilməyə məcbur edilib.

Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.

246-cı alayın müdafiə sahəsində alay komandiri, polkovnik Tatul Ğazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilib.

Azərbaycan Ordusu qarşısında aciz qalan düşmən silah-sursatını, döyüş texnikalarını ataraq və döyüş mövqelərini tərk edərək qaçır.

Hərbçilərimizin uğurlu əməliyyatı nəticəsində düşmənin daha bir neçə hərbi texnikası - 2 “KamAZ”, 1 “Ural”, 3 “QAZ”, 2 “UAZ”, 1 “Niva” markalı avtomobil və 1 traktor qənimət kimi ələ keçirilib. Texnikaların hamısı işlək vəziyyətdədir.

#### Azərbaycan Ordusu regionun ən güclüsü olduğunu təsdiq edir

24 gündür davam edən haqq savaşımız Azərbaycan Ordusunun qüdrətini bir daha nümayiş etdirir. Nəinki erməni əsgəri, hətta xarici ölkələrdən gətirdikləri muzdlu terrorçular da yüksək döyüş ruhlu Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilmir. Ordumuz sözdə yox, əməldə də regionda ən güclü olduğunu göstərir. Bu da bir daha təsdiqləyir ki, ordumuz işğal altında olan ərazilərimiz tam geri qaytarılana qədər döyüşlərini davam etdirəcək.

İllərdir yağı tapdağında qalan torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qalxan xalqımız bu haqq savaşında öz Prezidentinə inanır, arxalanır, ondan güc alır. Hər kəs əmindir ki, döyüş meydanında düşmənə qalib gələn və qazandığı qələbələrin sayını getdikcə artıran ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə Qarabağı işğaldan tam azad edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

## İlham Əliyev Xudafərinə də azadlıq bəxş etdi

### Milli rəmzimiz tarixi simvolumuzda dalğalanır



*Əvvəli 1-ci səh.*

Çünki Xudafərin tarixi-mənəvi baxımdan da müstəsna əhəmiyyətə malikdir. Bu körpü bir zamanlar o taylı-bu taylı Azərbaycan, hazırda isə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əlaqələr yaradır.

Böyük strateji əhəmiyyətə malik olan Xudafərin körpüsü həm də Qarabağ üzrə gedən döyüşlərdə olduqca əhəmiyyətli məntəqələrdən biridir. Belə ki, Xudafərin körpüsünün yaxınlığında yerləşən Xudafərin kəndi Cəbrayılın son kəndlərindəndir. Sonra Zəngilan başlayır, ardınca da Qubadlı rayonu gəlir...

Qeyd edək ki, iki Xudafərin körpüsü var. Belə ki, tarixən Xudafərin dərəsi Araz çayı yatağında ən əlverişli keçidlərdən biri hesab edilib. Burada genişlənən çay yatağı iri qayalıq sahələrə malikdir. Körpülərin birləşdiyi hər iki sahil, gözəl dağlıq landşaftı olan yerdir.

Ehtimala görə, hər iki körpünün özülləri antik dövrə aiddir. Bu körpülər qitələrarası qarşılıqlı əlaqələrdə böyük əhəmiyyət daşıyıb. Hər iki körpü İpək yolunun üzərində yerləşib. Bu körpülər ölkədaxili və ölkələrarası yollarda da olduqca gedişli-gəlişli olub. Ayrı-ayrı dövrlərdə Xudafərin körpüləri Azərbaycan ellərinin baş köç yolunun - güneydən Arana və Qarabağa güclü mövsüm axınlarının da qovşağı olub.

Tarixi mənbələrə əsasən, Xudafərin körpüsü 1027-ci ildə Şəddadi hökmdarı Fəzl ibn Məhəmməd tərəfindən Rəvvadilərlə mübarizə aparmaq üçün inşa olunub.

Ağa Məhəmməd şah Qacarın Azərbaycana yürüşü zamanı bir hissəsi uçurulsa da, sonradan bərpa edilib. Təbii qayalar üzərində inşa edilən körpünün bir hissəsi dövrümüzə qədər gəlib çatıb.

Körpülərin böyüyü Xudafərin kəndindədir. Bu körpü 15 aşırımlıdır və Həmdullah Qəzvininin yazdığına görə, onu “...hicri 15-ci ildə (639) Məhəmməd peyğəmbərin arxadaşı Bəkr ibn Abdullah tikdirmişdir”. Əski körpünü yenidən qurduğu kimi, onun ucaltdığı körpü də sonralar dəfələrlə bərpa və təmir olunub. İndiki 15 aşırımlı körpü XII əsrin abidəsi sayılır.

Körpü tağlarının dayaqları qayalar üzərində ucaldığından aşırımlar müxtəlif ölçülü və sərbəst düzümlüdür. Bişmiş kərpic və çaydaşından tikilən 15 aşırımlı körpünün tağları sivri biçimlidir. Körpünün ümumi uzunluğu 200 metrə yaxın, eni 4,5 m, çay səviyyəsindən ən böyük hündürlüyü 12 metr, ən iri tağ aşırımı 8,70 metr, ən kiçik tağ aşırımı 5,80 metrdir.

Körpünün bütün tağları kərpicdən qurulduğu halda, əsas kütləsi çay daşındandır. Yuxarı qatda divar hörgüsü kərpicdən də aparılmışdır ki, bu da Arran memarlıq məktəbi üçün xarakterikdir.

15 aşırımlı körpüdən 750 metr qərbdə yerləşən digər körpü də Xudafərin adlanır. XIII əsrdə, Elxanilər dövründə tikilmiş həmin körpünün üç aşırımı qalıb. Bu 11 aşırımlı körpü daşdan inşa olunub və yaxşı yonulmuş iri daş lövhələrlə üzlənib. Araşdırmaçıların fikrincə, bu körpü XIII yüzildə, Elxanilərin (Hülakülər) hakimiyyəti illərində antik dövr körpüsünün qalıqları üzərində yenidən tikilib. Körpünün uzunluğu 130 metrə yaxın, eni 6 m, çay səviyyəsindən hündürlüyü 12 metrdir. 1930-cu illərədək nisbətən salamat qalmış ikinci körpü ilə o taya-bu taya gedib gəlmək olurmuş. Həmin illərdə Azərbaycanın şimalı və cənubu arasında əlaqələri kəsmək üçün İran və SSRİ-nin birgə qərarı ilə körpünün sahil tağları dağıdılıb. Həmin vaxtdan yerli əhali körpüyə ikinci ad - Sınıq körpü adını verib.

Ümumdünya əhəmiyyətli tarixi hadisələrlə bağlı olan Xudafərin körpüləri Azərbaycan memarlıq üslubunu özündə əks etdirən dəyərli abidələrdir.

Orta əsrlər feodal müharibələrinin, Ağa Məhəmməd şah Qacarın Azərbaycana yürüşünün, Rusiya-İran müharibələrinin, sovet rejimi repressiyalarının, XX əsrin sonlarında Cəbrayılın Ermənistan tərəfindən işğalının şahidi olan Xudafərin körpüsü 2020-ci ilin oktyabrında Cəbrayılın işğaldan azad olunduğu günləri də gördü. Azərbaycan Silahlı Qüvvələri Xudafərin körpüsünün yerləşdiyi Cəbrayıl rayonunu 4 oktyabr 2020-ci ildə erməni təcavüzündən azad etdi. Körpünün özü isə 18 oktyabrda erməni işğalından azad olundu. Azərbaycan xalqının və dövlətinin taleyində, həyatında müstəsna əhəmiyyəti olan Xudafərin körpüsünün üzərində bayrağımız yenidən dalğalandı.

Otuz ilə yaxın idi ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan ərazilərimizdəki evlər, bağçalar, məktəblərlə yanaşı, tarixi abidələrimizin də dağılması barədə məlumatlar alırdıq. Digər milli-mənəvi dəyərə malik abidələrimiz kimi, Xudafərin körpüsündən də narahat idik. Artıq bu abidə təhlükədən qurtuldu. Xudafərin onun dəyərini bilən, tarixinin bir parçası olan övladları ilə birlikdədir.

Mədəniyyət Nazirliyinin Xudafərin körpüsü ilə bağlı bəyanatında qeyd edildiyi kimi, müstəsna universal dəyəri, təkrarolunmaz landşaftı, yüksək memarlıq-mühəndis həlli, eləcə də iki ölkə ərazisində yerləşdiyini nəzərə alaraq Xudafərin körpülərinin UNESKO-nun Dünya İrsi Siyahısına salınması məqsədilə Azərbaycan Respublikası tərəfindən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

## Paşinyan ümidini qocalara bağlayıb

### Ermənistanda orduya cəlb edilən mülki şəxslərin əksəriyyəti ahıllar və qadınlardır








Azərbaycan Ordusu cəbhədə düşmənə getdikcə daha ağır zərbələr vurur. Düşmənin hərbi-texniki potensialı əhəmiyyətli dərəcədə sıradan çıxarılıb. Eyni zamanda Ermənistan canlı qüvvə sarıdan da ciddi korluq çəkir. İşğalçının Qarabağdakı ordusunun şəxsi heyətinin və xaricdən gələn muzdluların böyük qismi ordumuz tərəfindən məhv edilib. Bu səbəbdən Ermənistan artıq 60-70 yaşlı qocaları döyüşə göndərir.

Ermənistan hərbi birləşmələrində canlı qüvvə ilə bağlı yaranan problemin kökündə təkcə Azərbaycanla döyüşdə olan itkilər dayanmır. Bunun bir səbəbi də odur ki, minlərlə erməni ordu sıralarında xidmətdən boyun qaçırır. Erməni gəncləri illərdir ki, hərbi xidmətdən yayınmaq üçün ölkəni tərk edirlər və bu proses son günlər daha da intensivləşib. Hökumətin səfərbərlik barədə qərarına baxmayaraq, müxtəlif bəhanələrlə çağırışçı yaşında olan ermənilər xidmətdən yayınır, imkanı olanlar isə ölkəni tərk edirlər. Bu səbəbdən Ermənistanda yaşlıların orduya cəlb edilməsi daha da sürətlənib. İşğalçı ölkədə bunu yaşlıların təcrübələrinin çox olması səbəbindən könüllü şəkildə ordu sıralarına qoşulması kimi təbliğ edirlər. Amma təcrübə göstərir ki, yaşlı insanlar fiziki göstəricilərinin və çevikliyin aşağı olması səbəbindən elə döyüşə gəldiyi ilk andan həyatla vidalaşırlar.

Bu günlərdə Fransanın “Liberation” qəzeti yazmışdı ki, Ermənistan ordusunda əsgər çatışmazlığı yaşanır. Buna görə hətta Fransada yaşayan erməniəsilli qocaları da Qarabağda döyüşməyə razı salmaq üçün iş aparılır. Qəzet erməniəsilli 64 yaşlı Fransa vətəndaşı Qilbert Minasyanın Qarabağ döyüşlərində vuruşmaq üçün Yerevana yola düşməsi barədə material yayımlayıb. Məqalədə həmin şəxsin 1990-cı illərdə də Azərbaycana qarşı Ermənistan ordusunda döyüşdüyü bildirilib.

Hazırda işğalçı ölkənin hərbi-siyasi rəhbərliyi əsgər çatışmazlığını əsasən xaricdən gələnlərin hesabına kompensasiya etməyə çalışsa da, bu sahədə ciddi fiaskoya uğrayıb. Yayılan məlumatlarda vurğulanır ki, xaricdə yaşayan ermənilər koronavirusla əlaqədar sərhədlərin bağlı olduğunu bəhanə edərək, Ermənistana gəlməkdən boyun qaçırırlar.

Ona görə indi işğalçı ölkənin rəhbərliyi əsasən Yaxın Şərq ölkələrindən olan muzdluların döyüşlərə cəlb edilməsinə köklənib. Amma bu sahədə də ciddi problemlər yaşanır. Çünki muzdlulara pul ödəmək lazımdır. Ermənistanın daxili imkanları isə heç vaxt muzdluların maliyyələşdirilməsinə imkan verməyib. İndiki çətin iqtisadi vəziyyətdə isə bütün imkanlar tükənib. Diasporun topladığı vəsait Ermənistanın kiçik problemlərini belə ödəmək iqtidarında deyil. Tükənən iqtisadi imkanlar fonunda yaxın vaxtlarda bu ölkədə ərzaq qıtlığının baş verməsi də gözlənilir.

Ona görə indi Ermənistanda səfərbərliyə qocalar alınır. Onlar hətta qadınları məcburi şəkildə buna cəlb edir və rəsmi təbliğatda qəhrəmanlıq nümunəsi kimi qələmə verirlər. Səfərbərliyə alınan yaşlıların döyüş qabiliyyəti isə yoxdur. Ordunun anbarlarında onlara verməyə hərbi geyim də tapılmır.

Bu günlərdə Ermənistan müdafiə nazirliyinin nümayəndəsi Artsrun Ovannisyan “Facebook” sosail şəbəkəsində yazıb ki, qadın batalyonu yaradılıb.

Göründüyü kimi, Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə cəbhədə vurduğu ardıcıl ağır zərbələr düşməni çətin vəziyyətə salıb. İşğalçı ölkə kişi döyüşçü tapmaqda çətinlik çəkir. Bütün bunlar Ermənistan ordusunda canlı qüvvə çatışmazlığını həll etməyin mümkünsüzlüyünü göstərir. Video və fotofaktlar, eləcə də sosial şəbəkələrin erməni seqmentində yayılan məlumatlar da bunu təsdiqləyir.

Azərbaycan Ordusunun zərbələri nəticəsində minlərlə itki verən düşmən ordusunda yaralıların sayı da çoxdur. KİV Xankəndidə bütün mülki və hərbi xəstəxanaların çoxdan dolduğunu, bu səbəbdən yaralıların Ermənistanın müxtəlif bölgələrinə aparıldığını yazır. Ölkənin səhiyyə nazirliyi xəstəxanalarda yer olmadığı üçün koronaviruslu xəstələrin qəbulunu məhdudlaşdırıb. Başqa bir problem isə Ermənistanda həkim və digər tibbi personalın çatışmazlığıdır. Görünən odur ki, Ermənistan bu fəlakətdən heç cür xilas ola bilməyəcək.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Torpaqların işğaldan azad olunması uğrunda Vətən müharibəsi gedir

## Azərbaycan Ordusu tarix yazır

Azərbaycan Ordusu işğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda müzəffər yürüşünü inamla davam etdirir. Hər gün işğaldan azad edilmiş ünvanların sırasına yeniləri əlavə olunur. Hər ötən gün tariximizə qələbə günü kimi həkk edilir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızın işğaldan tam azad olunmasının elan ediləcəyi tarixi sürətlə yaxınlaşdırır.



### Qələbə uzaqda deyil

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən 17 ildə xüsusi diqqət mərkəzində saxladığı məsələlərdən biri ordu quruculuğu olub. Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşımızda dayanan əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daimi olaraq artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsi idi. Odur ki, Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində bu dövrdə ordumuzun döyüş qabiliyyətinin artırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi.

İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırıldı. Bu mənada Azərbaycanın yüksəlişinin əsas nümunələrindən biri də ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırmasıdır.

Bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları silahlar Azərbaycanda da var. Bunun nəticəsidir ki, hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Beynəlxalq reytinq agentliklərinin hesabatlarında da Silahlı Qüvvələrimiz dünyanın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları ilə bir sırada yer alır. Ümumiyyətlə, Azərbaycanla Ermənistanın hərbi imkanlar baxımından müqayisəsi çoxdan aparılırdı. Bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatların rəyi daim ondan ibarət olub ki, Azərbaycan Ordusu gücünə görə Ermənistandan çox irəlidədir.

Fərəhlisi odur ki, Azərbaycanın özünün də inkişaf etmiş hərbi sənaye kompleksi formalaşıb. Bu gün respublikamız Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar yerli müəssisələrdə istehsal olunur.

Xalqımız ilk dəfə hərbi paradlarda modern ordu quruculuğunun nümunələrini görmüşdü. 2016-cı ilin Aprel döyüşləri isə savaş meydanında ordumuzun nəyə qadir olduğunu göstərmişdi. Aprel döyüşləri Azərbaycan Ordusunun gücünün, əsgərlərimizin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirmişdi. Naxçıvanda Günnüt kəndinin işğaldan azad olunması, Ermənistanla sərhəddə strateji yüksəkliklərin ələ keçirilməsi isə Azərbaycan Silahlı Qüvvələrinin Aprel qələbəsindən sonra növbəti zəfəri idi. Həmin vaxt bu zəfər cəmiyyətimizin xoş ovqatını daha da artırmış, düşmən üzərindəki tam qələbə gününün o qədər də uzaqda olmadığını göstərmişdi.

### Ordumuz hünər meydanında ədaləti bərpa edir

Azərbaycan heç vaxt gizlətməyib ki, sülh danışıqları baş tutmayacağı təqdirdə ordusu öz sözünü deyəcək, tarixi missiyasını layiqincə yerinə yetirəcək. Artıq zaman yetişib və əsgərlərimiz döyüş meydanında respublikamızın ərazi bütövlüyünü qəhrəmancasına bərpa edirlər. Azərbaycan Ordusu hünər meydanında həm də illərdir ki, ATƏT-in Minsk qrupunun təmin edə bilmədiyi tarixi ədaləti bərpa edir.

Ordumuz cəmi bir neçə gün ərzində Ermənistanın 30 ilə yaxındır havadarlarının köməyi ilə qurduğu ordusunu məhv edir. Düşmənin 250-yə yaxın çoxsaylı artilleriya qurğuları, əməliyyat-taktiki raket sistemləri, S-300 kompleksləri sıradan çıxarılıb. Qeyd edək ki, düşmən işğal olunmuş ərazilərimizdəki müdafiə mövqelərini, istehkamlarını atəşkəsdən bəri müxtəlif vasitələrlə çox möhkəmləndirmiş, bütün cəbhə boyu əraziləri minalamışdı. Lakin Azərbaycan Ordusu düşmənin cəbhə boyu müdafiə xəttini elə ilk anda darmadağın edərək, istehkamlarını ələ keçirdi. Bu döyüşlərdə Ermənistan ordusunun peşəkar zabit heyəti və müddətdən artıq qulluq etmiş hərbi xidmətçiləri böyük sayda məhv edilib. Bu kimi peşəkar hərbçi heyətinin formalaşdırılmasına illər lazımdır. Aprel döyüşlərində Ermənistan öz cəzasını almışdı. Amma budəfəki döyüşlər miqyasına görə böyük əməliyyat olaraq Ermənistan dövlətini və ordusunu elə sarsıtdı ki, çətin özlərinə gəlsinlər.

Əks-hücum əməliyyatlarında düşmənə sarsıdıcı zərbələr endirməklə torpaqlarımızı işğaldan azad edən Azərbaycan Ordusu öz qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi. Ordumuzun qalibiyyəti xarici hərbi ekspertlər tərəfindən də yüksək qiymətləndirildi.

Məsələn, Rusiyanın Siyasi Araşdırmalar İnstitutunun baş direktoru, politoloq Sergey Markov bu barədə öz "Facebook" səhifəsində yazıb: "Hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu əyani şəkildə göstərdi ki, o, daha yaxşı təchiz olunub, daha yaxşı hazırlaşıb və görünür, onun döyüş ruhu da yüksəkdir, çünki o, öz əraziləri uğrunda vuruşur. Axı Rusiya da, dünya birliyi də Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır".

### Azərbaycanın təcrübəsi döyüşlərin aparılması taktikasını dəyişir

Tanınmış rusiyalı hərbi ekspert, "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko isə bildirib ki, Azərbaycan Ordusu işğal edilmiş ərazilərinin azad edilməsi üzrə əks-hücum əməliyyatlarında XXI əsrdə müharibə aparılması nümunəsi göstərdi. "Mən əminliklə deyə bilərəm ki, müasir silahlardan - pilotsuz uçuş aparatlarından, hava patrulu xidməti üçün silah-sursatdan, hədəfləri dəf etmək üçün yüksəkdəqiqlikli vasitələrdən istifadə olunmaqla aparılan döyüş əməliyyatlarının miqyası dünyanın aparıcı baş qərargahları tərəfindən çox diqqətlə öyrənilir. Dünya hələ belə bir vəziyyətlə rastlaşmamışdı ki, bir ordu digər ordu ilə vuruşarkən bu sayda yüksəkdəqiqlikli silahlardan istifadə edilsin. Zərbə uçuş aparatlarından istifadənin miqyasına və intensivliyinə görə bu, dünya tarixində ilk belə hadisədir. Nə ABŞ, nə Rusiya, nə İsrail, nə də hansısa başqa ölkə bu miqyasda pilotsuz zərbə uçuş aparatlarından istifadə etməyib. Pilotsuz uçuş aparatları bu cür münaqişələrdə özünün mübahisəsiz üstünlüyünü sübut edib. Buraya Azərbaycan Ordusu tərəfindən düşmənin canlı qüvvələrinin və hava hücumundan müdafiə vasitələrinin məhv edilməsi və daha sonra zirehli texnikanın, yüksək dərəcədə müdafiə olunan hədəflərin və canlı qüvvənin məhv edilməsi üçün pilotsuz uçuş aparatlarından geniş istifadə taktikasını da əlavə etmək lazımdır".

O qeyd edib ki, yüksəkdəqiqlikli silahdan istifadə mülki əhali arasında itkilərin sayını azaldır. "Bu nöqteyinəzərdən Azərbaycan həm hərbi uğur qazanıb, həm də Dağlıq Qarabağda yaşayan mülki vətəndaşların həyatını xilas edib. Fikrimcə, döyüş əməliyyatlarının aparılması taktikası sahəsində əhəmiyyətli dəyişikliklər olacaq. Sözsüz ki, Azərbaycan Ordusunun təcrübəsi ətraflı şəkildə öyrəniləcək", - deyə İqor Korotçenko bildirib.

Azərbaycan Ordusunun Dağlıq Qarabağda apardğı döyüşlərin müasir hərb tarixinə yazılacağı dəqiqdir. Bu döyüşlərdə ordumuzun düşmənə qarşı müxtəlif tipli çoxsaylı dronlar tətbiq edərək onun canlı qüvvəsini və texnikasını məhv etməsi yeni müharibə taktikası kimi hərbi mərkəzlərdə təhlil edilir. Ən mühümü odur ki, Azərbaycan Ordusunun keçirdiyi hərbi əməliyyatlar döyüş əməliyyatlarının aparılması taktikasını dəyişir. Belə ki, hərbi əməliyyatlarla bağlı indiyə qədər mövcud olmuş ənənələr yeniləri ilə əvəz olunur, o cümlədən bir sıra hərbi texnikalar tədricən effektivliyini itirir.

Bütövlükdə, torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsi ordumuzun gücünün və ümumən Silahlı Qüvvələrimizdə aparılan quruculuğun və modernləşmənin nəticələrinin döyüş meydanındakı praktik təsdiqi oldu. Azərbaycan göstərdi ki, ən müasir vasitələrlə döyüş aparmaq imkanları olan bir orduya malikdir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## Cəbhədən gələn qələbə xəbərləri gəncəlilərə dərdlərini unutdurur

Cəbhədə məğlubiyyətlərlə üzləşən Ermənistanın hərbi-siyasi hakimiyyəti vandallıq edərək ölkəmizin dinc yaşayış ərazilərini hədəfə almaqda davam edir. Lakin xalqımız, o cümlədən iki dəfə raket atəşinə məruz qalmış gəncəlilər nikbindirlər. Çünki bizi nə raket, nə də düşmənin hər hansı təxribatı sındıra bilər.





Gəncənin 3 yaşayış məntəqəsində olan evlərin yeri xarabazarlığa çevrilsə də, sakinlər arasında qələbəyə böyük inam var və onlar Ali Baş Komandanın ətrafında sıx birləşərək uzun illər ürəklərində bəslədikləri bu arzu ilə yaşayırlar.

Oktyabrın 17-də Gəncənin mərkəzinə atılan raket şəhərdə çox böyük dağıntılar törətmişdir. Nəticədə 14 nəfər həlak olmuş, 55 nəfər yaralanmış və 20-yədək ev tamam dağılaraq yararsız hala düşmüşdür. Tək bu faktlar Ermənistan xuntasının antiinsani, faşist simasını bir daha üzə çıxarır.

Gəncəyə raket hücumu gecə yarı olmasına baxmayaraq, bütün şəhər sakinləri hadisə yerinə tələsirdilər. Tələsirdilər ki, dağılmış evlərin altında qalan insanlara müəyyən qədər köməkləri dəysin. Ancaq Fövqəladə Hallar Nazirliyinin xilasedicilər, eləcə də aidiyyəti qurumların nümayəndələri artıq hadisə yerində idilər və uçqun altında qalanların sağ qalması üçün tədbirlər görürdülər.

Hadisə vaxtı daha çox faciə ilə üzləşən Əsgərovlar ailəsi oldu. Bir ailədən 5 nəfər həlak olmuşdu. 15 yaşlı Nigar Əsgərova ad gününə hazırlaşırdı. Lakin onun ad günü erməni terroru nəticəsində yasa döndü. Çünki ailədən körpə uşaqdan başqa heç kim qalmamışdı.

Raket hücumunda Şahnəzərli ailəsinin də itkisi az deyildi - 3 nəfər. Röyal, onun həyat yoldaşı Züleyxa və 1 yaşlı qızı Mədinə həyatlarını itirmişdir. Yalnız ailənin digər qızı Xədicənin həyatını xilas etmək mümkün olmuşdur.

Məlum olduğu kimi, Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş atəşkəs humanitar xarakter daşıyırdı və bu, Ermənistana həm də şans verirdi ki, daha ağır zərbələr almaqdan qaçsın. Lakin Paşinyan rejimi bu imkanı nəinki əldən verdi, eləcə də təcavüzkarlıq siyasətini davam etdirməkdə israrlı olduğunu bütün dünyaya nümayiş etdirdi. Humanitar atəşkəsin imzalandığı andan cəmi 14 saat sonra Ermənistan silahlı qüvvələri razılaşmanı pozaraq cəbhə bölgəsindən kənarda yerləşən şəhərlərimizi atəşə tutdu. Təəssüflər olsun ki, bu terrora beynəlxalq təşkilatlar, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədr ölkələri susmaqla reaksiya verdi. Amma ordumuz susmadı. İşğal altında olan daha bir neçə yaşayış məntəqəsini azad etməklə düşmənə növbəti dəfə yerini göstərdi.

Azərbaycan Ordusunun qazandığı bu qələbələr gəncəlilərdə böyük ruh yüksəkliyi yaratmışdır. Ali Baş Komandanın cəbhədəki uğurlarımızla bağlı verdiyi bəyanatlar, Ermənistan rəhbərliyinə ünvanladığı sərt mesajlar insanların qələbə əzmini daha da gücləndirmişdir. Xüsusilə "ermənilərin bu cinayət əməllərinə beynəlxalq təşkilatlar tərəfindən lazımi qiymət verilməsini artıq gözləməyəcəyik və düşmənin cavabını özümüz verəcəyik" bəyanatı Gəncə sakinləri arasında qürurla qarşılanmışdır. Bütün xalqımız kimi, gəncəlilər də bu fikirdədirlər ki, müharibə vətənimizin son qarış torpağı işğaldan azad olunanacan davam etməlidir.

Faciə zamanı evi dağılmış Pərvin Qasımova deyir ki, eybi yoxdur, ondan da yaxşısını tikərik, təki Qarabağımız düşmən tapdağından azad edilsin, Azərbaycanın üçrəngli bayrağı Şuşada, Xankəndidə dalğalansın.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Ermənistan odla oynamaqdan əl çəkmir

### Terrorçular BTC-dən sonra digər neft kəmərini hədəfə alıblar

Erməni terrorçuları cəbhə bölgəsindən yüzlərlə kilometr aralıda yerləşən yaşayış məntəqələrinə, mülki və strateji obyektlərə qadağan olunmuş silahlardan atəş açmaqda davam edirlər. Nahaq qan tökmək bu üzdəniraq tayfanın dəyişməz adətidir. Əzəldən əli günahsız dinc insanların, o cümlədən körpələrin qanına batmış erməni vandalları eləcə də daim iqtisadiyyatımıza zərbə vurmağa can atırlar.



Səbəblər çoxdur. Əvvəla, gözləri bizi götürmür. İkincisi, döyüş meydanında Azərbaycan Ordusunun vurduğu zərbələrin acısının və xəcalətinin intiqamını bu cür alçaq yolla alırlar. Eləcə də aldadıb özgə torpağına gətirdikləri və ucuz, urvatsız ölümə məhkum etdikləri əsgərlərin valideynləri yanında bəraət qazanmaq istəyirlər və s.

Ermənilər həm də dəhşətli bir odla oynayırlar. Nə dərəcədə azğınlaşmış, quşbeyin, ağıldan kəm və dar düşüncəli olmalısan ki, neft-qaz kəmərlərini hədəfə alasan. Azərbaycana bununla maddi zərbə endirmək istəyirlər, məlumdur. Ancaq unudurlar ki, həmin kəmərlər eyni zamanda regional, hətta beynəlxalq əhəmiyyət daşıyır.

Erməni vandalları atdıqları raketlərdən birini Xızı rayonuna tuşlamışlar. Halbuki Xızı cəbhədən çox uzaqda yerləşən rayondur. Hadisə belə olmuşdur: ərazidə yaşayan insanlar Daxili İşlər Nazirliyinin 102 - Zəng Mərkəzi Xidmətinə partlayış barədə məlumat veriblər. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) əməliyyat qrupu, nazirliyin və digər müvafiq orqanların əməkdaşları dərhal hadisə yerinə gəliblər. Rayondakı Sitalçay ərazisinə baxış zamanı bir ədəd "S-300" raketinin partlamış qalıqları aşkarlanıb.

Raketin 300 kilometr radiusda hədəfləri vurmaq imkanına, 250-280 kilometr məsafədə uçuş qabiliyyətinə malik olduğu müəyyənləşdirilib. Raket Xızı rayonunun Sitalçay qəsəbəsi ərazisində havada zərərsizləşdirilib. O, şumlanmış əkin sahəsinə düşərək üç hissəyə bölünüb. Xoşbəxtlikdən xəsarət alan olmayıb.

Məsələnin bir vacib tərəfi də odur ki, buradan cəmi 250 metr aralıdan Şimal İxrac Boru Kəməri - Azərbaycan neftinin uzun illərdir nəql olunduğu Bakı-Novorossiysk marşrutu keçir... Ermənilərin necə qorxulu bir odla oynadıqlarını şərh etməyə ehtiyac qalmır.

Bununla belə xatırladaq ki, ölkəmiz neft, qaz və ixrac layihələrini xarici tərəfdaşları ilə birlikdə həyata keçirir. Məsələn, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçir. Bu layihədə 11 dünya şöhrətli şirkət tərəfdaşlıq edir. Odur ki, BTC-ni hədəfə almaq, ona zərər yetirmək təkcə Azərbaycanın deyil, həmin şirkətlərin təmsil etdiyi ölkələrin hər birinin iqtisadiyyatına zərbə vurmaq deməkdir. Üstəlik, BTC ilə yanaşı, Azərbaycanın və Gürcüstanın ərazisi boyu "Cənub qaz dəhlizi"nin seqmentlərindən olan Cənubi Qafqaz Boru Kəməri (CQBK) uzanır. Buradan eləcə də Bakı-Supsa neft kəməri keçir. Bu layihələrdə də bizim çoxsaylı tərəfdaşlarımız var.

Təcavüzkar Ermənistan məhz bu obyektləri hədəfə almışdır. Belə ki, hərbi əməliyyatlar aparılan ərazidən ən azı 50 kilometrdən artıq məsafədə yerləşən Yevlax rayonunun Aran qəsəbəsi istiqamətində beynəlxalq hüquqla qadağan edilmiş silahları, müharibə vasitələrini və üsullarını tətbiq edərək mülki obyektlərə əhəmiyyətli zərər vura bilən, böyük dağıdıcı qüvvəyə malik, içərisində bombacıqlar olan raketdən atəş açmışlar. Raketin Azərbaycan Silahlı Qüvvələri tərəfindən havada zərərsizləşdirilməsi nəticəsində sözügedən obyektlərə ziyan dəyməmişdir. Raketin içərisində olan bombacıqlar kəmərlərin ətrafına səpələnmişdir.

Görəsən bu ağılsız məxluqlar nə etdiklərini bilirmi? Düşünürmü ki, təkcə Azərbaycanın deyil, bu kəmərlərin bütün səhmdarlarının qarşısında cavab verməli olacaqlar? Yoxsa məqsəd tərəfdaşlarımızla bizim aramızda nifaq salmaqdır?..

Başlıca məqsəd Azərbaycana daha çox zərbə vurmaqdır ki, buna da nail ola bilməyəcəklər. Bununla belə, Azərbaycanın yaşayış məntəqələrini və strateji obyektlərini ağır artilleriyadan atəşə tutmağa davam edirlər. Dəfələrlə Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir Su Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 kilometrdən artıq uzaqlıqda yerləşən iri sənaye şəhəri Mingəçevirə raketlər atıblar.

Şükürlər olsun ki, raketlər ordumuzun hərbi hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilib.

Oddan və sudan əli boşa çıxan terrorçular "güc"lərini pambıq yandırmağa yönəldiblər. Tərtərdə vandallıqlarını davam etdirərək pambıqtəmizləmə zavodunu hədəfə alaraq oda qalayıblar...

İşğalçı Ermənistan respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyalarını və onların əlavə protokollarını, habelə bu il oktyabrın 10-u saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq öz bəd əməllərindən əl çəkmirlər. Bunun üçün onlar təkcə Azərbaycan xalqı qarşısında deyil, dünya insanlığı qarşısında cavabdehdirlər.

***Flora SADIQLI, "Azərbaycan"***

## Təcavüzkar Ermənistanı ifşa etmək bütün dünyanın işi olmalıdır

Erməni işğalçıları məğlub olur, dizləri qırılaraq çökürlər. Azərbaycan torpaqlarında Ermənistan və havadarları tərəfindən qurulan bu faşist xislətli qurum nəyi vardısa, hamısını itirir. Və itirdikcə də azğınlaşır, simasızlığını, əxlaqsızlığını, qürursuzluğunu bir daha bütün dünyaya göstərir. Bütün bunlar isə işğalçının süqutudur.

Amma bu süqutu ləngitmək istəyənlər də var. Müəyyən qüvvələr Paşinyanın qəlsəmələrindən tutub onu məcbur edirlər ki, dirənsin, inadkarlıq etsin. Hətta bəzən erməni terrorçularının olmayan "qələbə"lərindən əfsanələr uydursun.

Paşinyanın psixoloji portretini bir cümlə ilə yaradası olsaq, deyə bilərik ki, o, canlı müqəvvadır. Mimikası, üzünün ifadəsi elədir ki, sanki ətrafında baş verənləri anlamır, dərk etmir. Bəzi məqamlarda isə ruhi xəstə kimi görünür. Bütün hərəkətləri idarə olunur, gülüşü dalğın və ya hikkəli görünməsi təbiətinin adi axarına deyil, ona verilən əmrlərə uyğundur. Kimin müqəvvasına çevrildiyini, hansı oyuna qoşulduğunu dərk etmək istəyir, gücənir, cəhdlər edir, amma ağlının məhdudluğundan, acizliyindən bacarmır. O, baş nazirdən çox uzaqdan idarə olunan əşyaya bənzəyir. Bu üzdən məğlubiyyətinin uçurumlarını dərk etə bilmir.

Paşinyan heç nəyi dərk etməsə də, bunu yaxşı bilir ki, onu hakimiyyətə hansı yolla "desant" atıblarsa, məqamında o cür də aradan çıxaracaqlar. Amma bunacan ağalarının qarşısında görməli işləri var. Ümumiyyətlə, bütün Ermənistanın siyası hakimiyyəti bu gündədir. İşğalçı olduqlarını etiraf etmək əvəzinə Azərbaycan tərəfindən terrora məruz qaldıqlarını bəyan edirlər. Erməni mətbuatındakı başlıqlardan ikisinə fikir verin: "Ermənistan prezidenti NATO-nun və AŞ-nın Qarabağla bağlı mövqeyindən məyusdur", "Paşinyan Fransanı və ABŞ-ı Rusiyanın Qarabağla bağlı səylərini dəstəkləməyə çağırdı". Yəni "əzabkeş"lər artıq görürlər ki, dünyada onlara münasibətdə yeni yanaşmalar tətbiq edilir. Buna görə şoka düşürlər.

Azərbaycan Ordusu qələbələri ilə işğalçı dövləti sülhə məcbur etmək istəyir. İstəyir ki, sonu məlum bu döyüşlərdə artıq qan tökülməsin. Bəs əvəzində Ermənistan nə edir? Döyüşlər Azərbaycan torpaqlarında getsə də, erməni təbliğat maşını əxlaqsız bir dirənişlə, etik çərçivələrə sığmayan nümayişkaranə sırtıqlıqla dünyaya hay salır ki, erməni xalqının mövcudluğu təhlükə altındadır. Onlar döyüş bölgəsində törətdikləri bütün hərbi cinayətləri həyasızcasına Azərbaycanın ayağına yazmağa cəhd edirlər. Bəyanatlarında yenə də "zavallı və məzlum erməni xalqı"nın "iztirab"larını tirajlayır, car çəkirlər ki, onlara qarşı genosid törədilir. Amma bir milyona yaxın dinc əhalini necə ata-baba yurdlarından qovduqlarını dilə gətirmirlər, Xocalı faciəsini yada salmırlar. Əksinə, əllərindən gələni etməyə çalışırlar ki, Rusiyanı, Fransanı bu münaqişəyə cəlb etsinlər.

Bütün bunlardan başqa ikinci bir təhlükəli məqam ondan ibarətdir ki, erməni terror təşkilatları artıq bütün dünyada baş qaldırır, Azərbaycan ərazilərində, bizə qonşu ölkələrdə zəncirvari terror aktlarına rəvac verməyə çalışırlar. Bunun üçün Azərbaycana Suriyadan muzdluların gətirilməsi barədə yalanlar uydururlar. Bu səs-küyün fonunda isə bütün dünyadan muzdluların Ermənistana daşınması baş verir. Sabah erməni terror dəstələri rəzil əməllərinə rəvac verəndə istənilən hadisəni Azərbaycan tərəfinin üstünə atacaqlar və aləmə car çəkəcəklər ki, bunu Suriyadan Azərbaycana gətirilən muzdlular ediblər.

Amma dünyada müəyyən dəyişikliklər baş verir, Azərbaycanın təcavüzə məruz qaldığını etiraf edən və ona dəstək verən ölkələrin sayı artır. Qarabağda erməni faşistləri məğlubiyyətə uğradıqca bizim haqlı olduğumuzu təsdiq edənlərin, bizə arxa duranların sayı çoxalır. Hətta Qarabağdan çıxan bəzi ermənilər də etiraf edirlər ki, onlar gec-tez işğal olunmuş ərazilərdən çıxmalı idilər. Bu reallıqları bütövlükdə dünya birliyi nə qədər tez etiraf edəcəksə, Qafqazda da sülh bir o qədər tez bərpa olunacaq.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Ali Məhkəmə Ermənistan ordusunun mülki şəxsləri hədəfə alması ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının Ali Məhkəməsi Ermənistan ordusunun dinc əhalini hədəfə alması nəticəsində mülki şəxslərin həlak olması və xəsarət alması ilə bağlı bəyanat yayıb.

Ali Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda qeyd olunub ki, Ermənistanın silahlı birləşmələri oktyabrın 17-də gecə saatlarında öz ərazilərindən fəal hərbi zonadan təxminən 100 kilometr aralıda yerləşən, Azərbaycanın sıx məskunlaşmış əhalisi olan ikinci böyük şəhərinə - tarixi Gəncəyə yenidən raket zərbəsi endirib. Azərbaycanın mülki əhalisinə qarşı törədilən terror aktları nəticəsində 5-i uşaq olmaqla 15 mülki şəxs həlak olub, 57 nəfərdən çox insan müxtəlif dərəcəli bədən xəsarətləri alıb. İnsan itkisi ilə yanaşı, mülki infrastruktura ciddi şəkildə ziyan dəyib.

Azərbaycan hökuməti silahlı qüvvələrin mülki şəxslərə hücum etməsinə və mülki insanlara zərər vuran hücumlara qarşı mütləq bir qadağaya riayət etməsini tələb edən beynəlxalq humanitar hüququn əsas prinsipinə həmişə əməl etdiyini bildirir. Azərbaycan Silahlı Qüvvələri mülki əhaliyə qarşı deyil, əksinə, döyüş meydanında düşmənin hərbi hədəflərinə ciddi zərbələr endirmək öhdəliklərini bir daha təsdiqləyir.

Dağlıq Qarabağ bölgəsi və ona bitişik yeddi rayon üzərindəki beynəlxalq səviyyədə tanınmış sərhədlərini bərpa etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsinə tam uyğun olaraq özünümüdafiə hüququnun həyata keçirilməsi nəticəsində son həftələrdə Azərbaycanın Silahlı Qüvvələri Cəbrayıl, Füzuli və Zəngilan şəhərləri də daxil olmaqla, bir sıra şəhər və qəsəbələri erməni işğalından azad edib.

"Beynəlxalq ictimaiyyəti Gəncə şəhərinə və Azərbaycanın digər yaşayış məntəqələrinə qarşı törədilən terror aktlarını qətiyyətlə pisləməyə çağırırıq. İnsanlığa qarşı bu dəhşətli cinayətləri, o cümlədən 1992-ci ilin fevralında Xocalı şəhərində Azərbaycanın mülki əhalisinə qarşı misli görünməmiş soyqırımı törədənlər dərhal tutulmalı və ədalət mühakiməsinə cəlb olunmalıdırlar.

Ərazi bütövlüyünü bərpa etmək, Dağlıq Qarabağ və ona bitişik rayonları Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyan və Ermənistan silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələrinin müddəalarını həyata keçirən Azərbaycan hökumətinin səylərini dəstəkləyirik", - deyə bəyanatda qeyd olunur.

Bəyanatı Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev imzalayıb.

# Müdafiə Nazirliyi xəbər verir

## *Anar EYVAZOV:* "Hazırda qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə tam nəzarət edir"

Ötən müddət ərzində cəbhədə və dövlət sərhədi boyu müdafiə mövqelərimizi, eləcə də yaşayış məntəqələrimizi atıcı silahlarla və artilleriya vasitələri ilə atəşə tutan düşmən qüvvələri ordumuz tərəfindən darmadağın edilib.




Ermənistan ordusu Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu, Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki döyüş mövqelərimizi, o cümlədən Goranboy, Tərtər və Ağdam rayonlarında yaşayış məntəqələrimizi artilleriya və iriçaplı silahlarla atəşə tutub. Atəş nəticəsində mülki şəxslərdən iki nəfər həlak olub, bir nəfər ağır yaralanıb. Ordumuz tərəfindən adekvat cavab tədbirləri görülüb.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 20-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Bildirilib ki, cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində itirdiyi mövqeləri bərpa etməyə cəhd edən düşmənə qarşı bölmələrimiz uğurlu əməliyyatlar yerinə yetirib. Artilleriya atəşləri ilə gücləndirilmiş bölmələrimizin xüsusi əməliyyatları nəticəsində düşmənin 1-ci, 2-ci, 5-ci və 246-cı alaylarının, eləcə də 10-cu dağatıcı, 18-ci motoatıcı diviziyalarının komandir heyəti və muzdlu döyüşçülər daxil olmaqla xeyli sayda canlı qüvvəsi məhv edilib və yaralanıb. Ümumilikdə düşmənin xeyli sayda canlı qüvvəsi, döyüş və avtomobil texnikası, artilleriya və zenit-raket qurğuları, silah və döyüş sursatları, əməliyyat-taktiki və ballistik raket qurğuları, yaylım atəşli, radioelektron mübarizə və tank əleyhinə vasitələri, o cümlədən S-300 tipli zenit-raket kompleksləri məhv edilib. Xeyli sayda silah-sursat, tank və artilleriya qurğuları ələ keçirilib.

Polkovnik-leytenant Anar Eyvazov qeyd edib ki, aparılan əməliyyatlar nəticəsində böyük itkilər verən düşmən bölmələri döyüşə girməkdən imtina edir, tutduqları mövqeləri tərk edib geriyə çəkilməyə məcbur olub. Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan rayonlarında bir neçə kənd və Zəngilan şəhəri uzunmüddətli işğaldan azad edilib. Hazırda qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə tam nəzarət edir. Düşmən qüvvələri itkilər verərək döyüş meydanından fərarilik edir, geriyə çəkilir.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, erməni mətbuatında düşmənin guya Xudafərin ərazisində əməliyyat keçirdiyi iddia edilir. Bildiririk ki, bu məlumatların hamısı yalandır. Ermənistan ordusu Xudafərin ərazisində əməliyyat keçirmək iqtidarında deyil və Xudafərini birdəfəlik unutmaları daha yaxşı olar.

Əməliyyatların gedişində Azərbaycan Ordusunun müasir silahları və döyüş texnikası yalnız düşmənin hərbi hədəflərinin məhv edilməsinə və preventiv tədbirlər çərçivəsində mülki əhalini hədəfə almış legitim hədəflərin dəqiq atəşlə məhv edilməsinə yönəldilib.

Brifinqdə media nümayəndələrinin diqqətinə çatdırılıb ki, bəzi sosial şəbəkə istifadəçilərinin əməliyyatlarla bağlı paylaşdığı şəxsi fikirlər məxfilik rejiminin pozulmasına və ən əsası hərbi qulluqçularımızın həyatına təhlükə yarada bilər. Bu məsələni nəzərə alaraq, bir daha sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini yalnız Ali Baş Komandanımızın ictimaiyyətə çatdırdığı məlumatlara və Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq.

"Sonda yeni uğurlar münasibətilə ordu rəhbərliyi adından xalqımızı bir daha təbrik edirik. Əmin edirik ki, ordumuz işğal altında qalan digər torpaqlarımızı da tezliklə və mütləq şəkildə azad edəcək. Qələbə bizimlədir", - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

## Ermənistan ordusu Ağdam, Goranboy və Tərtər rayonlarının ərazisini raket-artilleriya atəşinə tutub

Ermənistan ordusu Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqda davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 20-də saat 17:00 radələrində Ermənistan ordusu tərəfindən Goranboy və Tərtər rayonlarının ərazisi raket-artilleriya atəşinə tutulub.

* * *

Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

## Düşmənin mülki şəxsləri hədəfə alması nəticəsində Tərtər rayonunda iki nəfər həlak olub, bir nəfər xəsarət alıb

Ermənistanın silahlı qüvvələri elan olunan humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 20-də səhər saatlarından başlayaraq düşmənin silahlı birləşmələri tərəfindən Tərtər rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub. Saat 15 radələrində rayonun Cəmilli kəndində fərdi yaşayış evinə top mərmisinin düşməsi nəticəsində kənd sakinləri 1994-cü il təvəllüdlü İsaqlı Anar Rəsul oğlu və 1984-cü il təvəllüdlü Quliyev Anar Tofiq oğlu həlak olub, 1972-ci il təvəllüdlü Şabanov Murov Rəsul oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Bundan başqa, evə külli miqdarda ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

# *İtalyan tədqiqatçı:* "Dağlıq Qarabağ müharibəsinin xristianlar və radikal islamçılar arasında dini müharibə olması iddiası kosmik yalandır"

İtaliyanın nüfuzlu "Corriere Della Sera" qəzetinə bağlı məşhur "EUROACTIVE" portalının italyan versiyasında Roma Sapienza Universitetinin tədqiqatçısı, professor Daniel Pommier Vinçellinin "Dağlıq Qarabağ: sülh zamanıdır?" başlıqlı məqaləsi dərc olunub.




Məqalədə müəllif oktyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında razılaşdırılmış humanitar atəşkəsi xatırladaraq sülh və dialoq üçün tələb olunan şərtlər və atılmalı olan addımlardan danışır. Professor qeyd edir ki, Azərbaycan hazırda üstün mövqedədir və hərbi nöqteyi-nəzərindən Bakı qələbə qazanmaqdadır. Azərbaycan 1993-cü ildə Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ətrafında yerləşən bir sıra ərazilər üzərində nəzarəti bərpa edib. Həmçinin siyasi cəhətdən də, milli ərazisi olan həm Dağlıq Qarabağda, həm də ətraf rayonlarda əməliyyatlar aparmaq üstünlüyü var və bütün bu vəziyyət sülh üçün bəzi hazırlıqlara yol açır.

D.Pommier bildirir ki, müharibəni "Dağlıq Qarabağ münaqişəsi" kimi təqdim etmək həqiqəti tam əks etdirmir. Əslində, münaqişəyə daha geniş ərazilər - etnik cəhətdən tam şəkildə azərbaycanlıların yaşadığı və 1992-1994-cü illərdə Ermənistanın işğalı nəticəsində həmin azərbaycanlıların zorla qovulduğu ətraf ərazilər də cəlb olunub. Ermənistan həmin rayonları təhlükəsizlik səbəbindən zəbt etdiyini bildirsə də, bu ərazilər işğalı və qanunsuz məskunlaşdırmanı qadağan edən beynəlxalq hüquq normalarına zidd olaraq qanunsuz məskunlaşdırılma cəhdlərinə məruz qalıb.

Müəllif bildirir ki, 25 ildən artıq davam edən bir münaqişə üçün dayanıqlı sülhə qısa müddət ərzində nail olmaq çətindir, lakin ətraf rayonlar təcili azad olunmalıdır. Çünki heç kim inkar edə bilməz ki, ətraf yeddi rayon ədalətsiz şəkildə "qalxan ərazilər" kimi istifadə edilib. Söhbət Ermənistan üçün üstün psixoloji və hərbi yayındırma, əslində isə etik cəhətdən qəbul edilməz vasitədən gedir. İstənilən müşahidəçi Dağlıq Qarabağdan və ətraf yeddi rayondan zorla qovulmuş azərbaycanlı əhalinin iztirablarını, beynəlxalq ictimaiyyətin gözü qarşısında saxlanılan hazırkı dəhşətli status-kvoya görə həmin azərbaycanlıların məyusluğunu görmədən bu müharibəni başa düşə bilməz. Təsadüfi deyil ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri də işğalçı qüvvələrin, ilk növbədə, məhz bu ərazilərdən çıxarılmasını nəzərdə tutur.

D.Pommier qeyd olunan BMT qətnamələrinin həyata keçirilməsi istiqamətində 2007-ci ildə ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq olunmuş "Madrid prinsipləri"nin əsas yol xəritəsi kimi qaldığını düşünür və həmin prinsiplərin aşağıdakıları ehtiva etdiyini xatırladaraq vurğulayır ki, bu prinsiplər ilə bağlı əsas problem Ermənistanın birtərəfli qaydada onları rədd etməsidir. Müəllif həmin prinsipləri sadalayaraq bildirir:

- Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ ətrafındakı yeddi rayondan çıxarılması və həmin ərazilər üzərində Azərbaycanın legitim suverenliyinin bərpa olunması;
- İşğal olunmuş bütün ərazilərə, həm Dağlıq Qarabağa, həm də ətraf yeddi rayona məcburi köçkünlərin qaytarılması;
- Ermənistan və Dağlıq Qarabağ arasında dəhliz yaradılması;
- Dağlıq Qarabağa beynəlxalq zəmanət altında keçid status və özünüidarəçilik verilməsi;
- Keçid müddətinin sonunda əhalinin azad iradəsi ilə Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdirilməsi.

Məqalədə Dağlıq Qarabağın yekun statusuna münasibətdə müxtəlif modellər, o cümlədən İtaliyanın Alto Adice modeli haqqında danışıldığı bildirilir. D.Pommierə görə, münaqişənin həlli yolu kimi Qrenlandiya modelini də tətbiq etmək olar. O bildirir ki, inuit xalqının yaşadığı, lakin XVII əsrdən etibarən Danimarka ərazisi olan Qrenlandiyaya 1979-cu ildən Danimarka daxilində muxtariyyət verilib. Eyni zamanda, Qrenlandiya Danimarkanın suverenliyini, qanunlarını və ərazi bütövlüyünü tanıyaraq onun ayrılmaz hissəsidir. Bu model hamının xeyrinə həm ərazi bütövlüyünün, həm də öz müqəddəratını təyin etməyin uzlaşdığını göstərən əyani nümunədir.

Məqalədə müəllif Azərbaycana qarşı yayılan saxta xəbərlərə də toxunur və informasiya məkanının onlardan təmizlənməsinin vacibliyini diqqətə çatdırır, bu saxta xəbərlərdən ikisini misal çəkərək əksini sübut edir. O, aparılan müharibənin guya 1915-ci ildə baş vermiş qondarma erməni soyqırımının davamı olması iddiasına cavab verərək, bunun tam yalan olduğunu və həmin hadisələrin hazırkı münaqişə, Qafqaz və Azərbaycan ilə əlaqəsinin olmadığını göstərir. Həmçinin müharibənin guya "xristianlar və radikal islamçılar arasındakı dini müharibə olması" iddiasını isə "kosmik yalan" adlandıraraq izah edir ki, Qafqazda din heç vaxt əhəmiyyətli rol oynamamışdır və Azərbaycan da ünsiyyət nöqteyi-nəzərindən din amilinə müraciət etməmişdir. Ermənistan tərəfinin bu vasitədən istifadə etməsi, təəssüf ki, hələ də islamofob olan bu dünyanın "rəğbətini qazanmağa" çalışmasından xəbər verir.

Sonda D.Pommier guya Azərbaycan tərəfdən cihadçıların vuruşması da daxil olmaqla, çoxsaylı saxta xəbərlərin də dolaşdığı, lakin yuxarıda qeyd olunan iki əsas saxta xəbərdən informasiya məkanının təmizlənməsinin sülhə doğru addım atılmasına kömək edəcəyini vurğulayır.

Məqalə ilə bu linkə keçid edərək tanış olmaq mümkündür: https://euractiv.it/section/mondo/opinion/nagorno-karabakh-tempo-di-pace/

# Parisdə fransız jurnalistlər üçün növbəti mətbuat konfransı keçirilib

Bu gün bütün dünya dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıyır, münaqişənin beynəlxalq hüquq çərçivəsində, baza prinsipləri əsasında həllini dəstəkləyir.

Minsk qrupunun üzv dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını və Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğuna dair mövqelərini bir daha təsdiqlədilər. Bir çox beynəlxalq təşkilatların, eləcə də BMT-nin rəhbərliyi mülki yaşayış sahəsinin raket atəşinə tutulmasının qəbuledilməz olduğunu bildirdi. Gəncədə yaşayış massivini raket atəşinə tutması ilə Ermənistan özü haqqında yaratdığı mifi elə özü dağıtdı. Gəncə hadisələri münaqişənin əsil mahiyyəti və tərəflər barədə aydın mesaj oldu. Bu hadisələr mətbuat sahəsində də qərəzliliyə son qoydu. Gəncə hadisələrindən əvvəl mətbuat birtərəfli məlumatlar verirdi. Ancaq o hadisələrdən sonra mətbuatın mövqeyində də dönüş yarandı. Gəncədə mülki yaşayış binalarının raket atəşinə tutulması, dinc insanların, uşaqların qətlə yetirilməsi Ermənistan rəhbərliyinin tutduğu mövqeni açıq-aydın əks etdirir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində fransız jurnalistlər üçün təşkil edilmiş mətbuat konfransında ölkəmizin Fransadakı səfiri Rəhman Mustafayev deyib.

Səfir bildirib ki, oktyabrın 17-də Ermənistan ikinci dəfə Gəncənin yaşayış massivini qadağan olunmuş raketlə atəşə tutub. Mülki əhalinin atəşə tutulması qarşı tərəfin münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmadığını sübut edir. Ancaq Azərbaycan 27 ildir ki, münaqişənin sülh və danışıqlar yolu ilə həllinə çalışır. Qarşı tərəfin qeyri-konstruktiv mövqeyi bugünkü münaqişəyə gətirib.

Diplomat 4 həftədir davam edən müharibə, düşmənin mülki əhali və infrastrukturu hədəfə alması, dinc əhali arasında itkilər, döyüş meydanlarındakı vəziyyətlə bağlı ətraflı məlumat verib, Azərbaycanın öz torpaqlarını azad etdiyini bildirib. Diqqətə çatdırıb ki, Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonu işğal edilib, 1 milyondan çox azərbaycanlı doğma yurdundan qovulub. Bu gün onlar öz evlərinə qayıtmağı səbirsizliklə gözləyirlər.

Sonra jurnalistlərin Türkiyə, Fransa ilə bağlı münasibətlər, eləcə də Xankəndidə yaşayış binalarının zədələnməsinə dair çoxsaylı sualları cavablandırılıb.

Rəhman Mustafayev qeyd edib ki, Ermənistan döyüş meydanından çox uzaqda yerləşən Gəncədə yaşayış massivini, mülki əhalini hədəfə alaraq qadağan olunmuş raketlərdən atəşə tutub. Mülki insanların həlak olmasına və yaralanmasına səbəb olub. Ancaq Xankəndidə Azərbaycanın döyüş meydanından uzaqda yerləşən ərazilərində mülki əhalini hədəfə alan raket sistemi zərərsizləşdirilib. Bildirilib ki, Azərbaycan mülki əhalini hədəfə almır, yalnız hərbi obyektlərə zərbələr endirir.

Dağlıq Qarabağ ermənilərinin təhlükəsizliyinə gəldikdə isə bildirilib ki, bu gün Azərbaycanın böyük şəhərlərində 30 minə yaxın erməni 27 ildir dinc şəraitdə yaşayır. Azərbaycan multikultural və çoxkonfessiyalı ölkədir. Bu ölkədə irqindən, dinindən asılı olmayaraq, bütün etnik qruplar birgə mehriban yaşayırlar. Ölkədə dini və ya etnik zəmində heç bir qarşıdurma baş verməyib.

Sonda səfirliyin mətbuat konfransının hər həftə keçiriləcəyi bildirilib.

# Daşkənddə keçirilən etiraz aksiyasında Ermənistanın Gəncəyə və digər şəhərlərimizə raket hücumları pislənilib

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) qarşısında - Heydər Əliyev küçəsində Ermənistanın işğalçılıq siyasəti, Gəncə və digər şəhərlərimizin raket atəşinə tutulması ilə əlaqədar etiraz aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, aksiyaya Daşkənddə yaşayan soydaşlarımız, paytaxtdakı digər mədəniyyət mərkəzlərinin üzvləri, qardaş özbək xalqının nümayəndələri, azərbaycanlı gənclər qatılıb.

Aksiya iştirakçıları Gəncə şəhərində mülki əhaliyə qarşı raket hücumu zamanı həlak olan və yaralanan uşaqların şəkillərindən ibarət fotoguşəyə baxıb, önünə gül-çiçək və müxtəlif uşaq oyuncaqları qoyublar.

İştirakçılar əllərində Azərbaycan və özbək dillərində "Erməni işğalına son!", "Gəncədə dinc sakinlərin qətlə yetirilməsini pisləyirik!", "Gəncədə uşaqların ölümünü qınayırıq!" plakatları tutublar.

AMM-in direktoru Samir Abbasov bildirib ki, oktyabrın 17-də gecə saat 01:00 radələrində Ermənistan elan olunan atəşkəs rejimini kobud şəkildə pozub və Gəncə şəhərini ballistik raket atəşinə tutub. Cəbhə xəttindən çox uzaqda yerləşən Gəncə şəhərinə üçüncü dəhşətli raket hücumu ciddi dağıntılara və dinc əhalinin itkisinə səbəb olub. Son məlumata görə, bu hücum nəticəsində 15 nəfər həyatını itirib, 50-dən çox insan müxtəlif dərəcədə xəsarətlər alıb.

O deyib ki, işğalçı dövlət bu və digər qanlı cinayətlər törətməklə 1949-cu il Cenevrə Konvensiyasının, 1954-cü il Haaqa Konvensiyasının şərtlərini və beynəlxalq hüququn normalarını kobud şəkildə pozub, buna görə də məsuliyyət daşıyır.

S.Abbasov vurğulayıb ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız işğaldan azad olunur, Cəbrayıl və Füzuli şəhərlərində, 50-dən çox kənd və qəsəbədə, bir sıra strateji yüksəkliklərdə Azərbaycan bayrağı dalğalanır.

Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin (RAMMM) sədri Firdovsi Hüseynov çıxış edərək deyib ki, terrorçu dövlət olan Ermənistan təkcə Gəncəni yox, həmçinin Mingəçevir şəhərini, Bərdə, Beyləqan, Ağcabədi, Tərtər, Goranboy rayonlarını raket atəşinə tutub. Nəticədə dinc insanlar həlak olub, onların arasında uşaqlar və qadınlar da var. Belə terror aktları, demək olar ki, hər gün təkrar olunur və dünya dövlətləri hələ də Ermənistana "dur" demir. Əminəm ki, gec-tez terrorçu Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayət məsuliyyətinə cəlb ediləcək.

Azərbaycan diasporunun üzvü İsmayıl Məmmədov çıxışında qeyd edib ki, tarix təkrar olunur, zaman-zaman ermənilər Azərbaycan torpaqlarında soyqırımı törədib, 100 il bundan əvvəl də, indi də... Xocalı faciəsini törədən erməni millətçiləri öz adlarını tarixə yazıblar. İnşallah, yaxın günlərdə torpaqlarımız erməni işğalından azad olunar və düşmən öz layiqli cəzasını alar.

# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir



"Ermənistan elan edilən humanitar atəşkəsə baxmayaraq hərbi cinayətlər törədir". AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyə Prezidentinin müşaviri İbrahim Kalın rəsmi "Twitter" hesabında deyib.

O bildirib: "Ermənistan elan edilən humanitar atəşkəsə baxmayaraq hərbi cinayətlər törədir. Xocalıda etdiyi kimi, qadın, uşaq, qoca, dinc əhaliyə qarşı cinayətlər törədir. Bu hüquqsuzluq və qətliamlar cavabsız qalmayacaq. Kim nə deyirsə, desin, Türkiyə sonadək Azərbaycanın yanındadır".

❖ ❖ ❖




"Müharibə cinayətlərinə göz yumanlar beynəlxalq hüquq qarşısında ittiham olunacaqlar". AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop rəsmi "Twitter" hesabında yazıb.

O bildirib: "Quldur Ermənistan dövlətinin Gəncə və Mingəçevir şəhərlərinə endirdiyi raket zərbələrində yenə dinc sakinlər hədəfə alındı. Hələ də bu müharibə cinayətlərinə göz yumanlar beynəlxalq hüquq qarşısında cinayət ortağı kimi ittiham olunacaqlarını bilməlidirlər".

❖ ❖ ❖



Böyük Britaniya parlamentinin Lordlar Palatasının üzvü Lord Malkolm Brus bu ölkənin Xarici işlər, birlik və inkişaf məsələləri üzrə dövlət katibi Dominik Raaba məktub ünvanlayıb. AZƏRTAC xəbər verir ki, o, məktubunda Dağlıq Qarabağ münaqişəsinin daha da gərginləşməsindən narahatlığını ifadə edərək, Böyük Britaniya hökumətini problemin həlli yollarının axtarılmasında dünya birliyi ilə əməkdaşlığa çağırıb.

Məktubda deyilir: "Mətbuatda tez-tez "mübahisəli" kimi təsvir edilən həmin ərazi Azərbaycanın ayrılmaz hissəsidir. 1988-ci ilə qədər ermənilərin azərbaycanlılarla birlikdə yaşadığı və Azərbaycanın ərazisi olan Dağlıq Qarabağ uğrunda iki həftə davam edən şiddətli döyüşlərdən sonra atəşkəs razılaşması əldə olunub. Həmin vaxtda yerli erməni əhalisi erməni millətçilərinin təhriki ilə Dağlıq Qarabağın Ermənistana birləşməsi tələblərini səsləndirməyə başlayıb. 1991-ci ildə Dağlıq Qarabağ erməniləri qanunsuz olaraq "müstəqil" qondarma "Dağlıq Qarabağ respublikası"nın yaradılmasına razı oldular. Nəticədə yüz minlərlə azərbaycanlı vətəndaşın qaçqın və məcburi köçkün halına düşməsinə səbəb olan ağır silahlı toqquşmalar baş verdi".

Qeyd olunur ki, Ermənistan Dağlıq Qarabağdakı erməniləri dəstəkləsə də, o, bu ərazini Azərbaycanın ərazisi kimi tanıyır. BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Dağlıq Qarabağdan və onun ətrafındakı işğal olunmuş ərazilərdən dərhal çıxarılmasını tələb edən dörd qətnaməsinə baxmayaraq, 26 ildir ki, vəziyyət demək olar dəyişməz qalıb. "Oktyabrın 10-da Azərbaycan ilə Ermənistan arasında hər iki tərəfin əsir və cəsədlərinin mübadiləsinə icazə verilməsi üçün əldə edilmiş humanitar atəşkəs razılaşmasının pozulması, oktyabrın 11-də Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə və döyüş zonasından tamamilə kənarda yerləşən digər şəhərlərinin Ermənistan tərəfindən raket hücumuna məruz qalması xəbərləri məni çox kədərləndirir və narahat edir. Nəticədə uşaqlar da daxil olmaqla, mülki şəxslər qətlə yetirilib və yaralanıb", - deyə məktubda vurğulanır.

Etnik erməni azlıqların hüquqlarını qorumaqla yanaşı, Azərbaycanın ərazi bütövlüyünü tanıyan qətnamənin qəbul edilməsinin vaxtının çatdığını bildirən Lord Malkolm Brus yazıb: "Beynəlxalq səviyyədə əldə olunmuş atəşkəs yalnız münaqişənin uzadılmasına xidmət edir. Azərbaycanda işləyən və azərbaycanlılarla birgə iş təcrübəsi olan biri kimi əminliklə deyə bilərəm ki, Azərbaycan çox dinc və tolerant insanları olan dünyəvi dövlətdir. Azərbaycanda ləzgilər, talışlar, kürdlər, ruslar və yəhudilər də daxil olmaqla, bir çox etnik azlıqlar birgə yaşayırlar. Həqiqətən də, bu ölkədəki yəhudilər əsrlər boyu Azərbaycan müsəlmanları ilə heç bir münaqişə və ya narahatlıq ilə üzləşməyiblər. Azərbaycan böyük bir yəhudi icmasının məskunlaşdığı nadir müsəlman ölkəsidir".

"Mən BMT-nin qəbul etdiyi qətnamələrə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünün bərpası və davamlı atəşkəsə, sülhə nail olmaq məqsədilə Böyük Britaniya hökumətini öz nüfuzundan istifadə etməyə çağırıram", - deyə Lord Malkolm Brus məktubunda vurğulayıb.

❖ ❖ ❖



İtaliyanın "Yaşasın İtaliya" partiyasının üzvü, senator Mauro Mario Marino kütləvi informasiya vasitələrinə Ermənistan hərbi qüvvələrinin humanitar atəşkəsi pozaraq Gəncə şəhərini və oradakı mülki əhalini raket hücumuna məruz qoymasını pisləyən açıqlama verib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, italyan senator bildirib ki, Azərbaycan hərbi hücuma məruz qalmış ölkə olmasına baxmayaraq, atəşkəslə bağlı beynəlxalq ictimaiyyətin çağırışlarını qəbul edib. Lakin Ermənistan tərəfindən atəşkəsin pozulması bu işğalçı ölkənin bir daha beynəlxalq hüquqa hörmət etmədiyini sübuta yetirir.

Senator vurğulayıb ki, İtaliya hökuməti Ermənistanın bu müharibə cinayətlərini qəti şəkildə pisləməli və ondan mülki əhalini atəşə tutmağı dayandırmasını, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, öz qoşunlarını Azərbaycanın işğal altındakı ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarmasını tələb etməlidir.

İndoneziya Parlamentinin Nümayəndələr Palatasının Parlamentlərarası əməkdaşlıq komitəsinin sədri Fadli Zon da bu günlərdə Azərbaycana dəstək bəyanatı ilə çıxış edib. Bəyanatda Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə olunur, Ermənistan silahlı qüvvələrinin törətdiyi hərbi təcavüz və təxribatlar pislənilir.

❖ ❖ ❖



Macarıstan parlamentinin Sədri Laslo Köver Milli Məclisin Sədri Sahibə Qafarovaya cavab məktubu ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, məktubda Laslo Köver bu il sentyabrın 27-dən başlayaraq cəbhə xəttində baş verənlər haqqında ətraflı məlumatlara görə həmkarına təşəkkürünü bildirib və mülki insanların ölümü ilə nəticələnən qarşıdurmanın beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq doğurduğunu qeyd edib.

Laslo Köver Macarıstan hökumətinin problemin beynəlxalq hüququn ümumi prinsiplərinə uyğun həllini, həmçinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəkləməkdə davam edəcəyini vurğulayıb.

Xatırladaq ki, Milli Məclisin Sədri Sahibə Qafarova bir sıra ölkələrin spikerlərinə və beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə Ermənistanın sentyabrın 27-dən etibarən cəbhə xəttində törətdiyi təxribatlar haqqında məktublar ünvanlayıb. Məktublarda Ermənistan silahlı qüvvələrinin hərbi təxribatları, Azərbaycanın şəhər və rayonlarının artilleriya və raketlərdən atəşə tutulması, işğalçı ölkə tərəfindən mülki vətəndaşların və mülki obyektlərin hədəfə alınması haqqında geniş məlumat verilib, həmçinin Ermənistanın törətdiyi bu müharibə cinayətlərinə, vandallıq aktlarına və işğalçılıq siyasətinə beynəlxalq ictimaiyyət tərəfindən adekvat münasibətin bildirilməsinə çağırış edilib.

❖ ❖ ❖



"Azərbaycan öz haqlı mövqeyi uğrunda mübarizə aparır. Ukrayna Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bundan sonra da bu mövqeni nümayiş etdirəcək".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ukraynanın Milli Strateji Araşdırmalar İnstitutunun sədri Aleksandr Litvinenko söyləyib.

Ukrayna ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyini deyən A.Litvinenko bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək məqsədilə hərbi əməliyyatlar keçirir.

"Azərbaycanın beynəlxalq hüquq çərçivəsində ərazi bütövlüyünü təmin edəcəyinə inanıram", - deyən Aleksandr Litvinenko qeyd edib ki, Ukrayna da ərazi bütövlüyü problemi ilə üzləşib. Ölkələrimiz bu sahədə təcrübə mübadilələrini gücləndirməlidir.

❖ ❖ ❖



"Azərbaycanın yaşayış məntəqələrinə raket zərbələri endirilməsi Ermənistan rəhbərliyinin siyasi və hərbi acizliyinə dəlalət edir. Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatının uğurlu olması açıq-aşkar görünür". Ukraynalı alim, tarix elmləri namizədi Olek Kupçik bu sözləri AZƏRTAC-a müsahibəsində söyləyib.

Onun sözlərinə görə, Azərbaycan hərbçiləri işğal altında olan əraziləri "addım-addım" azad edir. O.Kupçik deyib: "Ermənistanın Rusiyanı döyüş əməliyyatlarına cəlb etmək cəhdləri baş tutmadı. Azərbaycan qoşunlarının irəliləmə dinamikası belədir ki, Dağlıq Qarabağın özünün də azad ediləcəyi gün uzaqda deyil".

Ukraynalı alimin fikrincə, indiki vəziyyətdə Azərbaycan rəhbərliyi Dağlıq Qarabağ regionunda azərbaycanlıların və ermənilərin dinc yanaşı yaşaması barədə çox müsbət siyasi mövqe nümayiş etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dağlıq Qarabağda yaşayan ermənilərə müraciətində inandırıcı şəkildə deyib: "Onlar bilsinlər ki, Azərbaycan xalqı onların düşməni deyil. Sadəcə olaraq Azərbaycan xalqı öz dədə-baba torpaqlarında yaşamaq istəyir".

❖ ❖ ❖



"Azərbaycan Ordusu işğal edilmiş ərazilərinin azad edilməsi üzrə əks-hücum əməliyyatlarında XXI əsrdə müharibə aparılması nümunəsi göstərdi". AZƏRTAC xəbər verir ki, tanınmış rusiyalı hərbi ekspert, "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko bu fikri "Region plyus" jurnalına müsahibəsində söyləyib.

"Mən əminliklə deyə bilərəm ki, müasir silahlardan - pilotsuz uçuş aparatlarından, hava patrulu xidməti üçün silah-sursatdan, hədəfləri dəf etmək üçün yüksəkdəqiqlikli vasitələrdən istifadə olunmaqla aparılan döyüş əməliyyatlarının miqyası dünyanın aparıcı baş qərargahları tərəfindən çox diqqətlə öyrənilir", - deyən ekspertin fikrincə, "dünya hələ belə bir vəziyyətlə rastlaşmamışdı ki, bir ordu digər ordu ilə vuruşarkən bu sayda yüksəkdəqiqlikli silahlardan istifadə edilsin. Zərbə uçuş aparatlarından istifadənin miqyasına və intensivliyinə görə bu, dünya tarixində ilk belə hadisədir. Nə ABŞ, nə Rusiya, nə İsrail, nə də hansısa başqa ölkə bu miqyasda pilotsuz zərbə uçuş aparatlarından istifadə etməyib. Pilotsuz uçuş aparatları bu cür münaqişələrdə özünün mübahisəsiz üstünlüyünü sübut edib. Buraya Azərbaycan Ordusu tərəfindən düşmənin canlı qüvvələrinin və hava hücumundan müdafiə vasitələrinin məhv edilməsi və daha sonra zirehli texnikanın, yüksək dərəcədə müdafiə olunan hədəflərin və canlı qüvvənin məhv edilməsi üçün pilotsuz uçuş aparatlarından geniş istifadə taktikasını da əlavə etmək lazımdır".

O qeyd edib ki, yüksəkdəqiqlikli silahdan istifadə mülki əhali arasında itkilərin sayını azaldır. "Bu nöqteyi-nəzərdən Azərbaycan həm hərbi uğur qazanıb, həm də Dağlıq Qarabağda yaşayan mülki vətəndaşların həyatını xilas edib. Fikrimcə, döyüş əməliyyatlarının aparılması taktikası sahəsində əhəmiyyətli dəyişikliklər olacaq. Sözsüz ki, Azərbaycan Ordusunun təcrübəsi ətraflı şəkildə öyrəniləcək", - deyə İqor Korotçenko bildirib.

İqor Korotçenkonun geniş müsahibəsi ilə "Region plyus" jurnalının Ermənistan-Azərbaycan cəbhə xəttindəki vəziyyətə həsr edilmiş xüsusi nömrəsində tanış olmaq mümkündür.

❖ ❖ ❖



"Azərbaycanın mülki əhalisini hədəfə alan terrorçu Ermənistandır. Bu dövlət dinc əhalini hədəfə almağı özünün müharibə strategiyası kimi qəbul edir. Dinc azərbaycanlı əhalini, günahsız insanları öldürmək insanlıq əleyhinə cinayət, barbarlıqdır. Azərbaycan heç vaxt Ermənistanın dinc əhalisinə zərər verən hərəkətlər etməyib".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı Sinan Oğan ifadə edib.

Müasir dünyanın gözü qarşısında dinc azərbaycanlıların Ermənistanın hücumları nəticəsində həlak olduqlarını xatırladan sabiq millət vəkili deyib: "Ermənistanın mülki əhalini hədəf alması, xüsusilə də Tərtərdə dəfn mərasimində iştirak edən günahsız insanları artilleriya və top atəşinə tutması erməni faşizminin çirkin üzüdür. Bu hadisə və bir neçə gün əvvəl Gəncəyə ballistik raketin atılması bir daha göstərdi ki, işğal faktı aradan qalxmayanadək Ermənistan hücumlarını davam etdirəcək. Azərbaycan humanitar atəşkəs çağırışlarına müsbət yanaşdı. Lakin yenə də Ermənistan xəyanət yolunu tutdu. İndi söz dünya ictimaiyyətinin, beynəlxalq təşkilatlarındır. Haradadır demokratiyadan, insan haqlarından danışanlar? Gəncə, Naftalan, Tərtər və başqa şəhərlərdə ermənilərin öldürdüyü dinc azərbaycanlıların haqqını kim qorumalıdır? Kim bu cinayətlərə dur deməlidir? Xüsusilə Gəncəyə ballistik raket atılmasından sonra dünya ictimaiyyəti bir daha gördü ki, Ermənistan terror aktı törədir. Həmçinin Ermənistan ordusu mülki əhalinin arxasında gizlənərək Azərbaycanı atəşə tutur. Bütün bu hallar bu dövlətin siyasi-hərbi rəhbərliyinin riyakarlığı və cinayətkar xislətidir".

Terrorçu dövlət olan Ermənistanın qanunsuz fəaliyyətinə son qoyulmasının yeganə yolunun işğalçı qüvvələrin Dağlıq Qarabağdan çəkilməsində gördüyünü vurğulayan Sinan Oğan deyib ki, ərazi bütövlüyünü bərpa etmək beynəlxalq hüququn Azərbaycana verdiyi haqdır. Azərbaycan xalqı və dövləti mütəşəkkil şəkildə birləşərək torpaqlarını geri qaytarır.

❖ ❖ ❖



"Ermənistanın Azərbaycanın dinc əhalisinə qarşı hücumları vandalizm aktıdır. Əslində, təcavüzkar tərəfin humanitar atəşkəs razılaşmasına əməl etməyəcəyi əvvəldən gözlənilirdi. Çünki ortada işğal və işğalçının öz xislətindən geri çəkilməmək istəyi var. Dağlıq Qarabağ probleminin müasir dövrdəki tarixinə nəzər salsaq görərik ki, Ermənistan heç bir halda səmimi olmayıb və bütün hallarda öz təcavüzkar niyyətinə çatmaq üçün şəraitdən bəhrələnməyə çalışıb".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ankara Böhran və Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri, professor Mehmed Seyfəddin Erol ifadə edib.

Münaqişə başlayandan bəri Ermənistan tərəfindən Azərbaycanda dinc əhalinin hədəfə alınması, evlərin yandırılması, kəndlərin viran qoyulması siyasətinin həyata keçirildiyini diqqətə çatdıran professor Mehmed Seyfəddin Erol deyib: "Baş verən bütün bu hadisələrin əsasında Ermənistan rəhbərliyinin və erməni lobbisinin məsuliyyətsiz, təhlükəli niyyətləri dayanır. Saxta "böyük Ermənistan" iddiası erməniləri bu cinayətlərə sövq edir. Sentyabrın 27-nə qədər olduğu kimi, son hərbi gərginlik başlayandan bəri də Ermənistanın Azərbaycanın mülki əhalisini hədəfə alması düşmənin Gəncəyə ballistik raket atması ilə pik həddə çatdı. Tərtərdə dəfn mərasimində iştirak edən gözüyaşlı insanlara artilleriya atəşi açıb dərdlərinin üstünə dərd əlavə etmək müasir dünyanın gözü qarşısında törədilən daha bir müharibə cinayətidir. Beynəlxalq hüquq gec-tez Ermənistanın bu vandalizm hərəkətlərinə ədalətli qiymət verəcəkdir".

Ermənistanın əsas məqsədinin bu hücumlarla münaqişəyə kənar qüvvələri cəlb etmək olduğunu diqqətə çatdıran professor Mehmed Seyfəddin Erol vurğulayıb ki, əslində, təcavüzkar tərəfin bu mənfur hərəkətləri 1914-1915-ci il hadisələrinə də işıq salır. İndi hamının gözü qarşısında baş verən erməni cinayətləri kimin kim olduğunu aydın göstərir. Sülhsevər dünya ictimaiyyəti Ermənistanın bu yaramaz əməllərinə göz yuma bilməz. Həqiqətin söylənilməsi dünyada ədalətin zəfər çalması deməkdir.

❖ ❖ ❖



TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatlarını kəskin şəkildə qınayıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclis tərəfindən beynəlxalq təşkilatlara və milli parlamentlərə ünvanlanan müraciətlərə cavab olaraq TÜRKPA-nın Baş katibi Ermənistan silahlı qüvvələrinin təxribatları, işğalçı ölkənin Azərbaycanın Gəncə şəhərini və digər ərazilərini ağır artilleriya və raket atəşinə tutmasını pisləyib.

Baş katib Altınbek Mamayusupovun göndərdiyi rəsmi məktubda Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı təxribatları, yaşayış məntəqələrini atəşə tutması və hərbi güc tətbiq etməsi bir daha kəskin şəkildə qınanıb. Baş katib bu hücum nəticəsində dinc vətəndaşların həlak olması ilə əlaqədar Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib, xəsarət alanların tezliklə sağalmasını arzulayıb.

❖ ❖ ❖



"1992-ci ildə Xocalı faciəsini törədən Ermənistan bu gün də əsasən dinc sakinləri hədəfə alır. Azərbaycanın Gəncə, Mingəçevir şəhərlərinin və digər rayonların raket hücumlarına məruz qalması ermənilərin çirkin niyyətlərindən xəbər verir. Beynəlxalq ictimaiyyət Ermənistanın bu təxribatlarını qəti şəkildə pisləməlidir".

Bu fikirləri AZƏRTAC-a məxsusi açıqlamasında ukraynalı hərbçi, ehtiyatda olan polkovnik-leytenant Aleksey Şvaryov söyləyib.

Ukraynalı hərbçi bildirib ki, Ermənistan silahlı qüvvələri birmənalı olaraq Azərbaycan ərazilərini tərk etməlidir.

"Azərbaycanın Silahlı Qüvvələri öz ərazi bütövlüyünü bərpa etmək üçün istənilən gücə malikdir. Azərbaycan Ordusunun bu məqsədlə uğurlu hərbi əməliyyatlar keçirməsi bunun daha bir əyani sübutudur", - deyə Aleksey Şvaryov əlavə edib.

❖ ❖ ❖




Küveyt Dövlətinin Elektron Media Birliyinin rəhbəri, bu ölkənin "Dasmannews" onlayn xəbərlər portalının idarə heyətinin sədri Feysal Xəlifə əl-Savvağ Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü və mülki şəxslərin hədəfə alınmasını pisləyən bəyanat yayıb.

Azərbaycanın Küveytdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda Feysal Xəlifə əl-Savvağ Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü və mülki şəxslərin hədəfə alınmasını pisləyərək, beynəlxalq ictimaiyyəti qətiyyətli, sərt mövqe nümayiş etdirməyə və həmin cinayətlərə görə işğalçını cəzalandırmağa çağırıb.

Əl-Savvağ bildirib ki, Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlər beynəlxalq hüququn və insan haqlarının açıq şəkildə pozulmasıdır.

Elektron Media Birliyinin rəhbəri beynəlxalq ictimaiyyətin susmasının, həmin təxribatları dəstəkləyən ölkələrin mövqelərinin qəbuledilməz olduğunu bildirib, mövcud vəziyyətin sözün əsl mənasında faciə olduğunu vurğulayıb.

Qeyd edilib ki, beynəlxalq ictimaiyyət və beynəlxalq hüquq Azərbaycanın hüquqlarının müdafiəsi üçün əsl çağırışla üz-üzədir. Hazırda Ermənistan tərəfindən törədilən təxribatlar müharibə cinayəti və soyqırımıdır.

Əl-Savvağ hadisələrin gərginləşəcəyindən və çoxsaylı tərəflərin müdaxiləsi ilə problemin regional və beynəlxalq qarşıdurmaya çevrilməsindən ehtiyatlanmağa çağırış edərək, baş verənləri dayandırmaq üçün Birləşmiş Millətlər Təşkilatından və digər aidiyyəti qurumlardan dərhal dialoqun başladılmasını, mülki şəxslərin hüquqlarının qorunmasını tələb edib.

❖ ❖ ❖



Misirin "Aldiplomasy" nəşri AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyevanın işğalçı Ermənistanla ərazilərinin azad edilməsi uğrunda mübarizə aparan Azərbaycanın haqlı mövqeyi barədə məqaləsini yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Dağlıq Qarabağın qədim Azərbaycan torpağı olduğu, XX əsrdə ermənilərin etnik təmizləmə siyasəti çərçivəsində azərbaycanlılara qarşı törətdikləri qətliamlar, Xocalı soyqırımı, terrorçu Ermənistan dövlətinin də əzəli Azərbaycan ərazilərində qurulduğu və yerli azərbaycanlı əhalini öz doğma yurdundan didərgin saldığı konkret tarixi faktlarla diqqətə çatdırılıb.

Qeyd edilib ki, torpaqlarımızın 20 faizini işğal edən və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayan Ermənistanın sentyabrın 27-də törətdiyi son hərbi təxribat Azərbaycanın səbrini daşıran son damla olub. Əks-hücuma keçən rəşadətli Azərbaycan Ordusu ərazilərimizi düşmən tapdağından azad edir.

❖ ❖ ❖



Azərbaycanın Fransadakı səfirliyinin və UNESKO yanında daimi nümayəndəliyinin təşkilatçılığı ilə ölkəmizin Parisdəki səfirliyinin binası qarşısında Ermənistan tərəfindən Gəncədə çoxmərtəbəli yaşayış binasına raket hücumu nəticəsində həlak olan mülki şəxslərin xatirəsinin anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, erməni vandalizmini dünyaya tanıtmaq məqsədilə səfirliyin binası qarşısında qərənfillər və şamlar düzülmüş stolun üzərində uşaq oyuncaqları, Ermənistanın raket hücumu nəticəsində xəsarət alan məsum körpələrin şəkilləri düzülüb.

Anım mərasimində Türkiyənin Fransadakı səfiri İsmail Hakkı Musa və bu ölkədəki türk diplomatlar da iştirak ediblər.

Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev Ermənistanın mülki əhalini və infrastrukturu hədəfə aldığını, ölkəmizin ikinci böyük şəhəri olan Gəncənin mərkəzində çoxmərtəbəli yaşayış binalarına raket hücumu etdiyini mərasim iştirakçılarının diqqətinə çatdırıb. Vurğulayıb ki, raket hücumu nəticəsində dinc sakinlər həlak olub, aralarında körpə və uşaqlar da olmaqla, çox sayda insan yaralanıb. Diplomat qeyd edib ki, Ermənistan rəhbərliyi mülki əhalini hədəfə almaqla öz riyakarlığını bir daha aydın göstərdi.

Parisdə yaşayan 8 yaşlı Teyyubə İsmayıl sevimli oyuncaqlarını Gəncədə xəsarət alan uşaqlara hədiyyə üçün masanın üzərinə qoyub.

Gün ərzində Fransadakı diasporumuzun üzvləri, eləcə də Azərbaycanı sevən fransızlar Gəncə qurbanlarının xatirəsinə ehtiram olaraq anım guşəsinə gül-çiçək dəstələri düzüblər.

❖ ❖ ❖



Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdəki dini məbədlərimizi və mədəniyyət abidələrimizi atəşə tutması ilə bağlı Azərbaycan Respublikasının AFR-dəki səfirliyi tərəfindən mətbuata bəyanat hazırlanıb və onun Almaniyanın kütləvi informasiya vasitələri arasında yayılması təmin edilib. AZƏRTAC bəyanatın xülasəsini təqdim edir.

"Azərbaycanın silahlı qüvvələri tərəfindən Şuşa şəhərindəki kilsənin guya atəşə tutulması ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatı ittiham və provokasiyadır. Belə ki, Ermənistanın məqsədi beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycandakı mülki şəxslərin, infrastrukturun və mədəni abidələrin qəsdən atəşə tutulmasından yayındırmaqdan, eləcə də işğal olunmuş ərazilərdəki Azərbaycanın mədəni irsinin silinməsindən ibarətdir. Bir neçə gün öncə Azərbaycanın ikinci böyük şəhəri Gəncə raket atəşinə tutulub. Bütün bunlar açıq şəkildə Ermənistanın vandalizm siyasətini təsdiq edir.

Sentyabrın 29-da Füzuli rayonundakı Şeyx Babı Yaqub türbəsinə Ermənistan silahlı qüvvələri tərəfindən xələl yetirilib. Ermənilər Azərbaycanın işğal olunmuş ərazilərindəki məscidlərdə heyvanlar saxlayır və bununla da dini məbədləri təhqir edirlər.

Mədəni müxtəliflik nümunəsi olan Azərbaycan dünyada dini cəhətdən ən tolerant ölkələrdən biri hesab olunur. Mədəni genosid törədən, işğal olunmuş ərazilərdə məscidləri dağıdan və dini məbədləri təhqir edən Ermənistandan fərqli olaraq Azərbaycan tolerantlıq ənənələrinin qorunmasına mühüm əhəmiyyət verir. Bakı şəhərinin mərkəzində yerləşən, tamamilə bərpa olunmuş və dövlət tərəfindən qorunan erməni kilsəsi bu siyasətin bariz nümunəsidir. Azərbaycan, Vatikan daxil olmaqla, müxtəlif ölkələrdə xristian dini məbədlərinin bərpası məqsədilə bir sıra layihələr həyata keçirir".

❖ ❖ ❖




İtaliyada yaşayan həmvətənlərimiz bu ölkənin parlamentinin Deputatlar Palatasının qarşısında "Ermənistanın təcavüzünü dayandırın!" şüarı ilə razılaşdırılmış aksiya keçiriblər. Aksiyada ilk öncə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

AZƏRTAC xəbər verir ki, aksiyada Roma Sapienza Universitetinin professoru, həmin universitetdə azərbaycanşünaslıq fəaliyyətinin rəhbəri Daniel Pommier Vinçelli, İtaliya-Azərbaycan Ticarət Palatasının prezidenti Manuela Traldi, Neapol-Bakı Assosiasiyasının rəhbəri Cüzeppe Kanilia, İtaliyadakı Azərbaycan icmasının nümayəndələri Fərid Abbasov, Aynur Əliyeva, Turan Sadiqi, Məryəm Mehdiyeva, Lamiyə Arikova çıxış ediblər.

Onlar çıxışlarında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün 30 ilə yaxın davam etməsi, bu təcavüz nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonun Ermənistan tərəfindən işğal edildiyi, işğal olunmuş ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirildiyi, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün düşdüyünü, Ermənistanın çoxsaylı müharibə cinayətləri, Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı soyqırımı törətdiyi, beynəlxalq hüquqa və beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş çoxsaylı sənədlərə, o cümlədən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymadığını bildiriblər.

Çıxış edənlər Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən etibarən Azərbaycana qarşı növbəti hərbi təcavüzə başladığı, bunun nəticəsində istər təmas xəttinə yaxın, istərsə də ondan uzaqda olan şəhər və qəsəbələrimizi raket hücumlarına məruz qoyduğu, mülki obyektlərə və mülki şəxslərə ziyan vurduğu, çoxsaylı dinc insanların qətlə yetirilməsi və yaralanması barədə məlumat veriblər. Həmçinin Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində uğurlarından ciddi narahat olan Ermənistanın və onun təsiri altında olan çevrələrin Azərbaycana qarşı hibrid müharibəsi apardığı, ölkəmiz, münaqişənin mahiyyəti və hərbi əməliyyatlar barədə həqiqətə uyğun olmayan məlumatlar yaydığını bildiriblər. Aksiya iştirakçıları Azərbaycanın ədalət tələb etdiyini və bunun üçün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə qeyd olunduğu kimi, Azərbaycan torpaqlarından Ermənistanın işğalçı hərbi qüvvələrinin çıxarılmasının və azərbaycanlı məcburi köçkünlərin öz yurdlarına qayıtmasının vacibliyini vurğulayıb və yalnız bununla bölgəyə sülh və sabitliyin gələcəyini deyiblər.

Aksiyada habelə "Qarabağ Azərbaycandır!", "Şuşa Azərbaycandır!", "Xankəndi Azərbaycandır!", "Xocalıya ədalət!", "Erməni təcavüzünə son!", "Erməni işğalına son!", "Ermənistan əsgərləri Azərbaycan torpaqlarında nə edir?", "BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilmir", "Təcavüzkarla təcavüzə məruz qalan arasında fərq qoyulmalıdır", "Beynəlxalq ictimaiyyət Ermənistanın təcavüzünü pisləməlidir", "Gəncə, güclü ol!", "Tərtər, güclü ol!" və digər şüarlar səsləndirilib.

Aksiyanı izləyən və həmin ərazidən keçən şəxslərə xüsusi olaraq hazırlanmış məlumat vərəqələri, müvafiq xəritələr və təbliğat materialları paylanılıb.

❖ ❖ ❖



"Ermənistana humanitar yardım adı altında silahlar daşınır, bu isə beynəlxalq konvensiyalara ziddir". AZƏRTAC xəbər verir ki, bu fikri Ukraynanın Milli Strateji Araşdırmalar İnstitutunun sədri Aleksandr Litvinenko ilə görüşündə Azərbaycanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Elmira Axundova söyləyib.

Səfir bildirib ki, hələ də Ermənistan tərəfindən humanitar yardım adı altında mülki aviasiya vasitəsilə Ermənistan dövlətinə aid təyyarələrlə bu ölkəyə silahların daşınması həyata keçirilir.

"Bu məqsədlə Ermənistan hökumətinin qeydiyyatında olan təyyarələrdən və xarici ölkələrə səfər adı altında rəsmi səfərlərdən istifadə edilir. Həmçinin Ermənistan Fövqəladə Hallar Nazirliyinin guya Ermənistana humanitar yardım gətirməsi adı altında bu kimi silah qaçaqmalçılığı həyata keçirilir. Burada xüsusilə raket sistemlərinin və digər silahların daşınması həyata keçirilir", - deyə səfir əlavə edib.

Diplomat bildirib ki, Azərbaycan öz ərazilərini işğaldan azad etmək üçün mübarizə aparır. Lakin Ermənistan Azərbaycanın cəbhə bölgəsindən uzaqda yerləşən böyük şəhərlərini raket atəşinə tutmaqla mülki şəxsləri hədəfə alır.

Aleksandr Litvinenko öz növbəsində Azərbaycanda baş verən prosesləri yaxından izlədiklərini bildirib. Qeyd edib ki, münaqişələrin həlli məsələsində Azərbaycan və Ukraynanın strateji araşdırmalar institutlarının birgə təcrübə mübadiləsi aparması olduqca vacibdir.

Görüşdə Azərbaycanın Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə Ukraynanın Milli Strateji Araşdırmalar İnstitutu arasında əməkdaşlığa dair memorandumun imzalanması məsələsi müzakirə edilib və buna dair layihə təqdim olunub.

Görüş çərçivəsində səfirlik tərəfindən institutun kitabxanasına Dağlıq Qarabağ münaqişəsinə dair Ukrayna və rus dillərində kitablar təqdim edilib.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




İspaniyanın böyük oxucu kütləsinə malik "EL MUNDO" qəzetində Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müsahibəsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, müsahibədə Azərbaycan Prezidentinin köməkçisi cəbhə bölgəsində yaranmış hazırkı vəziyyətdən, Ermənistanın ölkəmizə qarşı davam edən hərbi təcavüzündən ətraflı bəhs edib. Diqqətə çatdırılıb ki, Ermənistan əldə olunmuş humanitar atəşkəs razılaşmasının tələblərini kobud şəkildə pozaraq yalnız Gəncəni deyil, həm də Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərini, həmçinin digər mülki əraziləri də ağır artilleriya və raket atəşinə tutub. Hərbi əməliyyatlar zonasından xeyli kənarda yerləşən Gəncə şəhərinin Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutulması nəticəsində 10 dinc sakin həyatını itirib, 34 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ermənistan tərəfi Ermənistan-Azərbaycan sərhədi, habelə Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunda "SCUD" raket kompleksləri yerləşdirib. Ermənistan tərəfi bu raketlərlə dəfələrlə dinc əhali və mülki obyektləri atəşə tutub.

"EL MUNDO" nəşrinin jurnalisti Xavyer Espinozanın guya muzdluların Azərbaycan tərəfindən hərbi əməliyyatlara cəlb olunması ilə əlaqədar şayiələrlə bağlı sualını cavablandıran Hikmət Hacıyev bildirib ki, bu, Ermənistanın Azərbaycana qarşı çirkin təbliğatıdır. Bu gün yüksək döyüş qabiliyyətinə və ən müasir silahlara malik Azərbaycan Ordusunun muzdlu döyüşçülərə ehtiyacı yoxdur. Uzun illərdir ki, erməni tərəfi Suriya və Livan erməniləri adı altında Azərbaycana, onun Silahlı Qüvvələrinə qarşı muzdlular kimi istifadə edir.

Ermənistanın baş naziri Nikol Paşinyanın danışıqları pozmaq üçün hər vasitəyə əl atdığını diqqətə çatdıran Hikmət Hacıyev Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinin güc yolu ilə dəyişdirilməsinin yolverilməz olduğunu, BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair 4 qətnaməsinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinin vacibliyini vurğulayıb, Dağlıq Qarabağa Azərbaycanın sərhədləri daxilində muxtariyyət statusunun verilməsinin mümkünlüyünü qeyd edib.

❖ ❖ ❖




"Əl-Cəzirə" telekanalının saytında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədəki mülki obyektlərə və insanlara, o cümlədən uşaqlara qarşı törətdiyi terror aktı ilə bağlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə oktyabrın 11-i gecə saat 02:00 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı daha bir terror aktının törədildiyi, hərbi əməliyyatlar zonasından xeyli kənarda yerləşən Gəncə şəhərinin Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutulduğu və dinc sakinlərin, o cümlədən uşaqların qətlə yetirildiyi, onlarla insanın yaralandığı, bir neçə yaşayış binasının tamamilə dağıldığı bildirilir.

Müəllif Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin fikirlərinə istinadla bildirir ki, Ermənistan əldə olunmuş humanitar atəşkəs razılaşmasının tələblərini kobud şəkildə pozaraq yalnız Gəncəni deyil, həm də Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərini, həmçinin digər mülki əraziləri də ağır artilleriya və raket atəşinə tutub.

"Ermənistanın bu hücumları həm Rusiya Federasiyası, həm də dünya birliyinə qarşı hörmətsizlik kimi qiymətləndirilməlidir. Bu vandalizm və soyqırımı aktı Rusiya Federasiyasının birbaşa vasitəçiliyi ilə əldə olunmuş humanitar atəşkəs rejiminə baxmayaraq, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilib. Dünya birliyi bu hadisələrə lazımi diqqət yetirməlidir," - deyə Prezidentin köməkçisinin fikirləri diqqətə çatdırılır.

❖ ❖ ❖




Avropanın ictimai-siyasi dairələrində geniş oxucu auditoriyasına malik "Euractiv" portalında Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Ermənistanın Azərbaycanın mülki şəxslərinə və həyati əhəmiyyətli infrastrukturlarına qarşı hücumları diqqətdən kənar qalmamalıdır" adlı məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev məqalədə Ermənistanın 30 ilə yaxındır Azərbaycana qarşı davam edən hərbi təcavüzü, Ermənistan silahlı qüvvələrinin iyul ayında baş vermiş Tovuz hadisələrindən üç ay keçməmiş - sentyabrın 27-dən başlayaraq Azərbaycana qarşı törətdikləri növbəti təxribatlar, eləcə də Azərbaycan Ordusunun Ermənistanın bu təxribatlarını dəf etmək və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları, işğal edilmiş bəzi torpaqların bu əməliyyatlar nəticəsində azad edilməsi barədə məlumat verib.

Prezidentin köməkçisi yazır ki, Ermənistanın Azərbaycanın mülki yaşayış ərazilərinə və həyati əhəmiyyətli infrastrukturuna qarşı hücumları humanitar fəlakətə gətirib çıxara bilər.

Münaqişənin tarixi barədə məlumat verən Hikmət Hacıyev qeyd edir ki, bu problem Ermənistanın 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ bölgəsindən və Azərbaycanın işğal olunmuş digər yeddi rayonundan dərhal, tam və qeyd-şərtsiz çıxarılması ilə bağlı qəbul etdiyi 4 (822, 853, 874 və 884 saylı) qətnaməyə məhəl qoymaması ucbatından hələ də həll olunmamış qalır. Bu da münaqişəni yenidən alovlandırıb.

Prezidentin köməkçisi oxucuların diqqətinə çatdırır ki, Ermənistan tərəfindən işğal olunmuş ərazilərin bir hissəsi Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 27-dən bəri həyata keçirdiyi əks-hücum əməliyyatları zamanı azad edilib. Azərbaycan Silahlı Qüvvələri döyüşlərin ilk günlərindən etibarən beynəlxalq humanitar hüquqa və 1949-cu il Cenevrə Konvensiyasının müddəalarına uyğun olaraq mülki hədəfləri deyil, yalnız legitim hərbi obyektləri və hərbçiləri hədəf seçir. Azərbaycanın Silahlı Qüvvələrinin döyüş meydanında qazandığı inamlı qələbə Ermənistanın hərbi-siyasi rəhbərliyinin nizamsızlığa uğramasına səbəb oldu və Ermənistan tərəfi qəsdən əhalinin sıx yaşadığı Azərbaycan şəhərlərinə və döyüş zonasından tamamilə kənarda yerləşən kəndlərinə hücumlar etməyə başlayıb. Ermənistan oktyabrın 11-də cəbhə bölgəsindən xeyli aralıda yerləşən, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə yaşayış ərazisinə ballistik "SCUD" raketini atıb. Raketin hədəfə aldığı ərazinin yaxınlığında bu hücumu əsaslandıra biləcək hər hansı hərbi obyektin olmaması həmin hücumu hərbi cinayət kimi xarakterizə etməyə əsas verir. Gecə yarısında həyata keçirilən bu dəhşətli hücum nəticəsində yaşayış binası tamamilə dağılıb, 10 mülki şəxs həyatını itirib və 34 nəfər yaralanıb. Bu hücumun ən acınacaqlı nəticələrindən biri də hər iki valideynini itirən iki yaşındakı uşaqla bağlıdır. Oktyabrın 14-nə qədər olan məlumata görə, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 43 nəfər həlak olub, 214 nəfər isə xəsarət alıb. Həmçinin ümumilikdə 1571 ev və çoxmənzilli yaşayış binası, eləcə də 277 mülki obyekt yararsız vəziyyətə düşüb.

Azərbaycanın mülki yaşayış məntəqələrinə qarşı hücumlar etməklə Ermənistan mülki əhali arasında qorxu yaratmaq məqsədi güdür. Bu, həm də Ermənistanın münaqişənin coğrafiyasını genişləndirmək və Azərbaycanı sülhə məcburetmə əməliyyatından yayındırmaq üçün edilmiş bir cəhddir. Ermənistan təkcə mülki əhalini deyil, həmçinin Azərbaycanın və onun beynəlxalq tərəfdaşları, eləcə də qitənin enerji təhlükəsizliyi üçün siyasi və iqtisadi əhəmiyyətə malik olan Azərbaycanın həyati əhəmiyyətli enerji infrastrukturunu, neft və qaz boru kəmərlərini hədəf alır.

İndi açıq-aşkar aydındır ki, Ermənistan strateji cəhətdən əhəmiyyət daşıyan Cənubi Qafqaz bölgəsində mülki şəxslərin həyatını və enerji təhlükəsizliyini riskə qoyaraq burada sülhə və sabitliyə açıq-aşkar təhdid yaradır. Beləliklə, Ermənistan yalnız Azərbaycanı deyil, həm də Avropanın enerji təhlükəsizliyini hədəf alır.

Azərbaycanın mülki əhalisi və onun həyati əhəmiyyətli enerji infrastrukturları öz ərazi bütövlüyünü bərpa etmək üçün Azərbaycanın sülhə məcburetmə əməliyyatlarında qazandığı uğurlar qarşısında Ermənistanın yaşadığı məyusluğa görə cəzalanmamalıdır. Azərbaycanın beynəlxalq tərəfdaşları bu cür təhlükəli təxribat əməllərinə qarşı daha diqqətli olmalı və onları kəskin şəkildə pisləməlidirlər.

❖ ❖ ❖




Cənubi Koreyada ingilis dilində nəşr olunan nüfuzlu "The Korea Post" qəzeti Ermənistanın hərbi təxribatları və onun nəticəsində yaranmış vəziyyət, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan Ordusunun əks-həmlə əməliyyatları barədə geniş məqalə yayımlayıb. AZƏRTAC xəbər verir ki, ölkəmizin Koreya Respublikasındakı səfiri Rəmzi Teymurovla müsahibə əsasında hazırlanan məqalədə sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini, o cümlədən cəbhə xəttindən xeyli aralıda yerləşən Gəncə və Mingəçevir şəhərlərini atəşə tutmasından, mülki insanların həlak olması və yaralanmasından, infrastruktura ciddi ziyan dəyməsindən söz açılıb. Qeyd olunub ki, oktyabrın 10-da Moskvada Azərbaycan, Rusiya və Ermənistanın Xarici İşlər nazirlərinin humanitar atəşkəs barədə razılaşmasından heç bir sutka keçməmiş Ermənistan ərazisindən Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə atəşə tutulub, nəticədə dinc sakinlər arasında ölən və yaralananlar olub. Ermənistanın təcavüz aktı beynəlxalq hüququn norma və prinsiplərinin, beynəlxalq humanitar hüququn, Cenevrə Konvensiyasının, habelə Azərbaycanın işğal edilmiş ərazilərindən erməni qoşunlarının dərhal, tam və qeyd şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin pozulmasıdır.

Məqalədə münaqişənin tarixi haqqında məlumat verilib, işğal olunmuş ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirildiyi diqqətə çatdırılıb.

Bildirilib ki, Ermənistanın son təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks-həmlə əməliyyatına başlayıb. Bu əməliyyatlar özünümüdafiə xarakteri daşıyır, ölkənin suverenliyinin və ərazi bütövlüyünün bərpasına, vətəndaşların təhlükəsizliyinin təminatına yönəlib.

Səfir R.Teymurov beynəlxalq ictimaiyyətin işğalçıya lazımi təzyiq göstərməsinin vacibliyini vurğulayıb, bu xüsusda Cənubi Koreyanın da ədalətli mövqe nümayiş etdirəcəyinə ümidvar olduğunu deyib.

Məqalədə AZƏRTAC-ın Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrinə və infrastruktura hücumunu əks etdirən fotolarından istifadə olunub.

❖ ❖ ❖




Azərbaycan Dağlıq Qarabağ separatçıları ilə döyüşlərə heç bir muzdlu cəlb etməyib. Dağlıq Qarabağdakı döyüşlərdə Türkiyənin hərbi müdaxiləsi yoxdur.

Mənə heç bir sübut, dəlil təqdim olunmayıb. Heç bir dəlil yoxdursa, düşünürəm ki, bu söz-söhbət bağlanmalıdır. AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin "France 24" televiziya kanalına verdiyi müsahibəyə istinadən "La Tribune" portalında yazılan "Əliyev France 24-ə deyib ki, Dağlıq Qarabağ münaqişəsində muzdlular yoxdur" adlı məqalədə bildirilib. Portalda Azərbaycan Prezidentinin söylədiyi əsas məqamlar bir daha oxucuların diqqətinə çatdırılıb.

"100 minlik ordumuz var, muzdlulara ehtiyacımız yoxdur və döyüş meydanındakı rəşadətimiz göstərir ki, ordumuz özü torpaqlarımızı təkbaşına azad etməyə qadirdir", - deyə Azərbaycan Prezidentinin sözlərindən sitat verilib.

Azərbaycan Prezidentinin Fransa Xarici İşlər naziri Jan-İv Lö Dryanın sözlərinə cavab olaraq, Türkiyənin münaqişədə tərəfkeşlik etmədiyini vurğuladığı diqqətə çatdırılıb.

Azərbaycan Prezidenti deyib: "O, səhv edir. Türkiyənin hərbi müdaxiləsi ilə bağlı söylənilənlər də başqa bir yanlış informasiyadır. Türkiyənin hərbi texnikasından istifadə edirik, bu faktdır, ancaq həmçinin Rusiyanın, İsrailin və digər ölkələrin də hərbi texnikasından istifadə edirik".

Məqalədə Azərbaycanın ərazisi olan Dağlıq Qarabağda döyüşlərin sentyabrın 27-də başladığı vurğulanıb.

❖ ❖ ❖




Ukraynanın nüfuzlu KİV-i Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bəzi kəndlərimizin işğaldan azad edilməsi ilə bağlı növbəti açıqlamasına dair məqalələr dərc edib.

AZƏRTAC xəbər verir ki, Ukrinform, "RBK-Ukrayna" informasiya agentliyində, "Seqodnya", "Korrespondent" portallarında dərc edilən məqalələrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi "Twitter" səhifəsinə istinadla yazılıb: "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib".

❖ ❖ ❖




Gürcüstan portalları Azərbaycan Prezidenti İlham Əliyevin "France 24" televiziya kanalına müsahibəsindən bəzi fikirlərini dərc edib.

AZƏRTAC xəbər verir ki, interpressnews.ge, report.ge, 24news.ge, aktual.ge və digər portallar Azərbaycan, rus, ingilis və gürcü dillərində Prezident İlham Əliyevin Ermənistanın son hərbi təxribatları, atəşkəsi kobud şəkildə pozması, Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrindən fərqli olaraq mülki obyektləri atəşə tutmaması, eləcə də ölkəmizdə dini tolerantlığın yüksək səviyyədə olması ilə bağlı fikirlərini oxucuların diqqətinə çatdırıb.

❖ ❖ ❖



Misirin "Egyptonline" informasiya portalı Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibəsindən sitatlar yayıb. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının rəsmi Yerevanın çirkin avantürist siyasəti nəticəsində işğalçı ölkənin ordusunun dağılması, ağır iqtisadi və sosial böhran keçirən Ermənistanın məğlubiyyətə uğraması, çarəsizlikdən mülki obyektləri və dinc əhalini hədəfə alması barədə fikirləri Misir ictimaiyyətinə çatdırılıb.

Xəbərdə vurğulanıb ki, Azərbaycan Prezidenti cəmi 1,5 milyard dollar valyuta ehtiyatına malik və 8 milyard dollar xarici borcu olan Ermənistanın artıq bir dövlət kimi iflasa uğradığını, müharibənin davam edəcəyi təqdirdə bütün ordusunun məhv ediləcəyini bildirib.

❖ ❖ ❖



Mərakeşin "Akhbarona" elektron nəşrində AZƏRTAC-ın müxbirinin "Azərbaycan və Ermənistan arasında müharibə niyə başladı?" sərlövhəli məqaləsi dərc edilib. Məqalədə Dağlıq Qarabağ münaqişəsinin tarixindən və mahiyyətindən, Dağlıq Qarabağda təmas xəttində şiddətli döyüş əməliyyatlarının yenidən başlanmasının səbəblərindən bəhs edilir (bax: https://www.akhbarona.com/world/311419.html). AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi qeyd olunur.

Mərakeşli oxucuların diqqətinə çatdırılır ki, işğal edilmiş ərazilər tamamilə talanıb və etnik təmizləməyə məruz qalıb. Ermənistan bütün mədəniyyət abidələrini, o cümlədən məscidləri, islam abidələrini və qəbiristanlıqları məhv edib. İşğal olunmuş ərazilərdəki məscidlər dağıdılır və murdarlanır, içərisində donuz və inək saxlanılır. Bu, insanlığa və dinə hörmətsizliyi sübut edir.

Təəssüflə qeyd etmək lazımdır ki, münaqişənin davam etməsinin bir səbəbi də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması tələbinin təsbit olunduğu dörd qətnamənin yerinə yetirilməsi üçün beynəlxalq vasitəçilər tərəfindən Ermənistana təzyiq göstərilməməsidir.

Materialda bildirilir ki, 2020-ci il sentyabrın 27-də Ermənistan Azərbaycanın Dağlıq Qarabağda təmas xəttində yerləşən yaşayış məntəqələrini minomyotlardan və iriçaplı silahlardan atəşə tutmaqla növbəti dəfə Azərbaycana qarşı təhrikçilik etdi. Nəticədə Azərbaycan əks-hücum əməliyyatına keçərək öz torpaqlarını azad etməyə başladı.

Hazırda Azərbaycan torpaqlarında müharibə davam edir. Azərbaycan əsgəri öz Vətəni uğrunda və işğal olunmuş torpaqlarının qaytarılması uğrunda vuruşur.

Mərakeş qəzeti yazır ki, Azərbaycan öz sərhədləri hüdudlarından kənara çıxmayan və bir qarış belə öz torpağını güzəştə getməyən dinc ölkədir.

❖ ❖ ❖




Moldova mətbuatı Ermənistanın müharibə cinayətləri, Prezident İlham Əliyevin xarici KİV-ə müsahibəsi və işğaldan azad edilən ərazilərimizə dair açıqlamasına geniş yer ayırıb. AZƏRTAC xəbər verir ki, Moldovanın "Timpul.md", "NOİ.md", "AVA.md", "1news.md" və digər informasiya portallarında Ermənistanın Azərbaycanın mülki əhalisini, böyük şəhərlərini raket atəşinə tutması, regional neft boru xətlərimizi hədəfə alması və bu kimi müharibə cinayətlərindən bəhs edilib.

Bundan başqa, Moldova KİV-i Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi "Twitter" səhifəsində yazdığı "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib" fikrini də dərc edib.

❖ ❖ ❖




Özbəkistan "tnews.uz", "fikr.uz", "interpress.uz" və "azon.uz" portalları Azərbaycanın cəbhədə qazandığı qələbələrlə bağlı özbək və rus dillərində materiallar dərc edib. AZƏRTAC xəbər verir ki, "tnews.uz" portalı Azərbaycan Prezidenti İlham Əliyevin "France 24" televiziya kanalına müsahibəsinin tam mətnini verib. "fikr.uz" saytı isə bu müsahibə ilə əlaqədar analitik məqalə dərc edib. Məqalədə müsahibədən sitat gətirilir: "Onu qeyd etmək istəyirəm ki, Azərbaycan dini tolerantlıq səviyyəsi çox yüksək olan bir ölkədir və bu, bütün aparıcı beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən qeyd olunmuşdur. Zati-müqəddəsləri, Vatikanın rəhbəri, Roma Papası Fransisk Bakıya səfəri zamanı açıq şəkildə demişdir ki, Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun səviyyəsi çox yüksəkdir".

"interpress.uz" portalında fəlsəfə doktoru Elxan Ələskərovun "Ermənistan Qarabağı terrorizm ocağına çevirməyə cəhd edir" sərlövhəli məqaləsi yer alıb.

"azon.uz" portalı İsrailin Tirat-Karmel şəhərinin meri Arye Talın Gəncə şəhərinin icra başçısı Niyazi Bayramova göndərdiyi məktubdan bəhs edir. Məktubda Azərbaycanın haqq işinə dəstək ifadə olunur, 30 ildən bəri davam edən işğala son qoyulması arzulanır.

❖ ❖ ❖




Azərbaycan-Monteneqro Mədəni-İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə Monteneqronun "A1" televiziya kanalının "Tamo i natrag" ("Oraya və geriyə") verilişinin qonağı olub. Bir qayda olaraq ölkədaxili, regional və beynəlxalq siyasi proseslərin təhlili aparılan verilişdə sentyabrın 27-dən etibarən Ermənistanın növbəti hərbi təcavüzünə qarşı Azərbaycan Ordusu tərəfindən həyata keçirilən əks-hücum əməliyyatları haqqında geniş məlumat verilib. AZƏRTAC xəbər verir ki, Ermənistanın Azərbaycana əsassız iddiaları nəticəsində ölkəmizin ərazisində işğalçıları sülhə məcburetmə və torpaqlarımızın işğaldan azad olunması üçün əməliyyatların həyata keçirildiyi televiziya tamaşaçılarının diqqətinə çatdırılıb.

Bildirilib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinin destruktiv və təcavüzkar siyasəti bu ölkəni çıxılmaz vəziyyətə salıb. Qeyd olunub ki, bütün dünya ölkələri Azərbaycanın ərazi bütövlüyünü tanıdığına, Ermənistanın bu işğala haqq qazandırmaq üçün heç bir qanuni arqumentinin olmadığına görə ölkəmizə qarşı qarayaxma kampaniyası aparılır. Məhz bu səbəbdən bir sıra ağlagəlməz iddia və böhtanlarla beynəlxalq ictimaiyyəti aldatmağa cəhdlər göstərilib.

Seyran Mirzəzadə bildirib ki, Ermənistan terrorçu dövlətdir. Hələ ötən əsrin 80-ci illərində erməni terror təşkilatları Avropanın bir sıra şəhərlərində, o cümlədən Belqradda türk diplomatlarına qarşı terror aktları törədiblər. Belə bir ölkənin Azərbaycanı döyüş bölgəsinə digər ölkələrdən terrorçular gətirməsi ilə bağlı ittiham etməsi absurddur.

Vurğulanıb ki, Ermənistan hökumətinin Azərbaycanın işğal olunmuş ərazilərini tərk etməməsi və işğal siyasətini davam etdirməsi nəticəsində münaqişə nəinki hərbi yolla həllini tapacaq, eyni zamanda, Ermənistan dəhşətli humanitar fəlakətlə, sosial-iqtisadi böhranla da üzləşəcək.

Həmçinin qeyd edilib ki, Azərbaycanın mövqeyi beynəlxalq hüquqa əsaslanır. Beynəlxalq ictimaiyyət isə hələ də ikili standartlardan çıxış edir.

❖ ❖ ❖




Vyetnamın böyük oxucu auditoriyasına malik olan VOV ("Voice of Vietnam") xəbər agentliyinin saytında Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibəsi barədə məqalə yayılıb.

Azərbaycanın Vyetnamdakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məqalədə Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi əksini tapıb. Prezident İlham Əliyevə istinadən bildirilir ki, ilkin mərhələdə Ermənistan silahlı qüvvələri işğal altındakı əraziləri tərk etməli idi və prinsip etibarilə bu məsələ ATƏT-in Minsk qrupu çərçivəsində təsdiqlənib. Həmin prinsipə əsasən, Azərbaycan vətəndaşları Dağlıq Qarabağa və ətraf 7 rayona qayıdır, Dağlıq Qarabağın gələcəyi ilə əlaqədar müzakirələr davam edir, ancaq yeni bir şəraitdə, yeni bir iqlim çərçivəsində.

Daha sonra materialda Azərbaycan Prezidentinin Dağlıq Qarabağın erməni əhalisinə dair sözlərindən sitat gətirilir: "...orada yaşayan ermənilərlə əlaqədar bizim mövqeyimizdə dəyişiklik yoxdur. Azərbaycan çoxmillətli dövlətdir. Azərbaycanın müxtəlif yerlərində, ilk növbədə, Bakı şəhərində minlərlə erməni yaşayır və onlar bizim vətəndaşımızdır. Bizim ölkəmizdə bir çox millətlər yaşayır və bu, ölkəmizin gücünü artırır. Ona görə Dağlıq Qarabağda yaşayan ermənilər narahat olmasınlar. ... onlar daha yaxşı yaşayacaq, daha güvənli, daha təhlükəsiz şəraitdə yaşayacaqlar".

"Voice of Vietnam" yazır ki, türkiyəli jurnalist Prezident İlham Əliyevdən Dağlıq Qarabağın azad olunmasından sonra bu bölgənin inkişaf modeli ilə maraqlanıb. Bununla əlaqədar qeyd olunub ki, Azərbaycan Prezidenti Dağlıq Qarabağa sərmayə qoymağı, orada sosial proqramlar həyata keçirməyi, yerli əhali üçün daha çox iş yerləri yaratmağı nəzərdə tutur.





# Vətən deyəndə...





● Dövlət-Xalq-Ordu həmrəyliyi



## Lider ətrafında milli birlik daha da güclənib

### Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsində qələbəmizi yaxınlaşdıracaq gəncliyin üzərinə daha çox məsuliyyət düşür

**Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanda Dövlət-Xalq-Ordu həmrəyliyi və Lider ətrafındakı milli birlik bu qədər güclü hiss edilməmişdi. Bir qədər də dəqiqləşdirsək, biz bu hissləri 2016-cı ilin Aprel döyüşlərində duyduq! 2020-ci ilin iyul ayının ortalarında Tovuz istiqamətindən dövlət sərhədimizi ağır artilleriyalarla kobudcasına pozan, dinc və mülki əhalini, eləcə də sıravi əsgərimizdən generalımızadək terrora məruz qoyan təcavüzkar Ermənistanın sentyabrın 27-də yenidən törətdiyi təxribata cavab vermək üçün Ali Baş Komandanın hər bir əmrinə hazır olan, onun ətrafında yumruq kimi birləşən xalqımızın, o cümlədən gəncliyimizin ordumuzla göstərdiyi həmrəyliyin bir daha şahidiyik.**

Azərbaycan gəncliyinin səsi bu gün dövlətinin və xalqının yanından, düşmənlə üz-üzə səngərdən, dünyanın inkişaf etmiş ölkələrinin nüfuzlu ali məktəblərindən gəlir. Onlar Vətənə layiqli övlad olacaqlarına and içiblər. Andına sadiq gəncliyimizin üzərinə bu gün daha çox düşən missiya isə düşmənin təcavüzkarlığına son qoymaq, işğalda qalan torpaqların, dağıdılan yurd-yuvaların əsarətdən xilası üçün Ali Baş Komandanın ətrafında daha sıx, monolit birləşməkdir. Onlar bu ali və şərəfli vəzifəni layiqincə dərk edir. Bunun səbəbləri də var, gənclik vətənpərvər ruhda yetişir. Çünki Azərbaycanda uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Bu siyasət isə ölkə gənclərinin hərtərəfli inkişafını təmin edir.

Azərbaycan əhalisinin əksəriyyətinin gənclərdən ibarət olması da ölkəmizin davamlı inkişafının təminatıdır. Deməli, gəncliyin əsas yolu və vəzifəsi ilk növbədə dövlət başçısının ətrafında daha sıx birləşərək azərbaycançılıq, vətənkeşlik ideologiyasına sədaqətlə xidmət etməkdir.

"...Heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib..."

Gənclər üçün əsas istiqamət, əlbəttə, ilk növbədə vətənpərvərlik, daha sonra isə təhsildir. Bu prizmadan yanaşaraq dövlət başçısı hesab edir ki, məhz bu iki istiqamətə daha çox fikir verilməlidir. Gənclər peşəkar olmalıdırlar. Onlar milli və hərbi-vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Elə bu yanaşmanın nəticəsidir ki, Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsinə çevrilib. Buna görə də dövlət başçısı xüsusi qeyd edir ki, gənclərimizlə fəxr edə bilərik.

Azərbaycan Prezidenti gənclərlə keçirdiyi görüşlərdə həmişə bildirir ki, ölkədə təlim-tərbiyə işi yeni müstəviyə qalxmalıdır: "Gənclər özləri də tarixi yaxşı bilməlidirlər. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib..."

Azərbaycan Prezidenti respublikamızın gələcəyi sayılan gənclərdə vətənpərvərlik hissinin daha güclü olmasını istəyir. Həm də yalnız bu, sadəcə, istək və arzu deyil. Eyni zamanda bunun üçün münbit zəmin hazırlayır, şərait yaradılmasını tələb edir: "Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin".

#### Torpaqlarımızın müdafiəsinə can atan gənclik

Azərbaycan gəncliyi öz dövlətini və xalqını təcavüzkarlardan qorumaq üçün ötən 30 il ərzində sinəsini düşmən gülləsinə sipər edib. Onlar heç vaxt arxadan vurulmayıblar. Milli Qəhrəman Mübariz İbrahimov kimi düşmənə layiqli cavab veriblər! Qəhrəmancasına şəhid olublar, heç vaxt erməni silahlı quldurу kimi fərarilik etməyiblər!

Bu, xalqımızın döyüşkən ruhunun qorunub saxlanan əzmkarlığı, mübarizliyidir. Həmin ruhda tərbiyə alan Azərbaycan gəncliyi Tovuz hadisələrində olduğu kimi, bu gün də ordu sıralarına könüllü yazılmaqla düşmənə layiqli cavab verərək, tezliklə qazanılacaq qələbədə payının olmasını düşünür.

Sentyabrın 28-də Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının müvafiq sərəncamı ilə ölkədə qismən səfərbərlik elan edilib. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin birinci müavini general-mayor Zaur Abdullayev sərəncamdan irəli gələn məsələlərə aydınlıq gətirərkən mühüm bir məqama xüsusi diqqət yetirib: "...Son günlər xeyli sayda Azərbaycan vətəndaşı ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak üçün Xidmətə könüllü müraciət edirlər. Bu hal onu göstərir ki, vətəndaşlarımız elan olunmuş qismən səfərbərlik tədbirində böyük ruh yüksəkliyi ilə iştirak edəcəklər".

Gəncliyin özünün bu məsələyə baxışları dövlət başçısının fikirlərini əks etdirir. Gənclərimiz Azərbaycan Prezidentinin onlara göstərdiyi diqqət və qayğıya cavab olaraq öz üzərlərinə düşən vətəndaşlıq borcunu yerinə yetirmək üçün yaradılan şəraitdən yalnız məmnun qaldıqlarını deyil, həm də bunun məsuliyyətini unutmurlar.

#### "Qarabağ bizimdir, bizim olacaq"

Hələ 2016-cı il Aprel döyüşlərində Azərbaycan Ordusunun Lələtəpə zirvəsini fəth etməsi böyüklü-kiçikli xalqımızı ayağa qaldırmışdı. Əlbəttə, bu coşqu ilə əlində silahı olmayan belə, "Qarabağ bizimdir, bizim olacaq!" çağırışı ilə üçrəngli bayrağımıza sarınaraq üzü Qarabağa yürüş edən iştirakçıların, demək olar ki, hamısı da gənclər idi. Qanlı Tovuz hadisələrində isə biz həmin coşğunun bir az da artdığının, düşmənə öz yerini göstərmək üçün, hətta cəbhəyə, ön xəttə can atanların əsasən gənclərdən ibarət olduğunun şahidinə çevrildik.

Bu da 27 sentyabr! Xalq, o cümlədən Ali Baş Komandanın hər an döyüş əmrini gözləyən vətənpərvər gəncliyimiz könüllü şəkildə Azərbaycan Ordusunun sıralarında düşmənə öz yerini göstərmək üçün səfərbər olduqlarını nümayiş etdirdi. Çünki onlar yaxşı bilirlər: bu, qələbəyədək aparan müqəddəs yoldur! Tarixən bütün döyüşlərdən zəfərlə çıxmış igid, qəhrəman xalqımızın, onun müdriklərinin dediyi kimi, "bu yolda öldü var, döndü yox!"

Bütün bunlardan sonra onu da qeyd edək ki, Ali Baş Komandanın ətrafında sıx birləşib, əzəli-əbədi torpaqlarımızı işğalçılardan azad etmək istəyənlər yalnız ölkə vətəndaşları deyil, minlərlə gənc soydaşımız Azərbaycandan çox-çox uzaqlarda yaşayıb, oxusalar da, "cənab Prezident, Sizin ətrafınızda birləşərək, Vətənimizin ərazi bütövlüyünü təmin etmək üçün canımızdan keçməyə hazırıq,"- deyir. Bu da Azərbaycan Prezidentinin "Biz birlikdə qalibik!" çağırışına səs verməkdir!

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

● Əsgərə məktub

## Xilaskarlıq şərəfli missiyadır

**Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusunun ön cəbhədə erməni qəddarlarına layiqli cavab verməsi, xilaskarlıq missiyası bu gün hər kəsi sevindirir. 30 ilə yaxındır ki, təcavüzkar Ermənistan tərəfindən işğala məruz qalan tarixi torpaqlarımızda bu gün zəfər yürüşü ilə düşmənə öz yerini göstərən Azərbaycan əsgərinin qələbə soraqları bir sənət adamı kimi məni də qürurlandırır!**



Qəti əminik ki, əsgər oğullarımız, könüllülərimiz tezliklə musiqi beşiyimiz, Qafqazın konservatoriyası kimi tarixə yazılan Şuşamızda da üçrəngli bayrağımızı dalğalandıracaq, biz də Cıdır düzünün əvvəlki növrağını qaytararaq nəğmələrimizlə, muğam-segahlarımızla bərpa edəcəyik.

Məni düşündürən və sevindirən, təbii ki, ilk növbədə Milli Ordumuzun ön cəbhədə hər gün əldə etdiyi uğurlar, qələbə soraqlı xəbərləridir. Bəli, ordumuz xilaskardır, işğalçı deyil. Onun belə şərəfli missiya daşımasına dair yalnız bircə faktı qeyd edəcəyəm, əsgər balalarımız! Siz ön cəbhədə azğın, terrorçu, təcavüzkar işğalçılarla döyüşməklə yanaşı, eyni zamanda yeri gəldikcə humanistliyinizi də göstərirsiniz. Bu, bizim xalqımızın, millətimizin genetik humanist xarakterindən irəli gəlir. İnternetdə yayılan xəbərlərin birindən öyrəndim ki, döyüşlərin qızğın getdiyi yerində qalan erməni əsilli qadını da amansız ölümün pəncəsindən xilas etmisiniz. Bu addımınızla göstərdiniz ki, döyüş meydanında əlisilahlı düşmənə sarsıdıcı zərbələr vuran güclü qüvvə, əliyalın mülki vətəndaşlar üçün isə xilaskarsınız!

Bəli, bu bir daha onu göstərdi ki, biz sülh carçılarıyıq - barış, firavanlıq və insanpərvərlikdən başqa bizə heç nə lazım deyil. Biz eyni zamanda Xocalıda işgəncə ilə qətlə yetirilənlərin, yandırılanların, işgəncə verilən, başlarına min bir müsibət açılan, yazılması mümkün olmayan əzablara düçar olan qadınların balaları olsaq da, insani hisslərimizi, mərhəmətimizi, vicdanımızı itirməmişik. Bu təmiz, ülvi, ali insani hissləri bizdən heç bir itki, heç bir faciə, heç bir vəhşilik ala bilməyib və bilməyəcək də.

Əsgər oğlum, sən bu gün hər övladı ön cəbhədə döyüşən anaların balasısan: hamımızın - xalqımızın, yalnız səni dünyaya gətirən ananın yox. Yalnız öz doğma ananı qorumaq üçün düşmənlə üz-üzə dayanmamısan! Sən ana Vətənin qəhrəman oğlu, tarixə zəfər yazan igidisən. Hər bir Azərbaycan anasının oğlusan, qızının qardaşısan!

Azərbaycan bu gün sizin simanızda bütün dünyaya öz düşmənindən nə qədər uca, nə qədər humanist, nə qədər sülhpərvər olduğunu göstərir! Erməni qadınlar da qoy görsünlər ki, xəyanətkar, daşnak, quldur silahlı dəstələrdən ibarət ordusu yox, ona Azərbaycan əsgəri və dövləti sahib çıxdı. Bu, cılız və ləyaqətini itirmiş erməni vandallarına qarşı belə öz böyüklüyümüzü də göstəririk!

Bəli, biz humanist xalq olduğumuzu 30 ildir ki, dünyaya göstərdik: işğalçı, təcavüzkar deyilik. Sülh danışıqları ilə geri ala bilmədiyimiz doğma, tarixi, əzəli torpaqlarımızı bütün beynəlxalq prinsip və normalara hörmət edərək düşmən tapdağından xilas edirik. Əgər bu ərazidə yaşayan sadə, sıravi ermənilər də daşnaklardan xilas olmaq istəyirlərsə, bunu bəyan etsinlər. Biz buna da hazırıq. Çünki biz azərbaycanlıyıq - heç vaxt erməni səviyyəsinə enməyəcəyik. Biz öz torpaqlarımızda, haqq uğrunda savaşırıq, söndürülümüş ocaqlarımıza, dağıdılmış yurdlarımıza dönmək, Qarabağa, Qafqaza, cahana... sülh gətirmək üçün.

*Fidan QASIMOVA, Xalq artsiti*

● Əsgərə şeir sovqatı




● Danışır əsgər anası

## Xalqın səninlə qürur duyur, oğul!

**Ölkəmizdə torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər gedir. Hər bir azərbaycanlı qələbə xəbərləri ilə sevincli günlər yaşayır. Eyni zamanda hər kəsin əsgərlərimizin taleyindən bir nigarançılığı da var. Bu, həm də topla, avtomatla yox, raketlərin, bombaların yağış kimi göydən yağdırdığı müharibədir. Hamımız narahatıq, xüsusən də oğulları döyüşdə olan analar üçün bunun nə demək olduğunun sözlə ifadəsi yoxdur.**




İlk dəfədir oğlum Cavad uşaqlarından, ailəsindən uzaq düşüb. O, qanlı savaş meydanında ata-baba torpaqlarımız uğrunda düşmənə qarşı vuruşur. Elə bil qəlbimdə bir ocaq qalanıb. Ancaq onun savaş başlayan kimi, bir zabit olaraq könüllü Vətəni qorumağa getməsi məni çox qürurlandırdı. Əbəs yerə deməyiblər ki, "oğul düşmən çəpəridir".

Allah belə oğulları ona görə verib ki, haqqımızı tapdalayan, sərhədlərimizi pozan, qız-gəlinlərimizə kəm baxan düşmənlərdən bizi qorusun. Bütün valideynlərin borcu öz övladlarını vətənpərvərlik ruhunda, əsl vətəndaş kimi böyütməkdir. Allahın mənə əmanəti olan oğlumu mən də ordumuza həvalə etdim. Ona görə ki, bu torpağı Azərbaycan övladı, Azərbaycan gənci, Azərbaycan əsgəri qorumalıdır!

Bu gün mənim də oğlumun öhdəsinə Vətənin keşikçisi olmaq düşüb. Düz 27 ildir biz Ermənistanın mənfur işğalçılıq siyasəti nəticəsində hər cür rahatlığı olan evimizdən, gül-çiçəkli bağ-bağçamızdan ayrı düşmüşük. İllərlə xəyalımıza belə gəlməyən vaqonlarda, çadırlarda, başqasının evində "yerini dar eləyib" ömür sürmüşük. Sonradan şəraitimiz yaxşı olsa da, yurdumuz, öz dam-daşımız yaddan çıxmayıb.

İndi düşməndən qisas almağın, doğma yurda qayıtmağın vaxtı çatıb. Ordumuzun gücü, Ali Baş Komandan İlham Əliyevin cəsarətli mövqeyi, qətiyyəti bizi inandırır ki, ötən illərin əzablı günləri geridə qalacaq. Son günlər aldığımız Qələbə xəbərləri köksümüzü elə qabardır ki, daha övladımızdan narahatlığımızı bildirməyə belə utanırıq.

Mən müəlliməm. Uzun illər yüzlərlə şagirdimin tələbə adını qazanmasında, təlim-tərbiyəsində əməyim olub, elə bu gün cəbhədə döyüşən oğlum Cavadın da... Düşmənlə üz-üzə olan Cavad Cavadzadə Bakı Dövlət Universitetini bitirib, 1997-ci ildə bakalavr, 1999-cu ildə magistr dərəcəsi alıb. 1999-2003-cü illərdə BDU-da müəllim, 12 il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində inspektor kimi çalışıb. 2003-2006-cı illərdə zabit kimi hərbi xidmət keçib.

Bütün anaların arzusu bəşəriyyətdə sülhün bərqərar, övladlarının salamat olmasıdır. Amma bu gün anaları daha çox savaşın dayanması qorxudur. Çünki bu yoldan geri çəkilmək, düşmənə aman vermək daha böyük fəlakətlərə səbəb ola bilər. İgidlərimiz bu döyüş fürsətindən istifadə edib işğal altındakı bütün ərazilərimizi təmizləməli və düşmənə elə bir dərs verilməlidir ki, bir də biz tərəfə baxmasın. Əmin-amanlıq yalnız bundan sonra yaranar. Ona görə də deyirəm ki, vur, oğlum, vur! Qarabağ həsrətilə köç edən atanın, əzizlərinin qisasını al bu namərd düşməndən! Vətən sənə, sən də Allaha əmanət ol!

Unutma, sənin torpaqlarımızın bütövlüyü uğrunda döyüşün indi tək ananın qüruru deyil, qohum-əqrəban, bütünlüklə xalqın sizinlə qürur duyur.

Balalarımızdan nə qədər narahat qalsam da, əsas nigarançılığım torpaqlarımızın hələ tam azad olmamasındandır. Şuşa, Laçın, Kəlbəcər, Xankəndi, Ağdam... işğal olunmuş bütün torpaqlarımız öncə sizi, sonra da bizi gözləyir. Arzumdur - qalibiyyət, zəfər bayrağını əzəli torpaqlarımıza sancan əsgərlərin arasında sən də olasan, oğlum!

*Adikə SOLTANOVA, Ağdam rayonunun Əliağalı kənd sakini*

● Şəhidlər ölməz, Vətən bölünməz

## Bir Azərbaycanımız var

**Hər gün diqqətimiz cəbhədən gələn xəbərlərə dikilir. Böyüklü-kiçikli hamımız bu xəbərləri həyəcanla izləyirik. Elə sözümüz, söhbətimiz də yalnız cəbhə ilə bağlıdır. Ordumuzun zəfər yürüşü barədə xoş xəbərlər bizi ruhlandırır, içimizdəki vətən sevgisini daha işıqlı edir.**




Mən şəhid ailəsiyəm. Həyat yoldaşım Zakir Sultanovun Qarabağ savaşı başlayanda 30 yaşı vardı. Heç yadımdan çıxmaz: evə gəlib diqqətlə mənə baxdı. Dedim ki, nə baş verib? "Döyüşə gedirəm", - dedi. Evdən çıxıb getdiyi həmin gün də gözlərim önündədir. 1994-cü ilin fevralında Füzuli istiqamətində gedən döyüşlərdə həlak olan Zakir Qusara şəhid kimi döndü.

O dövrdən çöx keçib. Tək Zakirin deyil, minlərlə azərbaycanlı şəhidin qanı alınmalıydı. Bu gün müzəffər ordumuzun erməni qəsbkarlarını vətənimizdən qovması ilə intiqamımz alınır. İşğalçılar bizə çox bəlalar yaşadıblar - Xocalı soyqırımı, işğal olunan rayonlar, dinc əhalinin qətli - deməklə qurtarası deyil.

Qusarda millətindən asılı olmayaraq hər kəs bir nəfər kimi Ali Baş Komandanın arxasındadır. Rayonumuzda hətta şəhid analarından könüllü cəbhəyə getmək istəyənlər var. Çünki yaxşı gündə də, çətin gündə də yalnz bir Azərbaycanımız var.

Mən özüm ləzgi qızıyam. Bu gün yaxın qohumlarımızdan cəbhədə olan çoxdur. Biz erməni terrorçularının Gəncəyə, Mingəçevirə, Tərtərə və digər yaşayış mənqətələrimizə atdığı mərmi və raketlərdən ölən və yaralananları eşidəndə bir daha erməni işğalçılarının iç üzünü görürük. Kiçik körpələrə qıyan bu faşistlərin vətən torpaqlarından qovulacağı günə bizi qovuşduran Ali Baş Komandana isə bildirmək istəyirik ki, nə yaxşı varsınız! Sizin Vətən tarixinə yazacağınız Qələbə gününü hamımız səbirsizliklə gözləyirik. Bax, o zaman torpaq altda yatan şəhidlərimizin ruhu nur kimi vətən göylərinə səpiləcək. Onda ağrı da azalacaq, dərd də, qəm də yaddan çıxacaq. Təki, bayrağımız Qarabağın hər guşəsində dalğalansın, əsgərlərimiz qələbə ilə geri dönsünlər!

*Sevda SULTANOVA, Qusar*

# Heydər Əliyevin 38 il öncə Türkiyəyə göndərdiyi hədiyyə...

## Erməni zərbəsilə öldürülən Ayşad Uğurlunun nakam taleyi, sahibsiz qalan qarmon və Mehriban Əliyevanın əbədiləşdirdiyı yadigar


"Garmon" ve sahibi

Kürşad Uğurlu, Sovyetlerin ikinci adamı Haydar Aliyev'in kendisine gönderdiği akordeona benzeyen Garmon isimli müzik aleti ile görülüyor...

**Aliyev'in jesti**

Haydar Aliyev, kendisinden Garmon adı verilen Azerbaycan milli çalgısını isteyen Kürşad Uğurlu isimli Türk gencinin isteğini yerine getirdi. Uğurlu, "Aliyev bizi çok sevindirdi" dedi.

İstanbul'da Devlet Konservatuvarı'nda sanatçı olarak çalışan Kürşad Uğurlu, "Haydar Aliyev'e mektup yazarak borcumuzun ne olduğunu sorduk. Bize gönderdiği cevapta sitem etti ve (Ne borcu? Bu benden size bir hediye)" dedi.

Haydar Aliyev Türk gencinin isteğini kırmadı. Seyfi BORA

Türkiyənin "Günaydın" qəzetinin yazarı Ertuğrul Akbay Moskvaya Heydər Əliyevdən müsahibə almağa gedir. Söhbət zamanı Heydər Əliyev Ayşaddan aldığı məktubdan və ona göndərdiyi qarmondan söz açır...

Bir neçə gün sonra İstanbuldakı Rusiya Konsulluğunun nümayəndəsi Nazim bəyə zəng edərək deyir ki, "cənab Heydər Əliyev bu türk gəncinə bir qarmon göndərmişdi, sizi tapa bilmədiyimiz üçün qarmonu yenidən Moskvaya qaytardıq. Lakin Heydər Əliyev bunu qəbul etmirdi və alətin mütləq sizə çatdırılmasına dair sərəncam verdi. Qarmonunuz burdadır, gəlin, aparın..."



Ayşad Əli Uğurlu... Bu ad yəqin ki, sizə tanış deyil. Bəlkə heç musiqi aləmində də bu adı eşidən insanların sayı çox deyil. Ancaq tanıyanlar bilir ki, bu ismin altında cəmi 32 il ömür sürmüş eloğlumuzun acı, nakam taleyi yatır. Bu adın altında Azərbaycan qarmonuna olan sevgi ilə döyünən ürək dayanır. Bu adın altında qəddar erməni zərbəsilə susdurulan yarımçıq sənət ömrü yazılıb...

Bu günlərdə Türkiyənin məşhur və ən çox satılan mətbu orqanı olan "Sözcü" qəzetinin manşetində Ayşad Əli Uğurlu haqqında yazı dərc olundu. Biz də həmyerlimizin qısa, lakin maraqlı həyat hekayəsini qələmə almaq qərarına gəldik.

### Soyadlarını Türkiyə Prezidenti verdi

Ayşad Əli Uğurlu... Azərbaycan əsilli qarmon ifaçısı... 1958-ci ildə Türkiyənin Qars şəhərində dünyaya göz açıb. 1937-ci ildə Sovet imperiyasının Azərbaycanda apardığı repressiya əslən Gəncədən olan babası Əziz Hacızadədən də yan keçmir. Həbsinə qərar verilən ailə başçısı həyat yoldaşı, 3 oğlu və 4 qızı ilə birlikdə 1938-ci ildə çox çətinliklə Gəncədən Türkiyənin Qars şəhərinə köçür. O dövrdə Türkiyə Cümhuriyyətinin Baş naziri, sonradan Prezidenti olan Celal Bayar bu ailəyə Uğurlu soyadının verilməsini məsləhət görür. Qardaş ölkədə yeni həyatları onlara uğur gətirsin deyə...

Beləliklə, Uğurlu ailəsi Türkiyədə yeni həyata başlayır. Ailənin ortancıl oğlu Nazim özlərini dolandırmaq üçün Qarsda atası ilə çiyin-çiyinə işləyir. Eyni zamanda təhsilini də davam etdirir. Bu müddətdə işlərini böyüdür, elektrik sahəsində peşəkarlaşır və artıq onun adı Qarsda adlı-sanlı tacirlər sırasında çəkilir. Nazim uşaqlıqdan musiqiyə böyük maraq və sevgi duyurdu, xüsusən qarmonun vurğunu idi. Qarsda yaşayan digər azərbaycanlılar kimi, Uğurlu ailəsi də Azərbaycanın milli adət-ənənələrindən, mədəniyyətindən uzaq düşməmişdilər.

Bütün bayramlarını, toylarını, sevincli anlarını və ad günlərini milli adətlərimizə uyğun qeyd edirdilər. Evlərində daim Azərbaycan bəstəkarlarının əsərləri dinlənilirdi, Azərbaycan radiosunun musiqi verilişlərinə qulaq asırdılar. O illərdə, internet olmadığı bir vaxtda yalnız radio dalğalarında eşidə bildikləri Azərbaycan musiqiləri, muğamlar vətən həsrətlərinə məlhəm olurdu.

### Oyun havasından doğulan ad

Bir gün Nazim radiodan ustad qarmonçalan Teyyub Dəmirovun bəstəsi olan "Ayşadı" oyun havasını eşidir. Bu rəqs ona o qədər xoş təsir bağışlayır ki, gələcəkdə oğlu olsa, adını Ayşad qoymaq qərarı verir.

İllər ötür, Nazim evlənir. 1958-ci ildə oğlu dünyaya gəlir və adını əvvəldən fikirləşdiyi kimi Ayşad qoyur. Atanın Azərbaycan musiqisinə, qarmona olan sevgisi oğluna da keçir. Ayşad uşaqlıqdan Azərbaycan musiqilərini dinləyə-dinləyə onları həm də çox sevir. Qarmonda ifa olunan mahnıları dinlədikcə özü də bu alətdə ifa etmək arzusuyla alışır. Lakin ailəsi nə qədər axtarsa da, Türkiyədə Azərbaycan qarmonu tapıb ala bilmirlər. Sonda qarmonu akkordeonla əvəzləməli olurlar. Ayşad özü-özünə akkordeon ilə həmin musiqiləri ifa etməyi öyrənir.

### Fikrət Əmirovun hədiyyəsi

1968-ci ildə dahi Azərbaycan bəstəkarı, əslən Gəncədən olan Fikrət Əmirov "Nizami" simfoniyasını səhnəyə qoymaq üçün böyük türk bəstəkarı və dirijoru Səbahattin Qələndərin dəvəti ilə İstanbula yola düşür. O, İstanbula Qars qatarı ilə gəlir. Nazim bəyin qatarda işləyən tanışı bəstəkara burada onun həmyerlisinin olduğunu deyir. Nazim bəylə Fikrət Əmirov Qarsda görüşürlər. Gəncədə eyni məktəbdə oxuduqlarını öyrənirlər. Fikrət Əmirov iki gün həmyerlisinin evində qonaq olur. Evdə Ayşadın akkordeon çalmağına qulaq asır, ifası xoşuna gəlir. "Bu musiqiləri mütləq Azərbaycan qarmonu ilə ifa etməlisən", - deməklə istedadlı cavana bir qarmon göndərəcəyinə də söz verir... Fikrət müəllim öz sözünü yerinə yetirir və balaca ifaçıya qarmon göndərir. Təəssüf ki, bu qarmon səhvən "Kazan" qarmonu olur.

Ayşad bu qarmonla ifası üzərində çox çalışır, vaxt keçdikcə daha da tələbkar olur və artıq "Kazan" qarmonu ilə kifayətlənmir. Sovet dövründə Azərbaycana gedib-gəlmək çətin olduğuna görə Nazim bəy 1975-ci ildə oğluna yaxşı bir qarmon almaq üçün Təbrizdə yaşayan Hüseyn Müvəhhidi adlı akkordeon ustasına müraciət edir. Təbrizli usta qarmon tapmağın çətinliyindən danışır və Ayşad üçün akkordeonu modifikasiya, yəni əlavələr etməklə qarmona uyğun hala gətirir. Bu alətin səs düzümü qarmona yaxın olsa da, Azərbaycan qarmonunu əvəz etmir. Ayşad bir müddət də bu alətdən istifadə edərək milli musiqilərimizi çalaraq ifaçılıq sənətinin sirlərinə daha yaxşı yiyələnir.

### Heydər Əliyevə Türkiyədən yazılan məktub

1979-cu ildə Ayşadın 21 yaşı olanda ailəsi Qarsdan İstanbula köçür. Gənc musiqiçi İstanbulda sənətini davam etdirir. O, artıq burada rəqs qruplarında qarmon çalır və Azərbaycan mahnılarını oxuyan sənətkarları müşayiət edir. Hətta həmin rəqs qrupları ilə xarici ölkələrdə qastrol səfərlərində də olur. Lakin əlində olan həm "Kazan" qarmonu, həm də Təbrizdə düzəldilmiş akkordeon onu qane etmir. Bütün bu illər ərzində Azərbaycan qarmonunu axtarmaqdan da vaz keçmir. Son çarə olaraq qarmonu çox səlahiyyətli bir şəxsdən istəmək qərarına gəlir. Çünki həmin illərdə Azərbaycana yalnız dəvətnamə ilə getmək mümkün idi. Özünün də turist kimi getmək imkanı yox idi.

Beləliklə, Ayşad Uğurlu 1982-ci ildə Moskvaya, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevə bir məktub göndərir. Məktubda əslən Gəncədən və musiqi ilə məşğul olduğunu, lakin qarmon tapa bilmədiyini yazır. Heydər Əliyevdən ona Azərbaycan qarmonu göndərməsini xahiş edir.

### Heydər Əliyev gənc musiqiçini arzusuna qovuşdurur

Uzun müddət məktubuna cavab ala bilməyən Ayşad Amerikadakı Türk-Azərbaycan Cəmiyyətinin dəvətini qəbul edərək, əlindəki "Kazan" qarmonu ilə Çikaqo şəhərinə gedir. Orada həm işləyir, həm də sənət fəaliyyətini davam etdirir.

Amma demə, vəziyyət tamam başqa imiş. Məktubla tanış olan Heydər Əliyev gənc musiqiçinin istəyini dərhal yerinə yetirir. Türkiyəyə Ayşad Uğurluya Azərbaycan qarmonu hədiyyə göndərir. İstanbuldakı Rusiya Konsulluğu hədiyyənin sahibini tapa bilmədiyini əsas gətirərək qarmonu Moskvaya geri qaytarır. Bunu bilən Heydər Əliyev gənc ifaçını taparaq aləti ona mütləq çatdırmağı tapşırır.

Həmin ərəfədə Türkiyənin "Günaydın" qəzetinin yazarı Ertuğrul Akbay Moskvaya Heydər Əliyevdən müsahibə almağa gedir. Söhbət zamanı Heydər Əliyev Ayşaddan aldığı məktubdan və ona göndərdiyi qarmondan söz açır. Ertuğrul Akbay da İstanbula qayıdan kimi ailəni tapır, Ayşadın kiçik qardaşı Kürşad Uğurludan müsahibə götürür. Qarmonun hekayəsini "Günaydın" qəzetində dərc etdirir. Beləliklə, qarmonun sahibinin tapılmasına vasitəçi olur.

Bir neçə gün sonra İstanbuldakı Rusiya Konsulluğunun nümayəndəsi Nazim bəyə zəng edərək deyir: "Cənab Heydər Əliyev bu türk gəncinə bir qarmon göndərmişdi, sizi tapa bilmədiyimiz üçün qarmonu yenidən Moskvaya qaytardıq. Lakin Heydər Əliyev bunu qəbul etmirdi və alətin mütləq sizə çatdırılmasına dair sərəncam verdi. Qarmonunuz burdadır, gəlin, aparın..."

Ölkələr arası səyahətlərin indiki kimi sərbəst olmadığı, hətta çətin olduğu bir dövrdə Azərbaycanda Türkiyəyə qarmon gətizdirmək, demək olar ki, mümkünsüz idi. Heydər Əliyev kimi yüksəkvəzifəli siyasətçinin bu jesti əslində Azərbaycan-Türkiyə dostluğunun bariz nümunəsi, "bir millət, iki dövlət" ifadəsinin ən gözəl isbatı kimi dəyərləndirilməlidir.

### Ayşad Azərbaycan qarmonuna Amerikada qovuşur

Beləliklə, illərdir həsrətini çəkdiyi Azərbaycan qarmonunu Türkiyədə doğulmuş gəncəli Ayşad Uğurluya Ulu Öndər Heydər Əliyev hədiyyə olaraq göndərir. İfaçı uşaqlıqdan arzuladığı Azərbaycan qarmonuna Amerikada qovuşur. Musiqi sahəsində təhsil almasa da, peşəkar səviyyədə ifa etməyi bacaran Ayşad Uğurlu Çikaqo şəhərində amerikalılar, türklər və azərbaycanlılardan ibarət rəqs ansamblı yaradır. Bu ansamblın baletmeystri də Azərbaycan Dövlət Rəqs Ansamblının keçmiş xoreoqrafı olan məşhur rəqqas Tanxo İzrafilovun qardaşı Moxay İzrafilov olur. O, ilk dəfə olaraq Flamenqo rəqqaslarının ayaqlarını yerə vuraraq çıxardığı ritmik səslərlə qarmonda Azərbaycan rəqs havalarını çalıb, bunları sintez edib ərsəyə gətirməklə maraqlı bir ifa ortaya qoyur. Amerikaya qastrol səfərlərinə gələn Azərbaycanın sevimli sənət adamları, o cümlədən Alim Qasımov, Aftandil İsrafilov, Ramiz Quliyev, Vəli Qədimov, Yaqub Zurufçu, Şəfiqə Eyvazova və dünya şöhrətli sənətkar Zeynəb Xanlarova ilə görüşür.

Bu müddət ərzində Ayşad bir azərbaycanlı ailənin qızı ilə evlənir, 3 oğlu dünyaya gəlir. Vətən sevgisi övladlarının da adında özünü göstərir - Cavanşir, Cahangir, Gəncəxan.

### Ölümə aparan erməni zərbəsi

1988-ci ilin 24 apreli...

Bu tarix Ayşad Uğurlunun taleyinə dəhşətli bir hadisə ilə yazılır. Həmin gün Çikaqoda Türkiyə Konsulluğunun qarşısında ermənilər etiraz aksiyası keçirir, Türkiyə əleyhinə şüarlar səsləndirir, "soyqırımı" hadisəsini pisləyirlər. Digər tərəfdə də türkiyəlilər və azərbaycanlılar toplaşıb onlara əks-reaksiya verirdilər. Ayşad da, hər bir vətənpərvər türk övladı kimi, ermənilərin bu fəaliyyətlərinin qarşısında durmaq üçün nümayişdə iştirak edir. Aksiya əlbəyaxa döyüşə çevrilir.

Bu zaman bir erməni beyzbol çubuğu ilə onun başına güclü zərbə endirir. Zərbə Ayşadın başında anadangəlmə olan passiv şişi tərpədir. Şiş getdikcə daha pisləşir və müalicəsi çətinləşir. Həkimlər şişin bədxassəli olduğunu bildirirlər. Ayşad Amerikada beynindən əməliyyat olunub müalicə alsa da, heç bir fayda vermir. Ümidi üzülən atası Nazim bəy oğlunu Türkiyəyə gətirir. Ayşad Əli Uğurlu 23 aprel 1990-cı ildə 32 yaşında dünyasını dəyişir. Bir gün sonra təqvim 24 apreli göstərəcəkdi. İki il öncə Ayşadın vaxtsız ölümünə birbaşa səbəb olan erməni zərbəsi ilə yaralandığı o günü...

### Uğruna bir ömür həsr edilən qarmon Bakıda sərgilənir

Ümummilli Lider Heydər Əliyevin hədiyyə etdiyi qarmon Ayşadın xatirəsinə hörmət əlaməti olaraq ailəsi tərəfindən evində qorunur və çalınmır. İllər sonra Azərbaycan qarmonunun vurğunu olan Ayşad Uğurlunun acı həyat hekayəsini öyrənən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu ailəni tapır. Ayşadın illərlə həsrətində olduğu, yolunu gözlədiyi, mənəvi dəyəri yüksək, Ulu Öndərin hədiyyəsi olan qarmonu Bakıda Heydər Əliyev Mərkəzində nümayiş etdirmək istədiklərini bildirir. 2012-ci ildə Mehriban xanımın tövsiyəsi ilə Nazim bəy qarmonu Bakıya aparmaq üçün Heydər Əliyev Fondunun Türkiyədəki nümayəndəsinə təhvil verir. Uğurlu ailəsi illərdir qiymətli əşya kimi qoruyub saxladıqları qarmonu vətənlərinə göndərirlər. Uğruna bir ömür həsr edilən, maraqlı tarixçəsi olan bu qarmon hazırda Heydər Əliyev Mərkəzində Milli Musiqi alətləri bölməsində nümayiş etdirilir...

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun infoqrafika işlərinin satın alınması məqsədilə 14.08.2020-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində **"CİNEMA ART" MMC** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Əhaliyə Vətəndaşlıq Xidməti Tresti "1 saylı Fəxri xiyabanda təmir-abadlıq işlərinin aparılması"nın kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99450 388-18-87 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 21.10.2020-ci il saat 16:03-dən 23.10.2020-ci il saat 12:00-dək qəbul olunur. Zərflərin açılışı 23.10.2020-ci il saat 15:00-da Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin inzibati binasında keçiriləcəkdir.

Ünvan: Bakı şəhəri, Parlament prospekti, 500, ev 2.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi *açıq tenderə dəvət edir*

- Təbii dibçək güllərinin (həmişəyaşıl otaq bitkilərinin) və plastik dibçəklərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 25 (iyirmi beş) manat**

| | |
|---|---|
| **VÖEN:** | **1300050781** |
| **Bank:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **H/h:** | **AZ46CTRE00000000000007018504** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **Kod:** | **210005** |
| **SWIFT:** | **CTREAZ22** |

**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (**notarial qaydada təsdiq olunmuş**) və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış **(sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti **(2019-cu il üzrə);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa və dövlət satınalmalarını hüquqi cəhətdən tənzim edən Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **11.11.2020-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **19.11.2020-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.11.2020-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Göyçay Rayon İcra Hakimiyyəti aşağıdakı işlərin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

1. Göyçay şəhərində daxili yolların əsaslı təmiri.
2. Göyçay şəhərində abadlıq işlərinin görülməsi.

Maraqlanan təşkilatlar 020-27-4-43-45 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Təkliflər sorğusu 27 oktyabr 2020-ci il saat 16:00-da keçiriləcəkdir.
İştirak etmək üçün sənədlər 26 oktyabr 2020-ci il saat 17:00-dək qəbul olunur.
Ünvan: Göyçay şəhəri, M.Ə.Rəsulzadə küçəsi, 118.

***Tender komissiyası***

## Göyçay Rayon İcra Hakimiyyəti aşağıdakı işlərin satın alınması məqsədilə kotirovka sorğusu elan edir

1. Göyçay Rayon İcra Hakimiyyətinin inzibati binasında cari təmir işləri.
2. Göyçay Rayon İcra Hakimiyyətinə maşın və avadanlıqların alınması.

Maraqlanan təşkilatlar 020-27-4-43-45 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 27 oktyabr 2020-ci il saat 17:00-dək qəbul olunur.
Ünvan: Göyçay şəhəri, M.Ə.Rəsulzadə küçəsi, 118.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatın inzibati binasının cari təmir işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 27 oktyabr 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## Koronavirusa 584 nəfər yoluxub, daha 128 nəfər sağalıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına 584 yeni yoluxma faktı qeydə alınıb, daha 128 nəfər sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 45 min 879 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 40 min 272 nəfər müalicə olunaraq sağalıb, 635 nəfər vəfat edib. Aktiv xəstə sayı 4972 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 241 min 664 test aparılıb. Dünənki test sayı isə 9028-dir.

## Ağcabədi rayonunda qardaşı oğlunu odlu silahla qəsdən öldürməyə cəhd edən şəxs tutulub

Oktyabrın 19-da saat 20 radələrində Ağcabədi rayonunun Şənlik kənd sakini Məmmədov Rəfail Həsən oğlunun odlu silahdan açılmış atəş nəticəsində çoxsaylı xəsarətlər alması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Ağcabədi Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış araşdırmalarla zərərçəkmişin əmisi Mamedov Ərəstun Mütəllim oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı Rəfail Məmmədovu öldürmək məqsədilə kustar üsulla hazırlanmış tüfəngdən atəş açaraq qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Faktla bağlı Ağcabədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

Ərəstun Mamedov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# “Azercell”dən koronavirusla savaşan tibb işçilərinə dəstək davam edir

## 700-ə yaxın səhiyyə işçisinə daha 2 ay müddətində 50 azn hədiyyə balans yüklənəcək

Ölkənin lider mobil operatoru “Azercell Telekom” MMC koronavirus infeksiyası (COVID-19) ilə mübarizədə sosial məsuliyyət tədbirlərini davam etdirir. Şirkət COVID-19-la mübarizədə xalqımızın sağlamlığının keşiyində dayanan 700-ə yaxın tibb işçisinin balansına Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü ilə daha 2 ay ərzində hədiyyə balans yükləyəcək. Bu dəfə yüklənəcək vəsait 50 azn təşkil edir. Həkimlərin siyahısı Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təqdim olunub. Hədiyyə olunan məbləğ müasir mobil rabitənin təmin etdiyi bütün xidmətlər (şəbəkədaxili/şəbəkəxarici/ölkəxarici zənglər, SMS, mobil internet) üçün istifadə oluna bilər.




Qeyd edək ki, “Azercell” COVID-19 pandemiyası ilə mübarizədə infeksiyanın yayıldığı ilk gündən etibarən həkimlərə dəstək olur. Şirkət tibb işçilərinin mobil telefon nömrələrinə mart ayında 50 azn, iyul, avqust, sentyabr ayları boyu hər ay 30 azn hədiyyə balans təqdim edib.

Xatırladaq ki, “Azercell Telekom” MMC COVID-19 pandemiyası müddətində vətəndaşlara həm telekommunikasiya dəstəyi göstərib, həm də korporativ sosial məsuliyyət strategiyası çərçivəsində bir çox layihə və xeyriyyə aksiyaları gerçəkləşdirib.

## Azərbaycan Respublikasının Mərkəzi Bankı

### *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq əsas vəsaitlərin, nağd pulun və nəqliyyat vasitələrinin sığortasından ibarət olan birləşdirilmiş sığorta xidmətləri üzrə açıq tender keçirir.

Tender proseduru 04 dekabr 2020-ci il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

İddiaçı qismində Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, müvafiq sığorta növlərinin aparılması üzrə rəsmi razılıq almış, müvafiq icbari sığorta növləri üzrə İcbari Sığorta Bürosunun İştirakçısı Sığortaçılarının Reyestrinə daxil edilmiş sığorta şirkəti çıxış edə bilər.

İddiaçının tələb olunan kapitalı Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 04 mart 2020-ci il tarixli 08/2 nömrəli Qərarına uyğun olaraq qeyri-həyat sığortası fəaliyyəti üzrə sığortaçılar üçün tələb olunan 5 000 000 (beş milyon) manatdan az olmamalıdır.

Təkrarsığorta xarici təkrarsığorta şirkəti tərəfindən həyata keçirildikdə xarici təkrarsığorta şirkəti Mərkəzi Bankın müvafiq reyestrinə daxil edilmiş təkrarsığorta şirkəti olmalıdır (təkrarsığorta xarici sığorta brokeri vasitəsilə həyata keçirildikdə də).

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi razılığın (lisenziyanın) və əmlakın, o cümlədən nağd pulun yanğından və digər risklərdən sığortalanmasına, nağd pulun daşınması üzrə risklərdən sığortalanmasına, habelə avtonəqliyyat vasitələrinin könüllü və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına dair verilmiş razılığın surəti;*
- *tenderin Əsas şərtlər toplusunda müəyyən edilmiş reytinqə malik olan təkrarsığortaçılar tərəfindən riskin qəbul edilməsini təsdiq edən məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 19 yanvar 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 03 dekabr 2020-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 25 noyabr 2020-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderdən kənarlaşdırılacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün Mərkəzi Bankın aşağıdakı hesabına 300 (üç yüz) manat məbləğində iştirak haqqı köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK: NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Sığorta xidmətinin göstərilməsinə 01 yanvar 2021-ci il tarixdən başlanılır. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə xidmət göstərilməsinə 25 yanvar 2021-ci il tarixdən başlanılır.

Sığorta xidmətinin göstərilməsi müddəti: 1 (bir) il.

Qiymətləndirmə meyarları: qiymət, təklif olunan xidmətlər toplusu üzrə sığorta şərtləri və şərtsiz azadolma məbləğləri.

Tenderdə iştirak etmək istəyən sığorta şirkətləri iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxslər:

Elvin Şirdanov (Hüquq departamenti), telefon: 493-11-22 (dax.tel: 428), elektron poçt ünvanı: elvin_shirdanov@cbar.az

Ceyhun Səməndov (İnzibati departament), telefon: 493-11-22 (dax.tel: 599), elektron poçt ünvanı: ceyhun_samandov@cbar.az.

***Tender komissiyası***

## “Bakı Metropoliteni” QSC Bakı Metropoliteninin III yeni (“Bənövşəyi”) xəttinə aid “B-3” stansiyasında quraşdırılmış elektromexanika avadanlıqlarının avtomatikası və telemexanikası işləri üçün Scada sisteminə aid serverlərin alınması və quraşdırılması işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **Bakı Metropoliteninin III yeni (“Bənövşəyi”) xəttinə aid “B-3” stansiyasında quraşdırılmış elektromexanika avadanlıqlarının avtomatikası və telemexanikası işləri üçün Scada sisteminə aid serverlərin alınması və quraşdırılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https:www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https:www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adıçəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 012 490-01-01.

**İştirak haqqı - 200 manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 12 noyabr 2020-ci il saat 11:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 20 noyabr 2020-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 23 noyabr 2020-ci il saat 11:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 25 avqust 2020-ci il tarixdə LOT-1 üzrə müxtəlif növ yastıq və yastıq məmulatlarının satın alınmasına dair açıq tender üsulu ilə keçirilən müsabiqədə “PİC AZERBAİJAN” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 20.10.2020-ci il tarixdə 287504.40 (iki yüz səksən yeddi min beş yüz dörd manat 40 qəpik) manat ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu xidməti minik avtomobillərinin cari təmiri işlərinin satın alınması üçün

### *kotirovka sorğusu elan edir*

Təkliflər 23 oktyabr 2020-ci il saat 11:00-a qədər Bakı şəhəri, H. Zərdabi prospekti, 80 ünvanına, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim olunmalıdır.

Zərflər 23 oktyabr 2020-ci il saat 14:00-da H.Zərdabi prospekti, 80 ünvanında nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatının inzibati binasında açılacaqdır. Əlavə məlumatı Tender komissiyasından əldə etmək olar.

**Əlaqə telefonu: 012-530-29-03**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu xidməti minik avtomobillərinin əsaslı təmiri işlərinin satın alınması üçün

### *kotirovka sorğusu elan edir*

Təkliflər 23 oktyabr 2020-ci il saat 11:00-a qədər Bakı şəhəri, H. Zərdabi prospekti, 80 ünvanına, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim olunmalıdır.

Zərflər 23 oktyabr 2020-ci il saat 14:00-da H.Zərdabi prospekti, 80 ünvanında nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatının inzibati binasında açılacaqdır. Əlavə məlumatı Tender komissiyasından əldə etmək olar.

**Əlaqə telefonu: 012-530-29-03**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən keçirilmiş bağ alətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə “Proqres” xüsusi firması qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 20.10.2020-ci il tarixdə ƏDV daxil 49 859,72 (qırx doqquz min səkkiz yüz əlli doqquz manat 72 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən keçirilmiş plastik boruların kotirovka sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə “ZZ PROCUREMENT” QSC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 20.10.2020-ci il tarixdə ƏDV daxil 47 760,50 (qırx yeddi min yeddi yüz altmış manat 50 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

*Təkrar*

## “Azərsu” Açıq Səhmdar Cəmiyyəti

### *açıq tender elan edir*

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 1752 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 02 iyul tarixli 2138 nömrəli Sərəncamının icrası məqsədilə “Ceyranbatan gölünün şimal-şərq hissəsində (Saray qəsəbəsi istiqamətində) yağış və tullantı sularının idarə olunması sisteminin yaradılması (I mərhələ)” işlərinin satın alınması

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin Təchizat və satınalmaların idarə olunması departamentindən (Əlaqələndirici şəxs: Tağıyev İlqar Rauf oğlu, telefon: + 99 412 431-47-67/87 - daxili 1033, E-mail: **i.tagiyev@azersu.az** və Novruzov İntizam Cəmil oğlu, telefon: + 99 412 431-47-67/87 - daxili 3019, E-mail: **intizam.novruzov@azersu.az**) ala bilərlər.

**Tenderdə iştirak haqqı: 500 (beş yüz) AZN**

**“Azərsu” Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: “Kapitalbank” ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi: AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi: AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı ilkin uyğunluq sənədlərini təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti;*
- *iddiaçının son 3 ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (ən azı 12 milyon manat dövriyyə tələb olunur);*
- *iddiaçının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *iddiaçının işçi heyəti, avadanlığı və texnikası barədə məlumat;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq İ və İİ məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 noyabr 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **23 noyabr 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İştirakçıların təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən “Azərsu” Açıq Səhmdar Cəmiyyətində **24 noyabr 2020-ci il saat 16:00-da** açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

İlqar Fərzəliyev və Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin əməkdaşları Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Cəmil Musayevə oğlu

**TOĞRUL MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı İşçilərinin Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçilərinin Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhəmmədəli Salmanova oğlu

**ELÇİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi

**AYDIN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəhman Salmanlı Loğman Rəşidzadəyə bacısı

**MARAL XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Azdövsutəslayihə” İnstitutunun direktoru Elbrus Paşayev və institutun kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi

**AYDIN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7466
Sifariş 2449
Qiyməti 40 qəpik